RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 64 (8943) CÜMƏ AXŞAMI, 31 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# LƏYAQƏTLİ MÜHARİBƏ

**"Biz müharibəni ləyaqətlə aparmışıq, bütün müharibə qanunlarına riayət edərək aparmışıq. Biz mülki əhaliyə qarşı vuruşmamışıq, biz binaları bombalamamışıq, biz qəddarlıqla məşğul olmamışıq".**

**İlham ƏLİYEV**

İnsanin dünyaya gəlişi və həyatdan getməsi Allahın adı ilə bağlıdır!

Allahın yaratdığını Uca Tanrının özündən başqa heç kim həyatdan məhrum etməməlidir!

Bu günahdır!

Həm də cinayətdir!

*Lakin bəzən insan öldürmək nəinki günah, cinayət əməli sayılır, əksinə zərurət, qəhrəmanlıq hesab olunur!*

*Əlbəttə, söhbət ədalətli müharibədən, rəzil düşmənin öldürülməsindən gedir!*

**Vətənin müdafiəsi, doğma torpaqların qorunması, işğaldan azad edilməsi müqəddəs borc, vəzifədir!**

Şair gözəl deyib:

Vətəni sevməyən insan olmaz...

Sevdiyini isə qorumağı, müdafiə etməyi bacarmalısan!

Həm də bütün bunları qəlbən istəməlisən!

Üstəlik, bu yolda hər an şəhid getməyə də hazır olmalısan!

❖ ❖ ❖

Müharibədə qarşılaşan hər iki tərəf bir-birini düşmən sayır!

Bir-birini öldürmək istəyir!

Kimin haqlı, kimin təcavüzkar sayılmasından asılı olmayaraq.

*Bu qan tökməyin, qəddarlığın da özünəməxsus qanunları, normaları var.*

*Müharibədə də müəyyən qırmızı xətlər mövcud olur.*

Həm mülki əhaliyə münasibətdə, həm işlədilən silahlarda, həm də müharibə aparılan ərazidə yaşayan insanlarla davranışda...

**Azərbaycan xalqının təbirincə desək, düşmənin də mərdi və namərdi olur!**

**Vay o gündən ki, düşmənin namərd, alçaq, xəbis, yalançı, satqın, qorxaq, ikiüzlü, yaltaq və hiyləgər ola!**

**Erməni kimi!**

Azərbaycan xalqı həmişə açıq döyüşün, mərd düşmənçiliyin tərəfdarı olub.

Dastanlarda, nağıllarda, roman və povestlərdə belə düşmən təqdir edilib.

Heyhat, real həyatda qarşımıza çıxan namərd erməni oldu!

*Amma xalqımız Vətən müharibəsində murdar düşmənə qarşı mərdliklə, kişi kimi döyüşdü, cəsarət, rəşadət, qəhrəmanlıq nümunələri göstərdi.*

*Düşmənin bütün alçaqlıqlarının, şərəfsizliyinin dəfələrlə şahidi olsa da!*

Azərbaycan xalqının 44 günlük Vətən müharibəsi təkcə ona görə ləyaqətli müharibə hesab olunmur ki, torpaqların işğaldan azad edilməsi uğrunda aparılan savaş ədalətli, beynəlxalq hüquqa və onun tələblərinə cavab verən şəkildə gerçəkləşdi.

Bu müharibənin ən yeni silahlarla, taktika və strategiya ilə aparılması, XXI əsrin ən yeni müharibəsi sayılması, dünya üçün nümunəyə çevrilməsi sırf hərb, hərb elminin tələblərinə cavab verməsi məsələnin yalnız hərbi-texniki tərəfidir.

*Ardı 4-cü səh.*

# "Qətiyyətli dəstək" missiyasına Azərbaycanın verdiyi töhfə təqdir olunur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Böyük Britaniyanın Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu məmnunluqla vurğulandı və bu dövr ərzində ölkələrimiz arasında müxtəlif sahələrdə səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi. Bu münasibətlə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Consonun Prezident İlham Əliyevə və dövlətimizin başçısının Boris Consona ünvanlanmış təbrik məktublarının əhəmiyyəti qeyd edildi.

Bildirildi ki, 30 illik dövrdə uğurlu əməkdaşlığın həyata keçirilməsi əlaqələrimizin bundan sonra da genişlənməsi üçün yaxşı zəmin yaradır.

Görüşdə neft, qaz, Azərbaycan iqtisadiyyatına Böyük Britaniya tərəfindən sərmayə qoyuluşu, ticarət, nəqliyyat, müdafiə sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" missiyasında Azərbaycanın iştirakı qeyd edildi.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra bölgədə postmünaqişə dövründə gedən proseslər barədə danışdı.

# Azərbaycanın qətiyyəti qarşısında üzr istədi

## Siyasi əxlaqsızlığın və xəstə təfəkkürün daşıyıcısı M.Delyagin cinayət məsuliyyətindən yayına bilməyəcək

**Rusiyanın Dövlət Dumasının deputatı, İqtisadi siyasət komitəsinin sədr müavini Mixail Delyaginin televiziyada səsləndirdiyi məlum təxribat xarakterli çıxışı elə Rusiyanın özünün siyasi-ictimai dairələrində ciddi etirazlara səbəb oldu.**

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov M.Delyagini öz şəxsi emosiyalarını cilovlamağa və Azərbaycanın ünvanına qeyri-dost ifadələrlə çıxış etməməyə çağırdı. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə bu cür açıqlamaların tamamilə qəbuledilməz və məsuliyyətsiz hesab olunduğunu dedi.

Belə açıqlamaların heç bir halda ölkəsinin və Rusiya rəhbərliyinin Bakı ilə müttəfiqliyə, qarşılıqlı fəaliyyətə və strateji tərəfdaşlığın qurulmasına yönəldilən rəsmi mövqeyini əks etdirmədiyini bildirən Mariya Zaxarova əmin olduğunu bildirdi ki, Dövlət Dumasının rəhbərliyi tərəfindən bu cür təxribat xarakterli açıqlamalara müvafiq qiymət veriləcək.

*Ardı 3-cü səh.*

# Mütərəqqi islahatların uğurlu nəticəsi

**Ölkəmizdə yeni ədliyyə sisteminin müasirləşdirilməsi ilə bağlı aparılan islahatlar çərçivəsində penitensiar xidmətin fəaliyyəti təkmilləşdirilir, cəza siyasəti humanistləşdirilir, məhkumların hüquqlarının qorunması, saxlanma şəraitinin, tibbi və digər təminatlarının yaxşılaşdırılması üzrə ardıcıl tədbirlər görülür, yeni penitensiar müəssisələr tikilir.**

*Bax: səh. 4*

# Qələbiyyət ruhu

**Novruz yeni mövsümün başlanğıcıdır. Bu bayramın qeyd edildiyi bütün coğrafiyalarda insanlar Novruzdan sonra böyük ruhla, gələcəyə işıqlı ümidlərlə öz məqsədlərinə doğru irəliləməyə başlayırlar.**

İki ildir ki, xalqımız bu bayramı qələbə ovqatı ilə qeyd edir. Artıq qəlbimizdəki ən böyük həsrət bitib. Torpaqlarımız düşmən tapdağından azad olunub. İşğaldan qurtulmuş yurdlarımıza yollarımız açılıb. İndi baharın gətirdiyi gözəllikləri ecazkar Qarabağ torpaqlarında da duyub yaşamaq olur.

## Müdriklik və məsuliyyət nümunəsi

Novruz xalqımızın qurub-yaratmaq, dünyanı abadlaşdırmaq, həyatı nizama, səliqə-səhmana salmaq amalının təcəssümüdür. Azərbaycan dövləti bu gün ölkəmizin bütün regionları kimi, Qarabağda, Şərqi Zəngəzurda da genişmiqyaslı bərpa-quruculuq işlərini davam etdirir. Ordumuzun bir-birinin ardınca qələbələr qazanıb üçrəngli bayrağımızı səmalara yüksəltdiyi yerlərdə indi iqtisadiyyatımız irəliləyir. Erməni vandallarının onilliklərlə dağıdıb viran qoyduqları dədə-baba ocaqlarımız yenidən həyata qayıdır. Qələbənin verdiyi ruh yeni başlanğıclar üçün sarsılmaz bir gücə çevrilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasətin uğurları, indiki gərgin dünyamızda nümayiş etdirdiyi son dərəcə müdrik, məsuliyyətli mövqe ölkəmizin aydın gələcəyini təmin edir.

Bu siyasət sayəsində Azərbaycan ardıcıl inkişaf yolundadır. Dünyanın müxtəlif ölkələrində müharibələrin getdiyi, qlobal maraqların toqquşduğu zamanda ölkəmiz özünü bu təlatümlərin ziyanlarından uzaqda saxlaya bilir. Eyni zamanda hərbi münaqişələrin yoluna qoyulması, dünyada sülhün, təhlükəsizliyin təmin olunması üçün çalışır. Regionda yeni reallıqlar yaradır. Hər kəs üçün faydalı əməkdaşlıqlara doğru geniş imkanlar açır. Azərbaycan bütün dünyaya böyüklük və məsuliyyət nümunəsi göstərir.

Bolqarıstanda keçirilmiş güləş üzrə VII Avropa Çempionatının iştirakçılarını qəbul edərkən Prezident İlham Əliyev bu məqama xüsusi toxundu.

*Ardı 4-cü səh.*

# Azərbaycanın yeni turizm ünvanı - Suqovuşan

## İşğaldan azad olunmuş ərazilərimizə 2025-ci ilə qədər 1 milyona yaxın turistin gəlməsi gözlənilir

**Qarabağ və Şərqi Zəngəzur dünyaya yeni turizm destinasiyası kimi təqdim ediləcək.**

**Bu torpağın turizm potensialı yüksəkdir, mövcud imkanlar həm daxili, həm də beynəlxalq turizmin inkişafı üçün geniş perspektivlər açır. Odur ki, Azərbaycan dövlətinin işğaldan azad etdiyi ərazilərdə apardığı bərpa-quruculuq işlərində, bölgənin gələcəyi ilə bağlı planlarında turizmin inkişafı məsələləri önəmli yer tutur.**

*Bax: səh. 5*









# Qubada “Soyqırım: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış” mövzusunda elmi-praktiki konfrans keçirilib






**Martın 30-da Qubada Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə “Soyqırım: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış” mövzusunda elmi-praktiki konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsini ehtiramla anıblar.

Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı qonaqlar ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar.

Ziyarətçilər Quba Soyqırımı Memorial Kompleksinin xatirə kitabına ürək sözlərini yazıblar.

“Quba Palace Hotel”ində YAP Nərimanov Rayon Təşkilatının sədri Samir Vəliyevin moderatorluğu ilə keçirilən tədbirin əvvəlində soyqırımı qurbanlarının, həmçinin torpaqlarımızın azadlığı və suverenliyi uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxış edərək bildirib ki, Azərbaycan xalqı son iki əsrdə erməni vandalizmi və terrorizminə məruz qalmışdır. İstər XX, istərsə də XXI yüzillikdə təcavüzkar erməni millətçiləri xalqımıza qarşı milli-etnik zəmində kütləvi qətliamlar törətmiş, soyqırımı aktları həyata keçirmiş, bəşəriyyət əleyhinə qəddar və amansız cinayətlərə imza atmışlar. 31 Mart soyqırımı da tarixin və xalqımızın hafizəsinə əbədi həkk olunmuş qan yaddaşıdır.

Tahir Budaqov qeyd edib ki, ermənilərin 1918-ci ilin martında havadarlarının köməyi ilə azərbaycanlılara qarşı törətdikləri soyqırımının miqyası böyükdür. Sıralarında çoxlu sayda erməni millətçilərinin cəmləşdiyi Bakı Kommunası “əks-inqilabçılara qarşı mübarizə” şüarı altında 1918-ci ilin martında Bakı quberniyasında azərbaycanlıların tamamilə məhv edilməsi kimi cinayətkar planın icrasını həyata keçirməyə cəhd etdi. Erməni quldur dəstələri təkcə Bakıda deyil, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və digər yerlərdə dinc əhaliyə qarşı soyqırımı törətdilər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı oldu.

Azərbaycanlıların ermənilər tərəfindən qətlə yetirilməsi, soyqırımına məruz qalması sonrakı dövrlərdə də davam edib. 1920-ci ilin may ayından 1921-ci ilin noyabrına qədər Azərbaycanda ermənilər tərəfindən 48 min nəfər qətlə yetirilib. 1930-cu illərə də diqqət yetirəndə məlum olur ki, bolşevik hökuməti tərəfindən müxtəlif repressiyalar adı altında xalqımız soyqırımına məruz qalıb. 1988-ci ildən isə mənfur qonşularımız yenidən fəallaşmağa başlayıblar. Ermənistan öz havadarlarının dəstəyi ilə Azərbaycana qarşı ərazi iddiaları irəli sürüb, işğalçılıq siyasətinə start verib. Bundan başqa, ermənilər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində XX əsrin ən dəhşətli soyqırımlarından birini törədiblər. Ermənistan 30 ilə yaxın müddət ərzində Azərbaycanın torpaqlarının 20 faizini işğal altında saxlamaqla yanaşı, mənəvi, ekoloji terror, müharibə cinayətləri törədib, dinc - sivil insanları qətlə yetirib. Bu faktlar təcavüzkar erməni vandalizminin siması və daha bir nümunəsi kimi tarixə düşüb.

YAP Sədrinin müavini deyib: “Azərbaycan xalqı və dövləti tarixi yaddaşımızın qorunmasına hər zaman böyük həssaslıqla və xüsusi diqqətlə yanaşır. Eləcə də erməni vandalizmi və terrorizmi unudulmur, müvafiq siyasi-hüquqi qiymət verilir, reallıqlar dünya ictimaiyyətinə çatdırılır, erməni yalanları ifşa olunur, dezinformasiya kampaniyaları iflasa uğradılır. Xatırlatmaq vacibdir ki, 31 Mart soyqırımına ilk dəfə siyasi və hüquqi qiymət xalqımızın Ümummilli Lideri, dahi şəxsiyyət - müdrik dövlət xadimi Heydər Əliyev tərəfindən verilib. Ümummilli Lider 1998-ci il martın 26-da “Azərbaycanlıların soyqırımı haqqında” müvafiq Fərman imzalayıb, 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Bununla yanaşı, Prezident İlham Əliyev “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Sərəncam imzalayıb. Sərəncamdan irəli gələrək genişmiqyaslı tədbirlər keçirilib.

Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyasının Sədrinin birinci müavini Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da bu istiqamətdə çox vacib işlər görür - mühüm layihələr reallaşdırır. Fondun dəstəyi ilə Quba Soyqırımı Memorial Kompleksinin yaradılması isə böyük əhəmiyyət daşıyır. Fond tərəfindən keçmiş münaqişə ilə əlaqədar müasir və təkmil internet resurslarının yaradılması, müxtəlif dillərdə “Qarabağ həqiqətləri” adlı bukletlərin hazırlanması, geniş auditoriyaya paylanması və digər addımlar dünya ictimaiyyətinə doğru - obyektiv məlumatın çatdırılmasına imkan verib. Fondun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə “Xocalıya ədalət!” kampaniyasının uğurla davam etdirilməsi isə xüsusi qeyd olunmalıdır. Bütün bunların nəticəsi kimi, ayrı-ayrı ölkələrin qanunvericilik orqanları ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi cinayət əməllərini qətiyyətlə pisləyən qərar və qətnamələr qəbul ediblər. Beləliklə, erməni vandalizminin real faktlar əsasında dünyada ifşa olunması, beynəlxalq informasiya platformasında Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi, müharibəsonrası çoxvektorlu diplomatik fəaliyyətə informasiya dəstəyinin verilməsi kimi istiqamətlərdə həyata keçirilən tədbirlər strateji xarakter daşıyır. Bu, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyasının tərkib hissəsi kimi qlobal ictimai rəyin daim Azərbaycanın lehinə olması hədəfinə çatmağa real imkanlar - əlverişli zəmin və şərait yaradır. Bütövlükdə bu gün dünya özünü “məzlum xalq” kimi təqdim edərək beynəlxalq ictimai rəyi yanıltmağa çalışan ermənilərin əsl üzünü - barbar və vandal simasını görür, faktlar və həqiqətlər öz sözünü deyir. Beynəlxalq ictimaiyyətə bir daha agah olur ki, ermənilərin xalqımıza qarşı törətdiyi vandalizm aktları həm beynəlxalq hüquq normaları ilə təsbit olunmuş müxtəlif konvensiyalara əsasən, həm də mənəvi-əxlaqi kodekslərə görə, insanlığa qarşı - bəşəriyyət əleyhinə cinayətdir”.

44 günlük Vətən müharibəsində Azərbaycanın işğalçı və terrorçuları döyüş meydanında layiqincə cəzalandırdığını söyləyən Tahir Budaqov deyib ki, yaxın tarixdə törədilmiş qanlı cinayətlərin qurbanlarının qanı yerdə, qisas isə qiyamətə qalmadı. “Əminliklə söyləmək olar ki, azərbaycanlılara qarşı erməni vandalizminin simasını təşkil edən digər qatillər və canilər də qanun qarşısında cavab verəcək, layiqli cəzalarını alacaqlar. Azərbaycan xalqının gücü-qüdrəti, beynəlxalq imici və nüfuzu, xalqımızın mübarizə əzmi və sarsılmaz həmrəyliyi buna imkan verir!”, - deyə o, əlavə edib.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev “Soyqırımı memorial kompleksi: azərbaycanlılara qarşı törədilmiş soyqırımların qan yaddaşı kimi” adlı məruzəsində bildirib ki, 2007-ci ildə Quba şəhərində aparılan tikinti işləri zamanı kütləvi məzarlığın aşkar olunması ermənilərin xalqımıza qarşı həyata keçirdiyi mart soyqırımının dəhşətlərini bir daha ortaya çıxarıb. Əldə olunan maddi sübutlar və sənədlərlə 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin törətdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğu sübuta yetirilib.

Erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2009-cu il oktyabrın 30-da imzaladığı müvafiq sərəncama əsasən, Heydər Əliyev Fondunun dəstəyi ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi inşa edilib. 2013-cü il sentyabrın 18-də dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə bu kompleksin açılışı olub. Soyqırımı kompleksində yalnız Quba qəzasında deyil, Bakı quberniyasının Cavad, Göyçay, Şamaxı və Bakı qəzalarında törədilmiş soyqırımına dair məlumatların əks olunduğu tarixi sənədlər saxlanılır.

Azərbaycan Respublikasının baş prokurorunun 1-ci müavini Elçin Məmmədov “Azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətləri: istintaq və nəticələri” mövzusunda məruzəsində qeyd edib ki, soyqırımı ilə bağlı ötən illər ərzində aparılan araşdırmalar nəticəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanıb. Bu müddət ərzində Qubada kütləvi məzarlıq aşkar edilib. Bu faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş, faciə qurbanlarının sayının isə qat-qat çox olduğunu sübut edib.

Elçin Məmmədov bildirib ki, Azərbaycan tarixinə bir sıra şanlı səhifələrlə yanaşı, soyqırımı və faciələr də yazılıb. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 1918-ci ilin mart-aprel ayında Bakı sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır.

“Bu dəhşətli hadisə miqyasına və amansızlığına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Həmin günlərdə azğınlaşan erməni qüvvələri Bakı, Quba, Şamaxı, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar, etnik təmizləmələr həyata keçiriblər. Dinc sakinlər etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilib. 50 mindən çox sakin erməni faşizminin qurbanı olub”, - deyə Elçin Məmmədov söyləyib.

Baş prokurorun 1-ci müavini qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən ermənilərin törətdikləri bu ağır cinayətlərin araşdırılması üçün fövqəladə istintaq komissiyası yaradılıb. Komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görülüb. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılıb. Baş verənlərin sona qədər tədqiq edilməsi və ona siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yaranıb. Uzun illər gizli saxlanılan və üzərinə qadağa qoyulmuş həqiqətlər bir-bir açılmağa başlamışdır. Məlum hadisələrdən yalnız 80 il sonra - 1998-ci il mart ayının 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan olunub.

Elçin Məmmədov bildirib ki, 1918-ci ilin mart-aprel aylarında Quba qəzasında çoxlu sayda insanların işgəncələr verilməklə qətlə yetirildiyi kütləvi məzarlıqla bağlı daha ətraflı istintaqın aparılması məqsədilə, habelə Neftçala rayonunun Dirovdağ və Qubanın İspik kəndi yaxınlığında meşəlik ərazidə aşkar edilən insanların dəhşətli şəkildə həlak olması əlamətləri üzrə 2010-cu il mayın 26-da Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Həmin dövrdə baş prokurorun qərarı və peşəkar müstəntiqlərin iştirakı ilə istintaq qrupu yaradılıb. İş üzrə çoxsaylı şəxslər, hadisələrin bilavasitə şahidi olan və yaxud zərərçəkmiş şəxslərin yaxın qohumları müəyyən edilərək dindirilib. Azərbaycan Respublikası Tarix, Arxeologiya və Etnoqrafiya institutlarına, Milli Arxiv İdarəsinə, Respublika Dövlət Arxivinə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, ictimai və dini təşkilatlara sorğular göndərilib, kompleks məhkəmə tibbi, kriminalistika və sair ekspertizalar təyin edilərək rəylər alınıb.

“Erməni millətçilərinin silahlı basqınlarının izlərini özündə saxlayan maddi sübutlar aşkar edilərək müayinə olunub. İstintaqın gedişində toplanan sübutların məcmusu ilə, o cümlədən 1918-1920-ci illər mövcud olmuş Azərbaycan Demokratik Respublikası hökumətinin ermənilərin törətdiyi qırğınların tədqiqi məqsədilə təşkil etdiyi fövqəladə istintaq komissiyasının materiallarının, həmin hadisələrin canlı şahidi olmuş şəxslərin ifadələri, arxiv idarələrindən əldə olunan sənədlərin təhlili və sair sübut növləri ilə 1918-ci ildə Bakı şəhərində, Quba, Şamaxı qəzalarında və digər bölgələrdə azərbaycanlılara qarşı törədilən kütləvi qırğınların, onların əmlaklarının talan edilməsinin Şaumyan, Bakı Sovetinin hərbi inqilabi komitəsinə rəhbərlik edən Karqanov, Bakı Xalq Komissarları Sovetinin təşkil etdiyi ordu briqadasının komandirləri olan Amazaps, Svartiyan, Zurabyan, Arutünyan, korpus komandiri polkovnik Kazaryan, Avetisyan, Lalayan və digər erməni millətçiləri tərəfindən milli mənsubiyyət faktoruna əsasən həyata keçirilmiş soyqırımı cinayəti olması sübuta yetirilib”, - deyə E.Məmmədov söyləyib.

Baş prokurorun 1-ci müavini prokurorluq orqanları tərəfindən, eləcə də digər dövlət qurumları, vətəndaş cəmiyyəti institutları ilə əlaqəli şəkildə erməni millətçi cinayətkar qrupları tərəfindən xalqımızın başına gətirilən müsibətlərin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq hüquqi qiymətin alması üçün zəruri işlərin bundan sonra da davam etdiriləcəyini deyib.

Xarici işlər nazirinin müavini Elnur Məmmədov “Erməni millətçiliyi və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti” adlı məruzəsində qeyd edib ki, Ermənistan işğal altında olmuş ərazilərdə kütləvi məzarlıqların yerini bildirən məlumatları Azərbaycana verməkdən boyun qaçırır. Erməni millətçilərinin Azərbaycan xalqına qarşı etnik təmizləmə və soyqırımı siyasəti sovet hakimiyyəti dövründə də davam etdirilib. Sovet İttifaqı dağıldıqdan sonra da Azərbaycan torpaqlarının işğal edilməsi, həmin ərazilərdə də yerli əhalinin etnik təmizlənməsi ilə nəticələnən kütləvi qırğınlarla müşayiət edilib.

“Erməni millətçiləri tərəfindən fərqli bölgələrdə insanlıq əleyhinə cinayətlər törədilib. Onların sırasında Xocalı, Başlıbel, Ballıqaya, Ağdaban, Meşəli, Cəmilli, Quşçular, Malıbəyli faciələrini xüsusilə qeyd etmək olar. Bu hadisələrin hər biri dinc əhalinin öldürülməsinə, terrora hesablanıb, qırğınların ardıcıl və sistematik həyata keçirilməsi isə onların Ermənistan tərəfindən dövlət səviyyəsində planlaşdırıldığını göstərir. Birinci Qarabağ müharibəsindən bu günədək 4000-dək soydaşımız barədə hələ də məlumat yoxdur. Torpaqlarımızın işğaldan azad olunmasından sonra Kəlbəcərin Başlıbel, Şuşanın Daşaltı, Xocavəndin Edilli kəndləri ərazisində kütləvi məzarlıqlar aşkar edilib. Aparılan tədqiqatlar nəticəsində müəyyən olunub ki, bu məzarlıqlar, meyit qalıqları Birinci Qarabağ müharibəsi zamanı erməni hərbçiləri tərəfindən əsir və girov götürülərək, ağır işgəncələr verilərək qətlə yetirilən Azərbaycan vətəndaşlarına aiddir”, - deyə nazir müavini söyləyib.

Elnur Məmmədov vurğulayıb ki, bu günlərdə Xocalının Fərrux yüksəkliyində də insan sümükləri aşkarlanıb və həmin qalıqların da tədqiqatı həyata keçiriləcək.

Türkiyənin Azərbaycandakı səfirinin müavini Tuğba Sarıyönlü “Ortaq kədər və tarixi qardaşlıq” mövzusundakı məruzəsində iki qardaş ölkənin ortaq acılarının xalqlarımızı daha sıx birləşdirdiyini, ədalətsizliyə qarşı birlikdə mübarizə aparmalı olduğumuzu bildirib.

Tuğba Sarıyönlü qeyd edib ki, Azərbaycan və Türkiyə prezidentləri arasında imzalanmış Şuşa Bəyannaməsi olduqca mühüm sənəddir. Şuşa Bəyannaməsinin müstəsna siyasi və tarixi əhəmiyyəti var. Bu bəyannamə vacib müttəfiqlik anlaşmasıdır. Bu sənədin imzalanmasında məqsəd Azərbaycanla Türkiyə arasındakı münasibətləri daha da gücləndirməkdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov “Ermənistanın soyqırımı siyasətinin dini aspektləri” mövzusunda çıxışı zamanı bu kimi elmi konfransların tarixboyu xalqımıza qarşı törədilən qırğınlar haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

“Ermənilərin əsassız iddialarının ifşa edilməsində, onların Anadoluda, Azərbaycanda törətdikləri soyqırımları ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında istər Türkiyədə, istərsə də ölkəmizdə aparılan geniş ideoloji və təbliğati iş öz müsbət bəhrəsini verməkdədir. Dünya ictimaiyyəti artıq ermənilərin iç üzünü tanıyır. Hamı görür ki, ermənilərin soyqırımı iddiaları siyasi alətdən başqa bir şey deyil”, - deyə Gündüz İsmayılov söyləyib.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli “Erməni vəhşiliyi tarixin yaddaşında: dağıdılmış və yandırılmış tarixi abidələr” mövzusunda çıxış edib. “Təəssüflə qeyd etməliyik ki, işğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli-mənəvi dəyərləri təhqir edilib. Bu baxımdan Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Horadiz kəndindəki iki məscid, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri xüsusilə qeyd olunmalıdır”, - deyə Azad Cəfərli söyləyib.

Dövlət xidmətinin rəisi bildirib ki, erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri İslam dini abidələri, yəni məscidlər, türbələr və digər inanc yerləri olub. Ermənilər xalqımıza məxsus məscidlərin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdiriblər.

Xocavənd rayonunda yerləşən Azıx mağarası, Ağdam rayonunda yerləşən Şahbulaq qəsrinin yaxınlığında təcavüzkar Ermənistan rəhbərliyinin təşkilatçılığı ilə xarici ölkələrdən olan mütəxəssislərin də daxil edildiyi saxta arxeoloji ekspedisiyalar tərəfindən qanunsuz qazıntı işləri təşkil olunmuşdur. Eyni zamanda Ermənistan tərəfi daha bir təxribata əl ataraq, Şuşa şəhərindəki Yuxarı Gövhər ağa məscidində “bərpa işləri” adı altında abidənin tarixini saxtalaşdırmaqla məşğul olub, xalqımıza məxsus bu tarixi tikilinin fars məscidi olmasını iddia edib.

Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov bildirib ki, 1918-ci ildə Bakıda, Şamaxı, Quba qəzalarında, Qərbi Azərbaycan və Cənubi Azərbaycanda türk-müsəlman əhalisinə qarşı erməni hərbi birləşmələri tərəfindən soyqırımı həyata keçirilib. Minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib. Bu, ermənilərin “böyük Ermənistan” planını həyata keçirmək üçün türk-müsəlman əhalisinə qarşı məqsədli soyqırımı idi.

Professor Anar İsgəndərov məruzəsində erməni cəmiyyətində əsrlərdən bəri kök salmış türk düşmənçiliyi məsələsinin tarixi köklərinə də diqqət çəkib. Fövqəladə Təhqiqat Komissiyasının nadir sənədlərinə istinad edərək, müqayisəli təhlil əsasında 1905-1906-cı illər, 1918-ci ilin mart soyqırımlarının səbəb və nəticələri haqqında ətraflı məlumat verib.

Yekunda çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov konfransda maraqlı məruzələrin, faktların təqdim olunduğu bildirib. “Tarixdən ibrət dərsindən nəticə çıxarılmalıdır”, - deyən Tahir Budaqovun sözlərinə görə, gələcəkdə belə faciələrin bir daha yaşanmaması üçün keçmişimizi unutmamalı və daha güclü olmalıyıq. Bunun üçün isə Heydər Əliyev yolunun müzəffər davamçısı Prezident İlham Əliyevin ətrafında hər zaman sıx birləşməliyik.

Tədbirin sonunda elmi-praktiki konfransın iştirakçıları adından bəyanat qəbul olunub (Bəyanat qəzetin bugünkü nömrəsində dərc olunur).

## Xalqımıza qarşı aparılan soyqırımı siyasətinə uzun müddət siyasi-hüquqi qiymət verilmədiyi üçün tarixi faktlar həmişə ermənilər tərəfindən təhrif olunub

Qubada keçirilən 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş “Soyqırımı: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış” adlı elmi-praktik konfransın iştirakçıları adından bəyanat qəbul olunub. AZƏRTAC bəyanatı təqdim edir:

Ermənilərin öz havadarlarına arxalanaraq son 200 ildə soydaşlarımıza qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi etnik təmizləmə, deportasiya və soyqırımları barədə reallıqlar, təkzibedilməz faktlar Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi siyasət nəticəsində daim beynəlxalq ictimaiyyətə çatdırılır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində misilsiz xidmətləri də aparıcı ölkələrdə, eləcə də nüfuzlu beynəlxalq təşkilatlarda erməni uydurmalarını ifşa edir.

Məhz bunun nəticəsidir ki, tarixi yalanlar üzərində qurulmuş məkrli erməni siyasəti, erməni mifi darmadağın edilib, ermənilərin Azərbaycan torpaqlarına XIX əsrin əvvəllərində məqsədli şəkildə köçürülməsi, zaman-zaman törədilmiş saysız-hesabsız cinayətlər, xüsusən 1905-1906, 1918, 1948-1953, 1988-1993-cü illərdə xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə, işğal, terror, deportasiya, soyqırımı aktları barədə əsl həqiqətlər dünya ictimaiyyətinə bəlli olub.

Aparılan araşdırmalar, təkzibolunmaz arxiv sənədləri, soyqırımlarını təsdiqləyən çoxsaylı dəlil-sübutlar, respublikamızın müxtəlif bölgələrində aşkar olunan kütləvi məzarlıqlar erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının nə qədər geniş, faciə qurbanlarının sayının isə qat-qat çox olduğunu sübut edir. Beynəlxalq ictimaiyyətə o da yaxşı məlumdur ki, insanlıq əleyhinə xüsusi qəddarlıqla törədilmiş bu cinayətlərin qurbanları azərbaycanlılarla yanaşı, ölkə ərazisində yaşayan digər xalqların nümayəndələri də olublar.

Ermənistanın uzun illər boyu həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlıların tarixən yaşadıqları yer adlarının erməniləşdirilməsi, şəhər və kəndlərin, tarixi-mədəni abidələrin, məscidlərin, hətta qəbiristanlıqların dağıdılması faktları da dünyaya yaxşı bəllidir. 44 günlük Vətən müharibəsi zamanı bir neçə dəfə bölgələrə səfər edən xarici ölkələrin diplomatik korpusunun nümayəndələri də erməni vəhşiliyinin canlı şahidi oldular. Lakin əksər beynəlxalq qurumlar, aparıcı ölkələr bu cinayətə adekvat reaksiya verməк əvəzinə, Azərbaycana təzyiq göstərməyə, müharibənin əsl mahiyyətini təhrif etməyə, Ermənistanı düçar olduğu məğlubiyyətdən qurtarmağa çalışdılar.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu tarixi ədaləti bərpa etdi, 200 il davam edən işğalçılıq siyasətinə son qoyaraq bizə qalib dövlət, qalib xalq adını və tarixi Zəfəri qazandırdı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə yanaşı, həm də beynəlxalq təşkilatların uzun illər kağız üzərində qalmış qərar və qətnamələrinin icrasına nail oldu, Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratdı. Xalqımızın müqəddəs amalının gerçəkləşdirilməsində qardaş Türkiyə, Pakistan və bir sıra dost ölkələrin mənəvi dəstəyi qan yaddaşımızdan heç vaxt silinməyəcək.

Xalqımıza qarşı aparılan soyqırımı siyasətinə uzun müddət siyasi-hüquqi qiymət verilmədiyi üçün tarixi faktlar həmişə ermənilər tərəfindən təhrif olunub. 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanda həmin dəhşətli hadisələrə ilk dəfə siyasi qiymət verilib və 31 mart “Azərbaycanlıların Soyqırımı Günü” elan edilib.

Cəzasızlıq yeni cinayətlərə yol açır. Erməni daşnaklar tərəfindən törədilmiş soyqırımı aktları təkcə xalqımıza qarşı deyil, həm də insanlıq əleyhinə həyata keçirilmiş ümumbəşəri cinayətlər olduğu üçün beynəlxalq hüquqa əsaslanan adekvat yanaşma tələb edir. İnanırıq ki, cənab Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə həyata keçirilən çoxşaxəli tədbirlər bundan sonra da öz bəhrəsini verəcək və cinayətkarlar layiqli cəzalarını alacaqlar.

Tam əminik ki, Azərbaycan bundan sonra da müasir çağırışlara, milli maraqlara və ictimai-siyasi münasibətlərin mahiyyətinə, xarakterinə tam adekvat olan strateji yola sadiq qalaraq tarixin bütün sınaqlarından həmişə üzüağ çıxacaq, davamlı inkişaf yolu ilə qətiyyətlə irəliləyəcəkdir. Hakim Yeni Azərbaycan Partiyasının üzvləri də bu istiqamətdə üzərilərinə düşən vəzifələri məsuliyyətlə və şərəflə yerinə yetirəcək, milli tərəqqiyə mühüm töhfələr verəcəklər.

Bəyanat Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə keçirilən 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş “Soyqırımı: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış” mövzusunda keçirilən konfransda qəbul edilmişdir.

**Quba şəhəri, 30 mart 2022-ci il.**

# Tahir BUDAQOV: “Erməni cinayətlərinin beynəlxalq aləmdə ifşa olunması dövlətimizin siyasətinin prioritet istiqamətlərindəndir”

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbirlər hazırda respublikanın bütün bölgələrində keçirilir. Yeni Azərbaycan Partiyası tərəfindən “Soyqırım: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış” mövzusunda elmi-praktiki konfransın Qubada keçirilməsi isə təsadüfi deyil.

Çünki erməni cinayətlərinin qurbanlarının xatirəsinə ucaldılmış Soyqırımı Memorial Kompleksi Qubada yaradılıb. Burada kütləvi məzarlıq aşkar olunduqdan sonra bu möhtəşəm kompleks yaradılıb. Bu kompleksin yaradılmasının keçmişi yaddan çıxarmamaq, gələcəkdə daha güclü olmağımız üçün mənəvi əhəmiyyəti var.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Qubada jurnalistlərə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov söyləyib.

YAP Sədrinin müavini bildirib ki, 200 ildən artıq müddətdə ermənilərin soyqırımı siyasətini həyata keçirməsi nəticəsində minlərlə azərbaycanlı qətlə yetirilib. Bu qətliamlara vaxtında tarixi-siyasi qiymətin verilməməsi ermənilərin bu cinayətləri davam etdirmələrinə şərait yaradıb. Yalnız Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən soyqırımı cinayətlərinə hüquqi-siyasi qiymətin verilməsi, eləcə də dövlətimizin həyata keçirdiyi siyasət nəticəsində dünya baş verən hadisələrə düzgün qiymət verməyə başladı. Təbii ki, bu proseslərdə Heydər Əliyev yolunun müzəffər davamçısı, Prezident İlham Əliyevin siyasətini xüsusi qeyd etmək lazımdır. Elə bir beynəlxalq tədbir yoxdur ki, Prezident İlham Əliyev bu həqiqətləri dünya ictimaiyyətinə çatdırmasın.

Tahir Budaqov eyni zamanda qeyd edib ki, Heydər Əliyev Fondunun xətti ilə bu istiqamətdə ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirilir. İstər respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın, istərsə də fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən tədbirlər nəticəsində dünyanın bir sıra ölkələri Xocalı soyqırımını tanıyıb. Erməni vandalizminin təkcə azərbaycanlılara qarşı deyil, bütün bəşəriyyətə qarşı cinayət olduğu gündəmdə saxlanılır.

Soyqırımı hadisələrinin qan yaddaşımıza həkk olunduğunu deyən Tahir Budaqovun sözlərinə görə, erməni cinayətlərinin daim ifşa edilməsi, bu cinayətlərə beynəlxalq aləm tərəfindən qiymət verilməsi dövlətimizin siyasətinin prioritet istiqamətlərindən biridir. “Biz qürurla deyə bilərik ki, erməni vandalizminin qurbanlarının, şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycanın rəşadətli Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüzün təmin edilməsi, tarixi ədalətin bərpa olunması istiqamətində möhtəşəm Zəfər yolu keçdi. Hazırda bu Zəfərin nəticələrinin möhkəmləndirilməsi, Azərbaycanın yaratdığı yeni reallıqların beynəlxalq aləmdə qəbul olunması yönündə ciddi nəticələr var. Həmçinin Azərbaycan xalqı bu müharibədə öz böyüklüyünü bir daha nümayiş etdirdi. Ermənilərin xalqımıza qarşı kütləvi qırğınlarına, cinayətlərinə baxmayaraq, ordumuz 44 günlük müharibədə dinc erməni əhalisini, mülki obyektləri hədəfə almadı, yalnız hərbi hədəfləri məhv etdi”, - deyə YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb.

T.Budaqovun sözlərinə görə, konfransın digər bir özəlliyi ondan ibarətdir ki, burada ölkəmizdə yaşayan müxtəlif etnik qrupların, ictimai birliklərin nümayəndələri də iştirak edirlər: “Ermənilər Azərbaycanda kütləvi qırğınlar törədərkən təkcə azərbaycanlıları deyil, digər xalqların nümayəndələrini də qətlə yetiriblər. Bu gün onların da xatirəsi anılır. Onu da bildirmək istəyirəm ki, 44 günlük Vətən müharibəsində ölkəmizdə yaşayan bütün xalqlar, etnik qruplar Prezident İlham Əliyevin ətrafında sıx birləşərək möhtəşəm Zəfərimizin qazanılmasına öz töhfələrini veriblər”.

# Soyqırımı qurbanlarının xatirəsi anılıb

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı onlayn tədbir keçirilib.



AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxış edərək erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə törədilən soyqırım siyasətindən danışıb. Bildirib ki, 1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik silahlı dəstələrinin Azərbaycan xalqına qarşı xüsusi qəddarlıqla törətdiyi soyqırımları isə öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, ümumilikdə bəşər tarixində ən qanlı faciələrdən biridir: “O dövrdə Bakı şəhərində, eləcə də Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərcə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə məhv edilmişdir. Yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscidlər və digər ibadət yerləri yerləyeksan edilmişdir. Bakı quberniyasında başlanan kütləvi qətllər və talanlar daha sonra Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvanda, Göyçədə və digər bölgələrdə davam etdirilmişdir. Təkcə 1918-ci ilin mart-iyul aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda, Göyçayda erməni silahlıları 50 mindən çox azərbaycanlını qətlə yetirmişlər. Şamaxı qəzasının 110, Quba qəzasının 167, Qarabağın 150-dən çox kəndi, Zəngəzur qəzasının 115 kəndi yandırılmış və talan edilmiş, dinc əhaliyə heç bir fərq qoyulmadan qəddarcasına divan tutulmuşdur. Yeri gəlmişkən, diqqətinizə çatdırım ki, 1918-ci ilin qanlı hadisələri zamanı Gəncədə, Qubada və Azərbaycanın digər bölgələrində türk-müsəlman əhali ilə birlikdə, 3 minə qədər yəhudi bacı və qardaşlarımız erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir”.

Konfederasiya sədri diqqətə çatdırıb ki, hadisələrin üstündən 80 il keçdikdən sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlət başçısı kimi 1998-ci il martın 26-da imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanda azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımlarının ilk dəfə rəsmən adı çəkilmiş, “böyük Ermənistan” xülyasını həyata keçirməyin əsas yolunun azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görmüş antiazərbaycan qüvvələrin mənfur əməllərinə siyasi qiymət verilmişdir.

Milli Məclisin deputatı deyib ki, erməni vəhşiliyinə tarixi qələbəmizlə başa çatan 44 günlük Vətən müharibəsinin gedişində də şahid olduq: “Azərbaycan Ordusunun zəfər yürüşü qarşısında tab gətirə bilməyən düşmən təxribatlara əl ataraq dinc mülki şəxsləri hədəfə almaqla müharibə cinayətləri törədirdi: “Azərbaycanın Gəncə, Bərdə, Mingəçevir və digər şəhərləri ballistik raketlərlə, fosforlu və kasetli bombalarla atəşə tutulurdu. Nəticədə 100-ə yaxın mülki şəxs, onların arasında uşaqlar, qadınlar həlak olmuşlar. 400-dən çox mülki şəxs yaralanmış, 5 mindən çox ev dağıdılmış və ziyan çəkmişdir”.

“Bu gün fəxarətlə deyə bilərik ki, ermənilərin məkrli əməllərinin cavabı layiqincə verildi. Minilliklərə söykənən şanlı tariximizin ən görkəmli sərkərdələrindən biri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tarixin gedişini dəyişməyi bacardı, işğal altındakı torpaqlarımızı azad etməklə Azərbaycan xalqını məğlubiyyət girdabından xilas etdi və bununla da Azərbaycan tarixində yeni bir şanlı səhifə açıldı. Cəmi 44 gün ərzində Ermənistanın 30 illik işğalına son qoydu, işğalçı məqsədlərlə yaradılmış və bu çirkin missiyanı icra edən bir ordu məhv edildi. Beynəlxalq təşkilatların bərpa edə bilmədiyi beynəlxalq hüququn pozulmuş prinsiplərini Azərbaycan özü, təkbaşına həll etdi, dünyada sülh və təhlükəsizliyi daim təhdid edən separatizmə tutarlı və layiqli cavab verdi”, - deyə deputat qeyd edib.

***Əsmər QARDAŞXANOVA,***
***“Azərbaycan”***

# Ermənistan kütləvi məzarlıqların yeri barədə məlumatları Azərbaycana verməkdən boyun qaçırır

“Ermənistan işğal altında olmuş ərazilərdə kütləvi məzarlıqların yerini bildirən məlumatları Azərbaycana verməkdən boyun qaçırır. Erməni millətçilərinin Azərbaycan xalqına qarşı etnik təmizləmə və soyqırımı siyasəti sovet hakimiyyəti dövründə də davam etdirilib. Sovet İttifaqı dağıldıqdan sonra da Azərbaycan torpaqlarının işğal edilməsi həmin ərazilərdə yerli əhalinin etnik təmizlənməsi ilə nəticələnən kütləvi qırğınlarla müşayiət olunub”.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov Qubada YAP-ın təşkilatçılığı ilə “Soyqırım: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış” mövzusunda keçirilən konfransda çıxışı zamanı bildirib.

Elnur Məmmədov “Erməni millətçiliyi və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti” adlı məruzəsində qeyd edib ki, erməni millətçiləri tərəfindən fərqli bölgələrdə insanlıq əleyhinə cinayətlər törədilib. Onların sırasında Xocalı, Başlıbel, Ballıqaya, Ağdaban, Meşəli, Cəmilli, Quşçular, Malıbəyli faciələrini xüsusilə qeyd etmək olar.

“Bu hadisələrin hər biri dinc əhalinin öldürülməsinə, terrora hesablanıb, qırğınların ardıcıl və sistematik həyata keçirilməsi isə onların Ermənistan tərəfindən dövlət səviyyəsində planlaşdırıldığını göstərir. Bildiyiniz kimi, Birinci Qarabağ müharibəsindən bu günədək 4000-dək soydaşımız barədə hələ də məlumat yoxdur. Torpaqların işğaldan azad olunmasından sonra Kəlbəcərin Başlıbel, Şuşanın Daşaltı, Xocavəndin Edilli kəndləri ərazisində kütləvi məzarlıqlar aşkar edilib. Aparılan tədqiqatlar nəticəsində müəyyən olunub ki, bu məzarlıqlar, meyit qalıqları Birinci Qarabağ müharibəsi zamanı erməni hərbçiləri tərəfindən əsir və girov götürülərək, ağır işgəncələr verilərək qətlə yetirilən Azərbaycan vətəndaşlarına aiddir”, - deyə nazir müavini söyləyib.

Elnur Məmmədov vurğulayıb ki, artıq Xocalının Fərrux yüksəkliyində də insan sümükləri aşkarlanıb və həmin sümüklərin də tədqiqatı həyata keçiriləcək.

# Ombudsman: “Ermənistan müharibə cinayətlərini törətdiyinə görə beynəlxalq hüquqi məsuliyyətə cəlb olunmalıdır”

Bu günlərdə Azərbaycan Respublikasının Xocalı rayonunun Fərrux kəndi ərazisində Azərbaycan Ordusunun hərbçiləri tərəfindən aparılan müvafiq qazıntılar zamanı insan nəşlərinin qalıqları aşkar olunub. Birinci Qarabağ müharibəsində Fərrux yüksəkliyi və eyniadlı kənd uğrunda gedən döyüşlərdə şəhid olmuş şəxslərə aid olduğu güman edilən həmin qalıqların aşkarlanması faktı ilə bağlı hazırda müvafiq araşdırmalar və dəqiqləşdirmələr aparılır.

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva bildirib.

Ombudsman təəssüflə qeyd edib ki, Birinci Qarabağ müharibəsi dövründə Ermənistan tərəfindən əsir və girov götürülmüş azərbaycanlıların amansız işgəncələrə məruz qoyulmaqla qətlə yetirilməsi, daha sonra onların nəşlərinin kütləvi şəkildə basdırılması ilə bağlı çoxsaylı faktlar mövcuddur.

“Bütün bu faktlar isə beynəlxalq humanitar hüququn normalarının, o cümlədən “Müharibə qurbanlarının müdafiəsi haqqında” 1949-cu il tarixli Cenevrə konvensiyalarının, xüsusilə də “Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında” Konvensiyanın və ona dair 1977-ci il tarixli I Əlavə Protokolun müddəalarına açıq hörmətsizlikdir və beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə pislənilməlidir.

Ermənistan insanların ən mühüm təbii hüquqlarından biri olan yaşamaq hüququnun kobud şəkildə pozulması ilə nəticələnən müharibə cinayətlərini törətdiyinə görə beynəlxalq hüquqi məsuliyyətə cəlb olunmalıdır”, - deyə Səbinə Əliyeva vurğulayıb.

# Azərbaycanın qətiyyəti qarşısında üzr istədi

## Siyasi əxlaqsızlığın və xəstə təfəkkürün daşıyıcısı M.Delyagin cinayət məsuliyyətindən yayına bilməyəcək

***Əvvəli 1-ci səh.***

Dövlət Dumasının deputatının Azərbaycanla Rusiya arasındakı münasibətlərin ruhuna zidd olan, aşkar şəkildə iki dövlətin müttəfiqlik əlaqələrinə nifaq salmaq cəhdi güdən bu sərsəmləməsi təbii ki, Azərbaycanda da ciddi etirazla qarşılandı. Ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu M.Delyaginin “Rossiya 1” kanalının efirində sərsəmlədiyi fikirlərlə bağlı həmin kanalın daxil olduğu Ümumrusiya Dövlət Teleradio Verilişləri Şirkətinin rəhbərliyinə Azərbaycan ictimaiyyətinin ciddi narazılığını çatdırdı və belə halların qəbuledilməz olduğunu vurğuladı.

Bütün bu siyasi-ictimai etirazların fonunda M.Delyaginin dərhal Azərbaycandan üzr istəməkdən başqa yolu qalmadı. Efirdə Azərbaycanı bombalamaqla hədələyən, ağzına gələni danışıb sərsəmləyən bu adam, necə deyərlər, ölkəmizlə bağlı bütün dediklərini, söylədiklərini geri götürməli oldu. Hətta təmsil olunduğu partiya da nə danışdığını bilməyən, Azərbaycan-Rusiya münasibətlərinin mahiyyətini anlamayan bu məxluqa görə üzrxahlıq etməli oldu. “Spravedlivaya Rossiya” Partiyasının Rəyasət Heyətinin katibi, Rusiya Dumasının III-VII çağırış deputatı Oleq Şein səfir Polad Bülbüloğlunun adına ünvanladığı məktubda Rusiya vətəndaşları adından həmpartiyalısı Mixail Delyaginin səsləndirdiyi fikirlərlə bağlı üzr istəyib, soydaşlarının əksər çoxluğunun Azərbaycanı dost ölkə, Azərbaycan xalqını isə mehriban qonşu kimi qəbul etdiklərini vurğulayıb.

Aydındır ki, M.Delyagin könüllü şəkildə üzr istəməyib. Azərbaycanı hədələyən bu adama birinci növbədə Rusiyanın özünün siyasi dairələrində yaxşıca qulaqburması veriblər. Sağlam düşüncəsini itirməmiş ruslar müttəfiqliyin nə olduğunu, Azərbaycanla Rusiyanın münasibətlərinin məzmununu ona başa salıblar.

M.Delyagini üzr istəməyə məcbur edən əsas səbəb isə Azərbaycan dövlətinin və onun rəhbərinin yüksək qlobal nüfuzudur. Deputat mandatı daşıyan bu adam hansı dövlətlərin forpost və yaxud özünün dediyi kimi “proksi” olduqlarını yaxşı bilir. Onu da bilir ki, Azərbaycan özünün yolu və müstəqil siyasəti olan dövlətdir. Siyasi arena çox geniş meydandır. Bu meydanda nəinki müxtəlif baxışlara, həm də hər cür xislətə malik siyasətçiyə rast gəlmək mümkündür. M.Delyagin kimiləri isə, ümumiyyətlə, nəinki təmsil etdikləri siyasi qrupa, həm də dövlətə ləkədirlər. M.Delyagin siyasi-ictimai məkanda yaxından tanınan sima olmasa da, işlətdiyi ifadələrlə özünü siyasi əxlaqsızlığın və xəstə siyasi təfəkkürün daşıyıcısı kimi qələmə verdi.

Artıq xəbər verildiyi kimi, M.Delyaginin kütləvi informasiya vasitələrində Azərbaycanla Rusiya arasında olan qarşılıqlı fəaliyyətin prinsiplərinə zidd mövqe sərgiləyən çıxışları ilə bağlı Baş Prokurorluqda araşdırma aparılıb. İttiham üçün əsas verən kifayət qədər sübutlar toplandığından 2022-ci il martın 29-da M.Delyagin Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilməklə İNTERPOL vasitəsilə beynəlxalq axtarışı elan edilib. İnanırıq ki, bu adam cinayət məsuliyyətindən yayına bilməyəcək.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Xocalı rayonunun Fərrux kəndində insan skeletləri aşkarlanıb






Xocalı rayonunun Fərrux kəndində insan skeletləri aşkarlanıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Ordusunun hərbçiləri Fərrux kəndi ərazisindəki mövqelərdə qazıntı işləri apararkən insan qalıqları aşkar ediblər. Aşkarlanan qalıqların Birinci Qarabağ müharibəsində Fərrux yüksəkliyi və eyniadlı kənd uğrunda gedən döyüşlərdə şəhid olmuş şəxslərə aid olduğu güman edilir.

Faktla bağlı araşdırma və dəqiqləşmələr aparılır.

# Təcavüzkar müharibəyə çağırış edən Rusiya Federasiyası Dövlət Dumasının deputatı Mixayıl Delyagin barəsində cinayət işi başlanılıb

Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Dumanın İqtisadi siyasət üzrə komitəsinin sədr müavini Delyagin Mixail Gennadyeviçin son günlər kütləvi informasiya vasitələrində iki dövlət arasında olan qarşılıqlı fəaliyyətin prinsiplərinə zidd mövqe sərgiləyən çıxışları ilə bağlı Baş Prokurorluqda araşdırma aparılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Mixail Delyagin 2022-ci il martın 28-də Rusiya Federasiyasının “Rossiya 1” telekanalında yayımlanan verilişdə Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibəni başlamağa açıq çağırışlar edərək ölkəmizin enerji infrastrukturu və neft sənayesinin məhv edilməsi üçün taktiki nüvə silahından istifadə olunması barədə təxribat xarakterli çıxış edərək, sosial media platformasında bu barədə kütləvi sorğu keçirib.

Rusiya Federasiyasının vətəndaşı Mixail Delyaginin əməllərində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 101.2-ci (təcavüzkar müharibəni başlamağa açıq çağırışlar), 214.2.3-cü (terrorçuluq-odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədilməklə hədələdikdə), 283.2.1-ci və 283.2.2-ci (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddələrinin tərkib əlamətləri olduğundan 2022-ci il martın 29-da Azərbaycan Respublikasının baş prokuroru tərəfindən həmin maddələrlə cinayət işi başlanmaqla ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunub.

İttiham üçün əsas verən kifayət qədər sübutlar toplandığından 2022-ci il martın 29-da Mixail Delyagin Cinayət Məcəlləsinin qeyd edilən maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilməklə İNTERPOL vasitəsilə beynəlxalq axtarışa elan edilib.

Eyni zamanda bir sıra tərəfdaş dövlətlərin səlahiyyətli orqanlarına təqsirləndirilən şəxsin həmin ölkələrin ərazisinə daxil olduqda dərhal tutularaq istintaqa cəlb edilməsi üçün Azərbaycan Respublikasına verilməsinin təmin edilməsi məqsədilə müraciətlər göndərilib.

Hazırda cinayət işi üzrə intensiv istintaq tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bəyan edir ki, ölkəmizin milli mənafeyi, təhlükəsizliyi və ərazi bütövlüyü əleyhinə yönələn istənilən təxribat xarakterli fəaliyyətlə bağlı qanunla nəzərdə tutulmuş tədbirlərin görülməsi təmin olunacaq.

# Fərrux kəndi ətrafında daha bir neçə azərbaycanlı cəsədinin qalıqları tapılıb




**Xocalı rayonunun Fərrux kəndində daha bir neçə azərbaycanlının cəsədinin qalıqları aşkarlanıb.**

AZƏRTAC xəbər verir ki, kəndin ətrafında ayrı-ayrı yerlərdə aparılmış qazıntılar zamanı Birinci Qarabağ müharibəsi zamanı qətlə yetirilmiş daha bir neçə azərbaycanlının cəsədinin qalıqları tapılıb.

Xatırladaq ki, martın 29-da Azərbaycan Ordusunun hərbçiləri Fərrux kəndi ərazisindəki mövqelərdə qazıntı işləri apararkən insan skeletlərini aşkar ediblər.




# LƏYAQƏTLİ MÜHARİBƏ

*Əvvəli 1-ci səh.*

**Ləyaqətli müharibə ölüm-dirim savaşında, ölüb-öldürmə meydanında, düşmənin hər cür alçaqlığının şahidi olduğun bir vaxtda da öz insanlığını, ləyaqət hissini unutmamaqdır!**

**Hətta şərəfsiz addımlara, murdar əməllərə müharibə qanunları çərçivəsində, hərbin dili ilə, faşıst metodları tətbiq etmədən cavab verilməsidir!**

*Azərbaycan Ordusu əvvəldən axıradək yalnız hərbçilərə qarşı döyüşdü, hərbi mövqelərə, texnikaya, atəş nöqtələrinə dəqiq zərbələr endirdi.*

Həm də bunları çəkərək bütün dünyaya nümayiş etdirdi!

Ancaq erməni mülki əhalisinə qarşı heç bir zorakılıq olmadı, əksinə, onlar qorundu və dərhal da qarşı tərəfə təhvil verildi!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev də, Azərbaycan Ordusu da sona qədər təmkinli, ləyaqətli davrandı!**

**Hətta bu, düşmənin etdiyi alçaqlıqlar qarşısında nə qədər çətin və ağır olsa da belə!**

*Bəli, alçaq düşmən şərəfsizcəsinə cəbhə xəttindən çox-çox uzaqda yerləşən Gəncə, Tərtər, Bərdə, Goranboy şəhərlərini raket və mərmi atəşinə tutduğu bir vaxtda!*

*Gecə vaxtı Gəncənin yaşayış məhəllələri, günün-günorta çağı Bərdə şəhərinin ən çox insanın toplaşdığı yer, gecə-gündüz bilmədən Tərtərin kənd, qəsəbə və şəhəri dağıdılanda!*

*Ballistik raketlər dalbadal qeyri-hərbi obyektlərə atılanda!*

*Qadağan olunmuş fosforlu, kasetli bombalar dinc əhaliyə qarşı tətbiq ediləndə!*



Bəli, belə məqamlarda əsəblərini və hisslərini cilovlamaq çox çətin idi!

**Ancaq Azərbaycan tərəfi bir an belə olsun ləyaqət hissini unutmadı!**

**Bütün alçaqlıqların əvəzini döyüş meydanında verdi!**

**Həm də artıqlaması ilə!**

❖ ❖ ❖

Azərbaycan xalqı bu müharibədə düşmənə qəhrəmanlığı, vətənpərvərliyi, ləyaqət hissi ilə də qalib gəldi!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 gün ərzində Ermənistan ordusunu məhv etdi.**

**Düşməni qarşısında diz çökdürdü!**

**"Dəmir yumruğ"u ilə başını əzdi!**

**Həm də informasiya müharibəsində biabırçı məğlubiyyətə uğratdı.**

*Onun yalançı, riyakar, vandal olduğunu konkret faktlarla ifşa etdi.*

*Müharibə qanunlarını dəfələrlə pozduğunu, qadağan olunmuş silahlardan, bombalardan, ballistik raketlərdən istifadə etdiyini sübutlarla göstərdi.*

Bu gün də erməni vandallığı, murdarlığı, 30 illik işğal dövründə törətdiyi vəhşiliklər, dini, mədəni, tarixi abidələrə vəhşi, qeyri-insani münasibətləri dünyaya təqdim edilməkdədir.

Təkcə "böyük Ermənistan" mifi deyil, "qədim mədəni xalq" əfsanəsi də puça çıxarılmışdır.

**Düşmənin növbəti ləyaqətsizliyi diz çökərək imzaladığı kapitulyasiya aktının bəndlərini yerinə yetirmək istəməməsi, üzərinə götürdüyü öhdəliklərin müxtəlif şəkildə, bəhanələrlə icrasından boyun qaçırmasıdır!**

"Dəmir yumruq" hər bir hiylədən, oyunbazlıqdan yüksəkdə dayanır və gücünü daha da artırır!

*İstənilən an düşmənə daha ağır formada dərs vermək imkanımız var və bu hüququ özümüzdə saxlamışıq!*

*Terrorçulara və separatçılara qarşı daha bir ləyaqətli hərbi əməliyyat keçirmək hər zaman mümkündür!*

*Yenə də seçim Ermənistanındır!*

Onlar istəməsələr də, Zəngəzur dəhlizi yaradılacaq!

Onlar istəməsələr də, Azərbaycan öz ərazisində öz qanunlarını tətbiq edərək terrorun və separatizmin kökünü birdəfəlik kəsəcəkdir!

Həm də son dərəcədə ləyaqət hissi ilə!

**Bəxtiyar SADIQOV**

# Qalibiyyət ruhu

*Əvvəli 1-ci səh.*

Dünyanın çox yerlərində müharibələrin getdiyini və bundan sonra da gedəcəyi gümanını təəssüflə dilə gətirdi: "Bu gedən müharibələrə diqqət yetirsək, hesab edirəm ki, həm Azərbaycan xalqı, həm bütün dünya ictimaiyyəti bir daha Azərbaycan xalqının böyüklüyünü və Azərbaycan rəhbərliyinin məsuliyyətini görür".

## Həyat yaradan xalq

Bütün bunlar insanlarımız üçün gələcəyə inam ruhudur. Qarşıda duran məqsədlərə doğru əzmlə irəliləməkdən ötrü sabahkı günlərə əminlikdir. Xüsusilə gənc nəsil üçün böyük vətənpərvərlik tərbiyəsidir. Elə güləş üzrə VII Avropa Çempionatında iştirak edərək 7-si qızıl olmaqla, ümumən, 16 medal əldə etmiş güləşçilərimizin bu idman nailiyyətindəki əlamətdar məqamlardan biri də budur ki, onlar qələbəni qalib xalqın təmsilçiləri kimi qazanıblar. Azərbaycanın bayrağını fərxi kürsülərdə qalib ölkənin bayrağı kimi yüksəklərə qaldırıblar.

Vətən müharibəsindəki qələbəmizə qədər içimizdə bir məyusluq, qırıqlıq vardı. Özümüzü məğlub hiss edirdik. Torpaqlarımızın işğalda qalması bizə heç bir nailiyyətimizə gözüdolusu sevinmək imkanı vermirdi. Ürəyimizdə torpaq itkisinin yarası göynəyirdi. Başımızı qürurla uca tuta bilmirdik. Hər birimiz fərqində idik ki, tam xoşbəxtliyə yetişməyimiz ən böyük qələbə günümüzdən, torpaqlarımızın azadlığından asılıdır.

Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızı 30 il idi arzusunda olduğu möhtəşəm Zəfərə yetirdi. Qələbə gününü tarixə yazdı. Milli qürurumuzu özümüzə qaytardı. Başımızı uca etdi. Bizə qalib xalq adı qazandırdı. Bundan sonra olduğumuz hər yerdə bu qalibiyyət bizimlədir. Müxtəlif sahələr üzrə yeni qələbələrimiz, yeni nailiyyətlərimiz üçün böyük bir səbəbdir, motivasiya gücüdür. Azərbaycan Prezidenti idmançılarla görüşündə də bunu dedi: "Əlbəttə ki, idmançılarımız üçün bu əlavə bir stimuldur. Çünki biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik. Siz idmançılar bundan sonra, sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz. Çünki bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq".

## Ləyaqət

Tarixi qələbəmizdən sonra Azərbaycanın uzun illərdən bəri ölkəmizdə idmanın inkişafı istiqamətində apardığı siyasətin mahiyyəti də indi tam aydın görünməyə başlayır. İdmanın inkişafı Ulu Öndər Heydər Əliyevin siyasətində daim prioritet olub. Bu siyasətin uğurla həyata keçirilməsində Prezident İlham Əliyevin misilsiz tarixi xidmətləri var. Azərbaycan idmançılarının ən böyük qələbələri dövlət başçısı İlham Əliyevin Milli Olimpiya Komitəsinə rəhbərliyi dövründə qazanıldı. Ölkəmizin bir sıra beynəlxalq idman yarışlarına evsahibliyi etməsi də son onilliklərin möhtəşəm hadisələridir. İdman xalqın fiziki və mənəvi sağlamlığına xidmət etməklə, sağlam həyat tərzinə marağı artırmaqla yanaşı, eyni zamanda cəmiyyəti birləşdirən, milli həmrəyliyi daha da möhkəmləndirən əsas vasitələrdəndir. Qələbələr insanlara ruh verir, inam yaradır və bütün sahələrdə uğur qazanmağa kömək göstərir. Vətənpərvərlik tərbiyəsini gücləndirir. Azərbaycan Vətən müharibəsindəki tarixi zəfərini də məhz gənclərimizin torpağa, yurda olan məhəbbəti, Azərbaycana sevgisi, fiziki və mənəvi gücləri hesabına qazandı. Aydın oldu ki, illərdir, sadəcə, idmana qayğı kimi yanaşılan bu siyasətin arxasında da böyük hədəflər varmış. Hər şey göründüyündən daha böyük məzmun kəsb edirmiş.

Eyni zamanda bu gün dünyanın müxtəlif münaqişə bölgələrində baş verənlər, mülki əhaliyə qarşı hərbi qanunlara sığmayan ağlasığmaz hərəkətlər bir daha Azərbaycanın 44 günlük Vətən müharibəsini necə böyük ləyaqətlə apardığını sübuta yetirir. Azərbaycan bu müharibəni bütün qanunlara riayət edərək apardı. Mülki əhaliyə qarşı vuruşmadı. Binaları bombalamadı. Əsgər və zabitlərimiz qəddarlıq etmədilər. Ermənilərin illər əvvəl öz havadarlarının köməyi ilə xalqımıza qarşı törətdikləri soyqırımların qisas hissi insanlarımızı hər nə qədər intiqama təhrik etsə də, Azərbaycan xalqı bu cinayətlərin əvəzini mülki əhalidən çıxmadı. Tarixi intiqamını döyüş meydanında aldı. Xocalı canilərindən fərqli olaraq mülki əhaliyə qənim kəsilmədi. "Bütün dünya, bütün hərbi ekspertlər artıq bunu dəfələrlə qeyd edirlər ki, Azərbaycan bu müharibəni həm böyük məharətlə, ustalıqla aparıb, qısa müddət ərzində istədiyinə nail olub, həm də bütün müharibə qanunlarına riayət edərək ləyaqətlə aparıb. Məhz buna görə düşmən tərəfində mülki əhali arasında itkilər 30-dan da az idi. O da məhz ona görə ki, o mülki vətəndaşlar döyüşlərdə iştirak edirdilər", - deyə Prezident İlham Əliyev idmançılarla görüşündə xatırlatdı.

## Azad yurdlarımızda qalanan bayram tonqalları

Qarşıda Azərbaycanın və ümumən, bölgəmizin gələcəyi ilə bağlı böyük hədəflər, xoş niyyətlər, aydın məqsədlər var. Prezident İlham Əliyev ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə Tərtər rayonunun Suqovuşan qəsəbəsində alovlandırdığı bayram tonqalı ilə, Suqovuşandan bütün dünya azərbaycanlılarına ünvanladığı Novruz təbriki ilə bir daha bunların müjdəsini verdi.

Ötən il Şuşada qalanmış Novruz tonqalının ardınca bu, azad yurdlarımızda qeyd edilən növbəti bahar bayramı idi. Bu, hər bir azərbaycanlının illərdir Novruz bayramlarında və başqa bütün xoş günlərdə ürəyimizdə göyərən, hər zaman dilimizdə səslənən arzumuzun reallaşmasıdır. "Bilirəm, hər birimiz, xüsusilə keçmiş məcburi köçkünlər hər dəfə bayram ərəfəsində və bayram günlərində deyirdik ki, İnşallah, gələn il azad edilmiş torpaqlarda, Qarabağda Novruz bayramını qeyd edəcəyik və artıq bu reallıqdır. İkinci dəfədir ki, bu gözəl bahar bayramını biz işğaldan azad edilmiş torpaqlarda qeyd edirik. Bu gün mən Novruz tonqalını burada - Suqovuşanda qaladım, qədim Azərbaycan diyarı olan Suqovuşanda. Keçən il isə Novruz bayramını mən Şuşa şəhərində, hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etmişdim və Azərbaycan xalqına müraciət etmişdim. Şadam və xoşbəxtəm ki, artıq bu bir ənənəyə çevrilib və Novruz bayramını biz burada, doğma Qarabağ diyarında qeyd edirik", - dedi dövlət rəhbərimiz.

Prezident İlham Əliyev hazırda bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində quruculuq-abadlıq işlərinin geniş vüsət aldığını, şəhərlərin yenidən qurulduğunu, kəndlərin yenidən salındığını diqqətə çatdırdı. Bildirdi ki, hazırda əsas vəzifə keçmiş məcburi köçkünləri tezliklə bu doğma yerlərə qaytarmaqdır.

Bütün bunlar bir daha göstərir ki, aparılan quruculuq-bərpa işləri Azərbaycan Prezidentinin daim xüsusi nəzarətindədir. Qarabağa, Şərqi Zəngəzura müntəzəm səfərlərin əsas məqsədlərindən biri də görülən işlərlə yerində tanışlıqdır. Bunun bariz nümunəsi kimi Suqovuşana səfəri zamanı da dövlət rəhbərimiz Mehriban xanımla birgə bir sıra layihələrin icrası ilə yaxından tanış oldu. Onlar Suqovuşanda çəkilmiş müasir izolyasiyalı və mühafizəli kabel xəttinin təqdimatında,"N" saylı hərbi hissənin açılışında, qəsəbədə təşkil edilmiş ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışında iştirak etdilər. Suqovuşandakı fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanış oldular, qəsəbədə 144 şagird yerlik tam orta məktəbin binasına baş çəkdilər. Eyni zamanda Suqovuşanın gələcək inkişafına yeni töhfələrini verdilər. Belə ki, yüksək turizm potensialına malik bu bölgəyə turizm axınına şərait yaradacaq kompleksin təməlini qoydular. Milli-mənəvi dəyərlərimizə hörmət nümunəsi kimi Suqovuşanda yeni məscidin də təməli qoyuldu.

## Qurucu əllər

Azərbaycan dövlətinin bu istiqamətdə başlıca hədəfi quruculuq, abadlıq işlərini planlı, səmərəli və eyni zamanda keyfiyyətli şəkildə aparmaq, qısa müddət ərzində 10 min kvadratkilometrdən çox ərazini yenidən qurmaqdır. "Çünki mənfur düşmən işğal dövründə bütün şəhərlərimizi, kəndlərimizi yerləyeksan edib, bütün tarixi abidələrimizi dağıdıb, təhqir edib. Biz isə qurub-yaradan xalqıq. Müharibədən cəmi bir ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq, biz artıq qurub-yaradırıq. Əminəm ki, biz bütün planlara, nəzərdə tutulmuş bütün məqsədlərə nail olacağıq və nail oluruq. Budur bugünkü Azərbaycanın reallıqları. Bugünkü güclü Azərbaycan bütün bu işləri görməyə qadirdir", - deyən Prezident İlham Əliyevin ortaya qoyduğu siyasi iradə, cəmiyyətimizdəki milli həmrəylik, xalqımızın xoş niyyətlər, işıqlı amallar uğrunda səfərbərliyi hətta ilk baxışdan mümkünsüz görünənləri də mümkün edir.

## Gözəlliyə qatılan gözəllik

Vətənin gözəlliklərini, füsunkarlığını, əzəmətini, tarixinin möhtəşəmliyini bütün ruhu ilə duyan Azərbaycan Prezidenti Suqovuşandan bu gözəlliyə heyranlığını bir daha dilə gətirdi. Qeyd etdi ki, bu gözəl mənzərəli yerlərə baxdıqca doğma diyarımızın nə qədər ecazkar, dağlarımızın nə qədər əzəmətli olduğu bir daha görünür. "Bütün bu tarixi gözəlliyə biz gözəllik qatacağıq, zövq qatacağıq və burada azərbaycanlılar rahat yaşayacaqlar, sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayacaqlar".

Prezident İlham Əliyev əziz, doğma xalqımıza işğaldan azad edilmiş Qarabağdan Novruz bayramı münasibətilə təbriklərini çatdırdığına görə özünü xoşbəxt sandığını dilə gətirdi. Əslində, bu, Azərbaycan xalqı olaraq bizim də xoşbəxtliyimizdir ki, belə müdrik, qətiyyərli Liderimiz var. Vətənin taleyi onun əmin əllərindədir. Belə bir güclü Liderin ardınca Azərbaycanın xoşbəxt, abad, firavan gələcəyinə doğru irəliləyirik.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Mütərəqqi islahatların uğurlu nəticəsi

Azərbaycanın dövlətçilik tarixi çoxsaylı xoşməramlı addımlarla, hər kəsin rəğbətini qazanan humanizm nümunələri ilə zəngindir. Ölkədə insan hüquq və azadlıqlarının qorunması dövlət siyasətinin prioritet məsələlərindən biridir. Yəni dövlətin siyasi kursunda humanizm başlıca prinsiplərdəndir.

## Humanizm prinsiplərinə sadiqlik

Son 19 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə böyük tərəqqiyə nail olub. Ulu Öndər Heydər Əliyevin humanizm ənənələrinə və siyasətinə sadiqlik İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edib. Dövlət başçısının əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin etmək məqsədi ilə həyata keçridiyi islahatlar da bu sahədə böyük irəliləyişə səbəb olub.

İlham Əliyev hər zaman mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış edərək bayram və əlamətdar günlərdə əfv sərəncamları imzalayıb. Azərbaycan Prezidentinin son 19 ildə imzaladığı 35 əfv sərəncamı ümumilikdə 5672 nəfərə tətbiq olunub. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş 4 amnistiya aktı isə 40 mindən çox insanı əhatə edib.

Vətən müharibəsində böyük Qələbəmizi təmin edən Müzəffər Ali Baş Komandanın təşəbbüsü ilə 2021-ci il noyabrın 5-də qəbul edilmiş Zəfər Amnistiyası da İlham Əliyevin humanist siyasətinin növbəti təzahürüdür. Aktın icrası martın 5-də başa çatdırılıb və 17 min 267 şəxsə amnistiya şamil olunub. Bu qərar tətbiq olunan şəxslərin sayına görə indiyədək qəbul edilmiş ən geniş amnistiyadır. Amnistiyanın tətbiq olunduğu şəxslərdən 733-ü Vətən müharibəsinin iştirakçısı, 837-si qadın, 65-i yetkinlik yaşına çatmayandır. Bundan əlavə, məhkəmələrin icraatında olan işlər üzrə 890, ibtidai istintaq orqanlarının icraatında olan işlər üzrə isə 1785 şəxsə amnistiya tətbiq edilib.

Bununla yanaşı, son illərdə həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının genişləndirilməsi haqqında da ayrıca qanun qəbul olunub, cəza siyasətinin humanistləşdirilməsi məqsədilə cinayət qanunvericiliyinə 600-dək dəyişiklik edilib, bir çox əməllər dekriminallaşdırılıb və 2200-ə yaxın məhkum cəzadan azad olunub.

Məhkumların azad cəmiyyətə tamhüquqlu üzv kimi qayıdışı da daim diqqətdə saxlanılaraq onların sosial adaptasiyası ilə bağlı xüsusi qanun qəbul olunub. Vaxtından əvvəl şərti azadetmə institutu da səmərəli tətbiq olunur. Son iki ildə 3500-dən çox məhkum vaxtından əvvəl şərti azadlığa buraxılıb.

Ümumiyyətlə, mərhəmət, geniş qəlblilik, xeyirxahlıq, bağışlamaq bacarığı daim ən ali keyfiyyətlər kimi qiymətləndirilib. Əfv etmək böyük, müdrik insanlara, dövlət xadimlərinə xas olan yüksək keyfiyyətdir. Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, Qarabağın Xilaskarı kimi adını tariximizə qızıl hərflərlə yazdıran İlham Əliyevin humanizm prinsiplərinə sadiqliyini təsdiq edən əfv və amnistiya aktları bir daha təsdiq edir ki, Azərbaycan Prezidenti əfv etməyi, bağışlamağı bacaran aqil dövlət adamlarındandır.

## Məhkumlara diqqət və qayğı, müasir cəzaçəkmə müəssisələrinin inşası

Prezident İlham Əliyev ölkəmizdə insan hüquqlarının qorunmasına daim xüsusi önəm verib, bu sahədə mütərəqqi islahatlar aparıb, o cümlədən cəza-icra siyasətini humanistləşdirib.

Həmçinin ölkəmizdə yeni ədliyyə sisteminin müasirləşdirilməsi ilə bağlı aparılan islahatlar çərçivəsində penitensiar xidmətin fəaliyyəti təkmilləşdirilir, cəza siyasəti humanistləşdirilir, məhkumların hüquqlarının qorunması, saxlanma şəraitinin, tibbi və digər təminatlarının yaxşılaşdırılması üzrə ardıcıl tədbirlər görülür, yeni penitensiar müəssisələr tikilir. Buna misal kimi, Bakının Zabrat qəsəbəsində yeni istintaq təcridxanasının, Naxçıvan Muxtar Respublikasında və Şəkidə müasir penitensiar komplekslərinin inşa olunmasını, Gəncə və Lənkəran şəhərlərində, habelə paytaxtın Umbakı qəsəbəsində belə müəssisələrin tikintisinin aparılmasını göstərmək olar.

Martın 29-da cəmiyyətin həssas qrupu olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün Bakıda yeni inşa olunmuş müasir penitensiar müəssisələrin təqdimatı da deyilənlərin əyani təsdiqidir.

Prezident İlham Əliyevin də iştirak etdiyi açılış mərasimində bir daha qeyd edildi ki, dövrün tələblərinə cavab verməyən penitensiar müəssisələrin əvəzinə inşa edilmiş yeni müəssisələrdə nümunəvi şərait yaradılıb, istirahət, psixoloq, ibadət otaqları və digər otaqlar ayrılıb, məhbusların faydalı işlə məşğul olmaları üçün istehsalat sahələri təşkil edilib. Hər iki müəssisədə məhkumların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə idman sahələri, təhsil və peşə ixtisaslarına yiyələnmələri üçün lazımi infrastruktur yaradılıb. Burada zəruri ədəbiyyatla təchiz olunmuş kitabxana, oxu zalı və kompüter otağı var. Burada yaradılmış istehsal bölməsində məhkumlar toxuculuq, xalçaçılıq, biçmə, tikiş və şirniyyat sexlərində çalışacaqlar.

Müəssisənin ikimərtəbəli tibb-sanitariya hissəsində həkim otaqları, müasir avadanlıqla təchiz edilmiş müayinə-diaqnostika və stomatologiya kabinetləri, laboratoriya, aptek, pediatr otağı və digər yardımçı otaqlar yerləşir. Yeni penitensiar müəssisədə məhkumlarla görüşlər üçün də bina inşa olunub. Burada məhkumların ailə üzvləri ilə qısamüddətli və 3 günlük uzunmüddətli görüşü üçün hər cür məişət şəraiti, mətbəxi, gəzinti yerləri olan ayrıca otaqlar da var. Müəssisələrin ərazisində inşa olunmuş ikimərtəbəli məktəb binasında sinif otaqları ilə yanaşı, əmək, kompüter və digər otaqlar, idman zalları yerləşir. Burada yaradılmış şərait məhkumların, xüsusilə yetkinlik yaşına çatmayanların təhsil almalarına və peşə ixtisaslarına yiyələnmələrinə imkan verir.

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində cəmiyyətimizin həssas təbəqəsi olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün yeni penitensiar müəssisələrin tikilməsi ölkəmizdə aparılan köklü islahatların tərkib hissəsidir. Burada yaradılan müasir şərait məhkumların hüquqlarının təminatına, onların səmərəli islah olunaraq sosial adaptasiyasına xidmət edəcək.

Göründüyü kimi, əvvəlki illərlə müqayisədə Azərbaycanda bu sahədə aparılan islahatlar öz bəhrəsini verməkdədir. Bununla yanaşı, beynəlxalq və yerli təşkilatların Azərbaycandakı həbs yerlərinə, eləcə də məhbusların saxlanma şəraitinin yaxşılaşdırılmasına, onların hüquq və vəzifələrinin təmin olunmasına artan diqqəti də mövcud kiçik problemlərin həllinə real imkanlar yaradır. Həmin təşkilatların nümayəndələri həbs yerlərinə baş çəkir, məhbuslarla görüşür, onların saxlanma şəraiti və hüquqlarının necə təmin olunması ilə maraqlanırlar. Ombudsman Aparatının əməkdaşları da vaxtaşırı olaraq həbs yerlərinə baş çəkir, məhbuslarla görüşüb onları dinləyirlər. Bütün bunlar Prezident İlham Əliyevin mütərəqqi islahatlarının bariz göstəriciləridir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri əmək, məşğulluq, sosial müdafiə sahələrində əməkdaşlığı genişləndirəcək




Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində keçirilən VIII Dünya Hökumətləri Sammiti çərçivəsində əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə BƏƏ-nin insan resursları və əmirlik naziri Əbdülrəhman Əl-Avarın görüşü olub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğu, siyasi, iqtisadi və digər sahələrdə, həmçinin bərpaolunan enerji istehsalı sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi, ticarət dövriyyəsində artımın davam etdiyi bildirilib.

S.Babayev ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində atılan ardıcıl addımları diqqətə çatdırıb. Nazir Azərbaycanda həyata keçirilən sosial müdafiə və aktiv məşğulluq proqramları, sosial təminat, əmək və məşğulluq sahələrində aparılan islahatlar, DOST mərkəzləri barədə məlumat verib, insan resurslarının inkişaf etdirilməsi və işçi qüvvəsinin rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işləri qeyd edib.

İslam Əməkdaşlıq Təşkilatının Bakı şəhərində yaradılacaq əmək mərkəzinin təşkilata üzv ölkələr arasında əmək, məşğulluq, sosial müdafiə sahələrində əməkdaşlığa mühüm töhfə verəcəyini diqqətə çatdırıb.

Ə.Əl-Avar iki ölkə arasında əlaqələrin inkişafının məmnunluq doğurduğunu, əməkdaşlıq əlaqələrinin əmək, məşğulluq, sosial müdafiə sahələrini də əhatə etməsində maraqlı olduqlarını bildirib. O, rəhbərlik etdiyi qurumun fəaliyyəti, islahatları barədə məlumat verib.

Görüşdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə BƏƏ-nin İnsan Resursları və Əmirlik Nazirliyinin gələcək əməkdaşlığına dair fikir mübadiləsi aparılıb. Əməkdaşlığın müqavilə-hüquq bazasının yaradılması imkanları nəzərdən keçirilib.

# Hərbi Hava Qüvvələrində təlimlər keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il döyüş hazırlığı planına uyğun olaraq Hərbi Hava Qüvvələrində (HHQ) döyüş təyyarələri ilə təlim uçuşları həyata keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimdə havaya qalxma və yerə enmə, kiçik və orta hündürlüklərdə çətin pilotaj manevrləri yerinə yetirilib.

Həmçinin şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi və hava kəşfiyyatının aparılması üzrə tapşırıqlar pilotlar tərəfindən müvəffəqiyyətlə icra olunub.

# Azərbaycan ilə Böyük Britaniya arasında müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub



Martın 30-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Böyük Britaniyanın Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan müdafiə naziri ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin daim diqqət mərkəzində olduğunu qeyd edib.

General-polkovnik Z.Həsənov Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılan qələbədən sonra azad edilən ərazilərdə görülən işlər, eyni zamanda Qarabağ iqtisadi zonasında və Azərbaycan-Ermənistan dövlət sərhədindəki vəziyyətlə bağlı ətraflı məlumat verib.

Həmçinin nazir Birləşmiş Krallığın BMT-nin İnkişaf Proqramı çərçivəsində Azərbaycanda ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənərək zərərsizləşdirilməsi məqsədilə göstərdiyi dəstəyinə görə təşəkkürünü bildirib.

Ceyms Hippi öz növbəsində ölkələrimiz arasında qarşılıqlı səfər və görüşlərin ikitərəfli əlaqələrin genişlənməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini deyib.

Sonda hərbi sahədə əməkdaşlığın perspektivləri və digər mövzular ilə bağlı fikir mübadiləsi aparılıb.

# *Ceyms HİPPİ:* "Azərbaycan Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfə verir"



Martın 30-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Böyük Britaniya ilə Azərbaycan arasında həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib. Eyni zamanda iki ölkə arasında siyasi, iqtisadi, ticarət, energetika, investisiya, enerji, işğaldan azad edilmiş ərazilərimizin bərpası üzrə əməkdaşlıq məsələləri, o cümlədən alternativ enerji mənbələri və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Ölkələrimiz arasında iqtisadi sahədə əldə olunan nailiyyətlərin məmnunluq doğurduğu qeyd edilib və Birləşmiş Krallığın Azərbaycanda ən böyük birbaşa xarici sərmayədar olduğu vurğulanıb.

Bu il Azərbaycan ilə Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu bildirən nazir Ceyhun Bayramov ölkəmizin Krallıqla əlaqələrə önəm verdiyini, ikitərəfli münasibətlərin müxtəlif sahələrdə dinamik şəkildə inkişaf etdiyini vurğulayıb.

Söhbət zamanı regional təhlükəsizlik məsələləri də müzakirə olunub.

Nazir Ceyhun Bayramov postmünaqişə mərhələsində azad edilmiş ərazilərdə mövcud olan vəziyyətdən danışaraq, 44 günlük Vətən müharibəsi nəticəsində imzalanmış birgə bəyanatların icrası ilə bağlı məsələlər, azad olunmuş ərazilərdə üzləşdiyimiz mina təhlükəsi və onunla aparılan mübarizə barədə qarşı tərəfə ətraflı məlumat verib. O, hazırkı mərhələdə işğal amilinin aradan qaldırılması ilə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması imkanlarından, azad edilmiş ərazilərdə həyata keçirilən bərpa, yenidənqurma proseslərindən danışıb. Nazir Böyük Britaniya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsinə verdiyi töhfəni, eləcə də bu ərazilərin yenidən qurulması və bərpası işlərində iştirakının ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Ceyms Hippi Azərbaycana ilk səfəri çərçivəsində dövlətimizin başçısı ilə keçirilən görüşü məmnunluqla vurğulayıb. O, iki ölkə arasında əməkdaşlığın uğurla davam etdiyini bildirib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfə verdiyi qeyd olunub.

Görüşdə tərəflər Ukraynadakı vəziyyət, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun kollegiya iclası keçirilib

Martın 30-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş kollegiya iclası keçirilib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasdan öncə 1918-ci ilin mart-aprel aylarında erməni-daşnak millətçiləri tərəfindən Bakıda başlanan və bölgələrdə davam etdirilən soyqırımı aktı zamanı 50 mindən çox azərbaycanlının xüsusi qəddarlıqla qətlə yetirilməsi, minlərlə insanın öz doğma torpağından didərgin salınması, onlarla şəhər və kəndin yandırılması, milli-mədəni abidələrin dağıdılaraq məhv edilməsi qeyd olunmaqla miqyası və amansızlığına görə bəşəriyyətə, insanlığa qarşı törədilmiş dəhşətli faciənin qurbanları və bütün şəhidlər ehtiramla anılıb, onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və qazilərimizə şəfa dilənib.

Xüsusi vurğulanıb ki, məhz ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla 80 il sonra erməni millətçilərinin hərəkətlərinə ilk dəfə hüquqi-siyasi qiymət verilməklə 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib. Kollegiya iclasında çıxış edən Baş prokuror Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban Əliyevanın yaxından iştirakı ilə işğaldan azad edilmiş ərazilərin yenidən həyata qaytarılması istiqamətində aparılan möhtəşəm abadlıq-quruculuq işlərinin önəmini qeyd edib.

Baş prokuror həmçinin işğaldan azad edilmiş rayonların prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması və nəzarət tədbirlərinin gücləndirilməsi, aparılan islahatların tərkib hissəsi kimi "Elektron Prokurorluq" İnformasiya sisteminin yaradılması, onun Əsasnaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may və 2022-ci il 3 mart tarixli fərmanlarından irəli gələn vəzifələrin, eləcə də prokurorluğun peşəkar kadrlarla komplektləşdirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Qeyd olunan məsələlərlə əlaqədar görülən işlər və qarşıda duran vəzifələr barədə Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi Murad Dadaşov, Təşkilat və icraya nəzarət idarəsinin rəisi Elşən Abbasov və Kadrlar idarəsinin rəisi Natiq Hüseynov məruzələrlə çıxış ediblər.

Aparılmış müzakirələr ətrafında kollegiya üzvləri çıxış edərək təkliflərini bildiriblər.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli tərəqqisi istiqamətində digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# Baş prokuror Litvanın Xüsusi İstintaq Xidmətinin rəhbəri ilə görüşüb

Martın 30-da Baş prokuror Kamran Əliyev "Avropa Qonşuluq Aləti" çərçivəsində reallaşdırılan "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı "Tvinninq" layihəsi üzrə ölkəmizə səfər edən Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin rəhbəri - tərəfdaş ölkənin layihə rəhbəri Jidrunas Bartkus və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Baş prokuror dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, xüsusilə də prokurorluqda həyata keçirilən islahatlardan söhbət açaraq prokurorluqda cinayət yolu ilə əldə olunmuş əmlakın bərpası və korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər barədə geniş məlumat verib.

Kamran Əliyev bu ilin mayında Bakıda layihə çərçivəsində baş tutacaq Litva Respublikasının Baş prokuroru xanım Nida Qrunskienenin səfərini və həmin səfərin ikitərəfli münasibətlərin inkişafına müsbət təsir göstərəcəyini vurğulayıb. Səmimi görüşə görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Jidrunas Bartkus Avropa İttifaqı, o cümlədən Litva Respublikası tərəfindən Azərbaycanla əlaqələrə böyük önəm verildiyini və münasibətlərin müvəffəqiyyətlə inkişaf etdiyini deyib. O, aprelin 1-də keçiriləcək "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı "Tvinninq" layihəsinin rəhbər komitəsinin ilk iclası və gündəlikdə duran məsələlər barədə ətraflı məlumat verib.

J.Bartkus aktivlərin bərpası sahəsində ölkəsinin təcrübəsini paylaşaraq fikir mübadiləsinin aparılmasında maraqlı olduqlarını və bu sahədə Azərbaycan Respublikasının qanunvericilik bazasının təkmilləşdirilməsində aparılan işlərin səmərəliliyinin artırılmasında böyük rolunun olacağını qeyd edib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2022-ci ilin aprel ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 4 |
| **Adil Abış oğlu ƏLİYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Gənclər və idman komitəsinin sədri | 11 |
| **Fəzail Feyruz oğlu İBRAHİMLİ**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 18 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 13 |
| **Zahid Məhərrəm oğlu ORUC**<br>Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 27 |
| **Sadiq Haqverdi oğlu QURBANOV**<br>Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 28 |
| **Tahir Famil oğlu MİRKİŞİLİ**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 6 |
| **Tahir Musa oğlu RZAYEV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 14 |
| **Musa İsa oğlu QULİYEV**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 21 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | 26 |
| **Hicran Kamran qızı HÜSEYNOVA**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 14 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 27 |
| **Bəxtiyar Həmzə oğlu ƏLİYEV**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 25 |
| **Qənirə Ələsgər qızı PAŞAYEVA**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 20 |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 5 |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin İntizam komissiyasının sədri | 12 |
| **Səfa Abbas oğlu MİRZƏYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 1 |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | 8 |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 22 |
| **Adil İsrayıl oğlu VƏLİYEV**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 29 |
| **Rüstəm Bəhruz oğlu MAHMUDOV**<br>Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 19 |
| **Fərid Famil oğlu HACIYEV**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 5 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul Otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**Qəbula yazılma vaxtı: saat 9:00-dan 18:00-dək**
**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**
**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 30-da Lənkəran Şəhər-Rayon Polis Şöbəsində daxili işlər orqanlarının fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxili işlər naziri əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub. Daha sonra şəhər-rayon polis şöbəsinin inzibati binasında Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarının 71 sakinini qəbul edən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini dinləyib, problemlərinin operativ həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti yerində öz həllini tapıb. Qəbula gələn vətəndaşlar onlara göstərilən diqqət və qayğıya, yerlərdə davamlı olaraq belə qəbulların təşkilinə, dövlət qurumlarının rəhbərləri tərəfindən ərizə və müraciətlərinə operativ yanaşılmasına, həssas münasibətə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

Səfər çərçivəsində nazir DİN-in Daxili Qoşunlarının Lənkəranda yerləşən hərbi hissəsində də olub.

General-polkovnik V.Eyvazov hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu ilə maraqlanıb, silah təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə yaxından tanış olub, həmçinin xüsusi-taktiki təlimləri izləyib. Polis əməkdaşlarının və hərbi qulluqçuların peşə və döyüş hazırlığını yüksək qiymətləndirən nazir öz tapşırıq və tövsiyələrini verib.

Daha sonra general-polkovnik V.Eyvazov Lənkəran Şəhər-Rayon Polis Şöbəsində bölgə üzrə polis orqanlarında və Daxili Qoşunlarda vakant olan vəzifələrə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf şəhər və rayonlarda yaşayan, polis orqanlarında və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. Daxili işlər orqanlarında xidmətə qəbulun şərtlərinə uyğun gələn 46 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 10-u Vətən müharibəsi iştirakçısı, 6-sı isə şəhid ailələrinin üzvləri olublar.

❖ ❖ ❖

Dövlət Gömrük Komitəsinin (DGK) Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, martın 30-da komitənin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Abşeron rayon Heydər Əliyev Mərkəzində Abşeron və Zəngilan rayonlarından olan vətəndaşları qəbul edib.

Səfər Mehdiyev qəbuldan öncə Xırdalan şəhərinin mərkəzində Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Abşeron və Zəngilan rayonunun sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı DGK sədri Səfər Mehdiyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, bəzi müraciətlərin araşdırılması üçün müvafiq strukturların rəhbərlərinə tapşırıqlarını verib.

# Azərbaycanın yeni turizm ünvanı - Suqovuşan

## İşğaldan azad olunmuş ərazilərimizə 2025-ci ilə qədər 1 milyona yaxın turistin gəlməsi gözlənilir

**Qarabağ və Şərqi Zəngəzur dünyaya yeni turizm destinasiyası kimi təqdim ediləcək. Bu torpağın turizm potensialı yüksəkdir, mövcud imkanlar həm daxili, həm də beynəlxalq turizmin inkişafı üçün geniş perspektivlər açır. Odur ki, Azərbaycan dövlətinin işğaldan azad etdiyi ərazilərdə apardığı bərpa-quruculuq işlərində, bölgənin gələcəyi ilə bağlı planlarında turizmin inkişafı məsələləri önəmli yer tutur.**

Hələ Vətən müharibəsi qələbə ilə başa çatdıqdan az sonra Prezident İlham Əliyev bəyan etmişdir ki, bu yerlər Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək. Hazırda həmin istiqamətdə ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanılıb. Dövlət başçısının cari il martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlini qoyması buna aydın misaldır.

Ərazinin minalardan təmizlənməsindən, dağıdılmış tikililərin qalıqlarının yığışdırılmasından, çoxillik bitkilərin budanmasından sonra burada abadlıq işlərinə başlanılacaq. Həmçinin əraziyə uyğun bitkilər də əkiləcək. Ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan su anbarı ətrafında yaradılacaq kompleksdə sahilboyu gəzinti cığırları salınacaq, oturacaqlar, söhbətgahlar quraşdırılacaq. Burada eləcə də turistlərə xidmət göstərəcək nəqliyyat vasitələri üçün avtodayanacaq, turizm məlumat mərkəzi və ictimai iaşə obyekti yaradılacaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin ərazisində ağac əkiblər. Beləliklə, kompleksin tikilməsinə start verilib. Qeyd edək ki, Suqovuşan Turizm Kompleksində işlər cari ilin sonunadək başa çatdırılacaq. Növbəti mövsümdə isə obyekt turistlərə xidmət göstərəcək.

Ümumiyyətlə, görülən işlər sübut edir ki, Qarabağı və Şərqi Zəngəzuru Azərbaycanın əsas turizm zonalarından birinə çevirmək məqsədi tezliklə həyata keçəcək. Bu ərazinin milli və təhlükəsiz turizm zonası kimi tanıdılmasına nail olmaq üçün uzunmüddətli



strategiyanın hazırlanması və mərhələli şəkildə icrası günün tələbidir. Bütövlükdə bu regionlar turizmin müxtəlif növlərinin - eko, sağlamlıq, mədəni, təbiət, dağ və qış turizminin inkişafı üzrə zəngin resurslara, geniş imkanlara malikdir. Məsələn, Laçın və Kəlbəcərin unikal relyef müxtəlifliyi burada həm yay, həm də qış turizminin perspektivlərini artırır. Kəlbəcər rayonu Cənubi Qafqazda turizmin inkişafı baxımından azsaylı regional ərazilərdən biri hesab edilir. Buranı müalicəvi turizm istiqamətində inkişaf etdirmək mümkündür.

Mütəxəssislərin proqnozuna görə, təkcə Kəlbəcərin "İstisu" mənbəyi bu rayona turistlərin böyük axınına səbəb olacaq. Eləcə də bölgənin tarixi abidələri, uca dağları, şış qayaları, yaşıl meşələri, gur çayları buranı turistlər üçün cəlbedici məkana çevirəcək.

Mədəniyyət paytaxtımız Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verir. Burada istifadəyə verilən otellər qonaqların qalmaları və rahat istirahət etmələri üçün bütün zəruri infrastrukturla təchiz olunub. Bu cür obyektlərin fəaliyyətə başlaması şəhərin turizm potensialının möhkəmləndirilməsində çox mühüm rol oynayacaq.

Urbisidə məruz qalmış Ağdam şəhərinin isə tamamilə yenidən qurulduqdan sonra işgüzar turizm mərkəzinə çevrilməsi planı var. Xocavəndin Hadrut qəsəbəsinin turizm imkanları da geniş və çoxşaxəlidir. Qəsəbədə və onun ətrafında yerləşən yaşayış məntəqələrində çoxsaylı tarixi-mədəni abidə, o cümlədən qədim alban məbədləri mövcuddur. Onlar qəsəbədə turizm sənayesinin inkişafı üçün mövcud olan potensialları daha da genişləndirir.

Prezident İlham Əliyev keçən il oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı demişdir : "Xocavənd rayonunun turizm potensialı çox genişdir. Bura təbiətcə çox zəngin məkandır, hər tərəf dağlar, meşələr, çaylar, cənnətə oxşayan bir yerdir. Tarixi abidələr, körpülər, eyni zamanda, məşhur Azıx mağarası, Tağlar mağarası - bunlar burada yerləşir ... Keçən dəfə mən burada olanda o mağaranın girişinə qədər qalxdım. Tarixi abidələrlə zəngin olan bu yerlərdə turizm mərkəzləri, otellər tikmək üçün azərbaycanlı və xarici investorları da dəvət etmək istəyirəm. Çünki dünyada Xocavənd kimi, Hadrut qəsəbəsi kimi gözəl səfalı yerlər çox azdır".

Qarabağın unikal təbii iqlim xüsusiyyətləri ərazidə aqroturizmin və kənd turizminin inkişafına da imkan verir. Qələbədən sonra burada kənd infrastrukturunun sürətlə yenilənməsi, normal həyat üçün bütün zəruri şəraitin yaradılması bölgə kəndlərini turistlər üçün sevimli istirahət məkanı edəcək.

Bunlar Qarabağın və Şərqi Zəngəzurun böyük turizm potensialı barədə kiçik ştrixlərdir. İndi bu bölgələrdə avtomobil yollarının geniş şəbəkəsi yaradılır. Dəmir yolu çəkilir. Təsadüfi deyil ki, tez bir zamanda istifadəyə verilmiş Füzuli Beynəlxalq Hava Limanını Qarabağın "hava qapısı" adlandırırlar. Hava limanına istənilən tip təyyarələrin eniş etməsi mümkündür. Hazırda Zəngilan və Laçında da beynəlxalq hava limanları tikilir. İşlər başa çatdırıldıqdan sonra bu bölgəyə yerli turistlərin, eləcə də xarici ölkələrdən səyahət etməyə gələnlərin sayı xeyli artacaq. Beləliklə, üç hava limanı bölgə turizminin inkişafında müstəsna rol oynayacaq.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərə 2025-ci ilə qədər 1 milyona yaxın yerli və xarici turistin səfər etməsi gözlənilir. Bu isə daha böyük perspektivlərdən xəbər verir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR







# İnsanlığa qarşı qəddar cinayət

**1917-ci il fevralın 27-də baş vermiş burjua inqilabı Romanovlar sülaləsinin sonuncu nümayəndəsi II Nikolayın hakimiyyətinin devrilməsinə səbəb oldu. Bununla da imperiyanın bütün bölgələrində, xüsusilə də Qafqazda böyük bir anarxiya başladı.**

Fevral burjua inqilabından sonra Bakıda və Azərbaycanın digər şəhərlərində (Gəncə, Şamaxı və s.) ikihakimiyyətlilik yaranmışdı: onlardan biri - burjua müvəqqəti hökumətin yerli hakimiyyət orqanları, digəri isə fəhlə və əsgər deputatları sovetləri idi. Əslində, çar rejiminin devrilməsi Azərbaycanda böyük ruh yüksəkliyi ilə qarşılanmışdı. Çoxları düşünürdülər ki, Rusiyada qurulacaq federativ və demokratik hökumət Cənubi Qafqazda milli ədavətin qızışdırılmasına imkan verməyəcək, ayrı-seçkiliyə son qoyacaq. Lakin yeni yaranmış müvəqqəti hökumətin Cənubi Qafqazda qurduğu "Xüsusi Zaqafqaziya Komitəsi" imperiyanın ermənipərəst siyasətini aradan qaldırmaq ümidlərini boşa çıxartdı. Əksinə, erməni daşnaklarının türk torpaqlarında törətdikləri qırğınlar geniş vüsət aldı. Bolşeviklərin sıralarında erməni şovinist millətçilərinin çoxluğu və onların türk-müsəlman əhaliyə qarşı düşmənçiliyi isə Bakıda, hətta regionda vəziyyəti gərginləşdirən əsas amillərdən birinə çevrildi.

## Şovinist millətçilərin əsl niyyəti

Bakı Sovetinin tərkibində azərbaycanlılar, demək olar ki, təmsil olunmurdular. Onun tərkibi və rəhbər heyəti bütünlüklə ermənilərdən və qeyri-azərbaycanlılardan təşkil edilmişdi. 1917-ci il martın 6-da qatı erməni millətçisi Stepan Şaumyan Bakı Soveti Rəyasət Heyətinin sədri seçilmişdi. Onun və digər erməni şovinist millətçilərinin əsl niyyəti azərbaycanlılara sarsıdıcı zərbə vurmaq, ardıcıl terror və qırğın aksiyaları həyata keçirmək idi.

Həmin dövrdə yaşamış qabaqcıl ziyalılarımız da təbii ki, mövcud vəziyyətin fərqində idilər. Müsəlman qüvvələrin vahid bir mərkəzdə birləşdirilməsi Azərbaycanın siyasi xadimləri qarşısında vacib məsələ kimi dururdu. Yerli əhali Azərbaycan ziyalılarına dəstək verir, onların qurduqları təşkilatlar ətrafında bir araya gəlirdilər.

Azərbaycanlıların öz milli hərbi hissələrini yaratmağa başlaması isə Şaumyan başda olmaqla bolşevikləri və erməni daşnaklarını daha çox qorxuya salırdı. Bolşeviklər bu prosesin qarşısını almaq üçün azərbaycanlılar arasında təfriqə salır, xalqı öz ziyalılarının və iri mülk sahiblərinin əleyhinə qaldırmağa çalışırdılar.

O dövrdə bolşeviklər hər cür demokratik şüarlarla pərdələnsələr də, azərbaycanlıların milli maraqlarına qətiyyən cavab vermirdilər. Ermənilər tərəfindən istiqamətləndirilən bolşevizm Azərbaycan xalqına sonsuz qırğınlar və fəlakətlər gətirdi. Tədricən Bakıda siyasi və hərbi hakimiyyət bolşevik pərdəsi altında gizlənən erməni daşnak şovinistlərinin əlində cəmləşməyə başladı.

1918-ci ilin 31 mart soyqırımları ərəfəsi o dövr idi ki, Avropa ölkələrində "erməni məsələsi" artıq siyasət aləminə daxil olmuşdu, "Daşnaksütyun" partiyasının əsas qüvvələri Cənubi Qafqaza, xüsusilə Bakıya toplaşmış və onlar "böyük Ermənistan" yaradılması üçün yeni yollar seçmişdilər. 1917-ci il çevrilişindən sonra Cənubi Qafqazda özünü ali hakimiyyət elan etmiş Zaqafqaziya Komissarlığı ilə Bakı Soveti arasında münasibətləri nizamlamaq mümkün olmamışdı. Şaumyanın rəhbərlik etdiyi Bakı bolşevikləri yeni yaranmış Zaqafqaziya Komissarlığını tanımadıqlarını bəyan etmiş və bu hakimiyyəti zorakılıqla devirmək üçün fəaliyyətə başlamışdılar.



## Daşnak üslubu

Bakıda ermənilər bolşeviklərlə birgə özlərini vətəndaş müharibəsinə, azərbaycanlılara qarşı kütləvi soyqırımı aktına hazırlayırdılar. Bolşeviklər 1918-ci ilin əvvəllərində xalq arasında ciddi bir dayaqlarının olmadığını başa düşüb hakimiyyəti dinc yolla ələ keçirmək mübarizəsindən silahlı mübarizəyə hazırlaşmaq taktikasına üstünlük vermişdilər. Bu məsələdə ermənilər onların işinə yarayırdı.

Araşdırmalarda göstərilir ki, mart qırğını ərəfəsində Bakı bolşeviklərindən Avakyan vəzifəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, komitəyə gələn bütün ermənilərə silah və patron paylayırdı. Onlar artıq bir neçə ay idi ki, ciddi şəkildə silahlanırdılar. Bakının ermənilər yaşayan məhəllələrinə, ətraf kəndlərə hərbi sursat daşınırdı. Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti buna dəstək verirdi.

Bu zaman azərbaycanlılar milli hərbi birləşmələrin yaradılmasına xüsusi diqqət verməyə başlamışdılar. Bakıda, Gəncədə və Azərbaycanın başqa şəhərlərində yaradılan müsəlman milli hissələrinin özəyini Petroqrad ətrafından gətirilmiş "Tatar süvari polku" deyilən hərbi hissələr təşkil edirdi. Amma ordunun formalaşdırılması işi çox ləng gedirdi, heç bir kömək yox idi.

Sənədlərdə qeyd olunur ki, bu dövrdə Bakıda üç siyasi qüvvə arasında mübarizə güclənməkdə idi: birinci qüvvəyə daşnaklar, sağ eserlər və menşeviklər; ikinci qüvvəyə bolşeviklər və sol eserlər; üçüncü qüvvəyə isə müsəlman təşkilatları daxil idi. Mübarizənin şiddətli vaxtında birinci iki qüvvə erməni-rus bolşeviklərinin rəhbərliyi altında müsəlmanlara qarşı birləşdilər. Xüsusilə Bakıda rus və erməni silahlı dəstələrinin Azərbaycan əhalisinə qarşı qarət hərəkətləri baş alıb gedirdi. Soyğunçuluq, qarmaqarışıqlıq və özbaşına axtarışlar əhalini qorxuya salmışdı. Buna etiraz edən müsəlman tacirləri bütün mağazaları bağlamışdılar. 1918-ci ilin yanvarında Şaumyanın göstərişi ilə Müsəlman korpusunun komandiri general Talışinskinin Bakıda həbsi şəhərin azərbaycanlı əhalisi arasında qəzəb doğurdu. Onun həbsinə etiraz olaraq Bakıda və ətraf kəndlərdə nümayişlər başlandı. Bolşevik-daşnaklara isə azərbaycanlılara divan tutmaq üçün belə bir bəhanə lazım idi.

Növbəti təxribat "Evelina" gəmisində Lənkərana getməyə hazırlaşan əsgərlərin tərk-silah edilməsi oldu. Onlar Bakıya milyonçu Hacı Zeynalabdin Tağıyevin oğlu, əsasən azərbaycanlılardan ibarət "Dikaya diviziya"nın Lənkəranda təsadüf nəticəsində həlak olmuş zabiti Məmmədin hərbi qaydada dəfni məqsədilə gəlmişdilər. Dəfn başa çatandan sonra martın 29-da geri qayıtmaq üçün Bakı limanında onları gözləyən "Evelina" gəmisinə mindilər. Şəhərdə çoxsaylı erməni silahlı dəstələrinin olmasına göz yuman bolşeviklər Şaumyanın tapşırığı ilə bu əsgər və zabitləri tərk-silah etdilər.

## İlk acı zərbə

Növbəti gün müsəlman nümayəndələri silahların qaytarılmasını Bakı Sovetindən xahiş etdilər. Həmin gün Hərbi-İnqilab Komitəsində təcili müşavirə keçirildi. Silahların "Hümmət" təşkilatı vasitəsilə geri qaytarılması qərara alındı. Bolşeviklərin rəhbərlərindən biri olan Caparidze bu tələbin yerinə yetiriləcəyinə söz verdi. Amma elə bu zaman küçədə atışma səsləri eşidildi. Məlum oldu ki, Şaumyanın qabaqcadan hazırladığı təxribat artıq baş tutub və azərbaycanlıların kütləvi soyqırımına doğru ilk hərəkətlər başlanıb. "Əksinqilabi ünsürlərlə mübarizə" şüarı altında Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən soyqırımı planı reallaşdırılırdı.

30 mart 1918-ci il axşam saat 6-da Bakı artıq əsl döyüş meydanına çevrilmişdi. Bütün erməni silahlı qüvvələri Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin tərəfinə keçmişdi. Azərbaycanlıların hərbi sursatı yox dərəcəsində idi. Soydaşlarımızın yaşadığı məhəllələrdə dəhşətli qırğınlar törədilirdi.

Nəriman Nərimanov qırğının qarşısını almaq üçün işə qarışmalı olur və öz evində müşavirə çağırır. Hətta müşavirəyə S.Şaumyan da dəvət olunur və hadisələrin qarşısını almaq üçün ona müraciət edilir. Şaumyan həmin müşavirədə hiyləgərcəsinə qırğının dayandırılacağına söz verir. Lakin bunun heç bir təsiri olmur, ermənilər qırğını daha da gücləndirirlər. Soyqırımı aprelin 2-si, gecə yarıyadək davam edir. Üç gün davam edən qanlı qırğın zamanı 30 mindən çox azərbaycanlı qətlə yetirilir.

## "Vətəndaş müharibəsi" adı ilə milli qırğın

Mahiyyətcə milli soyqırımı olan mart döyüşləri Bakı Sovetinə qısa müddət ərzində vəziyyətə nəzarət etmək imkanı versə də, əhali arasında sovetlərə qarşı kin-küdurəti daha da artırırdı. Həmin günlərdə təpədən-dırnağa qədər silahlanmış erməni əsgərləri müsəlmanların evlərinə basqınlar edərək onları vəhşicəsinə öldürür, körpələrə və qocalara belə aman vermirdilər. Hətta daşnak silahlı dəstələri Nəriman Nərimanovun evinə də basqın edərək qardaşını həbs etmişdilər. Azərbaycanlılara qarşı bu soyqırımı və qarətlərdə Anastas Mikoyanın başçılıq etdiyi "Qızıl Qvardiya" dəstələri xüsusilə fərqlənmişdilər. Bakı əhalisinin 400 milyon manatlıq əmlakı talan edilmiş, müsəlmanların bir çox ziyarətgahları dağıdılmışdı. Bakının ən möhtəşəm memarlıq incilərindən sayılan "İsmailiyyə"nin binasına, "Kaspi", "Açıq söz" qəzetləri redaksiyalarına od vurulmuşdu.

Bakı milyonçuları Musa Nağıyevin və Şəmsi Əsədullayevin nəvəsi, Fransada yaşayıb-yaratmış yazıçı Ümmülbanu (Banin) 1918-ci ilin mart günlərini belə xatırlayırdı: "Həmin vaxtlarda Azərbaycanın paytaxtı Bakı şəhərində siyasi canlanma güclənmişdi. Yaranmış müxtəlif siyasi təşkilatların fəaliyyəti sayəsində rəqabət, dağıntı, döyüşlər baş verdi. Sosialist təmayüllü bir erməni təşkilatı ölkəni kommunist dağıntısından qurtarmaq adı ilə hərbi diktatura rejimi yaratdı. Amma camaat pıçıldaşırdı ki, bu təşkilatın başçıları bolşeviklərdir. Onlar hər kim olsalar da, hakimiyyətləri dövründə müdafiə imkanı olmayan müsəlmanları qırmağa başladılar... Biz hər dəqiqə daşnakların evə dolacağını, mənzilimizi dağıdıb bizi də qıracaqlarını gözləyirdik. Telefon da kəsilmişdi... Nəriman Nərimanov bu hadisələrə dözə bilmədi, xəstələndi və Bakını tərk etdi. S.Şaumyana və A.Mikoyana qoşulan Məşədi Əzizbəyov isə faciəvi olaylardan baş çıxara bilmədi... Bakı ilə yanaşı, Azərbaycanın digər ərazilərində də ermənilər əhaliyə qarşı tarixdə görünməmiş qəddarlıq edirdilər..." 1918-ci il mart ayının 14-də daşnak Əmirovun komandanlığı altında Şamaxıya bolşevik dəstələri göndərildi. Martın 16-da məlum oldu ki, əsgərlər Şamaxıya hərəkət edərkən yolboyu Ağdərə, Novxanı, Qarxunlu və başqa kəndləri qarət etmiş, əhalini qırıb-çatmışdı. Martın 17-də erməni qoşunları Şamaxıya yetişmiş və böyük vuruşma başlamışdır. Martın 30-da ermənilər Mədrəsə kəndindən şəhəri top atəşinə tutmuşdular. Aprelin 3-dən 16-dək Şamaxı şəhəri və onun kəndlərinin müsəlman əhalisi böyük itkilər vermişdi. Bu ərəfədə Petrovun və Avetisovun quldur dəstələri kütləvi qırğınlar törətmişdilər. Tarixi abidə olan Cümə məscidi yandırılmışdı.

Azərbaycanın İrəvan, Zəngəzur, Naxçıvan, Qarabağ bölgələrində isə Andranikin, Dronun, Njdenin silahlı dəstələri azərbaycanlıların kütləvi qətliamını həyata keçirmişdilər. Andranikin silahlı dəstələri 1918-ci ildə Naxçıvan qəzasının Yaycı kəndinə hücum edərək 2500 nəfəri qətlə yetirmiş, meyitlərini isə Araz çayına atmışdılar...

Mart soyqırımı ərəfəsində mətbuat orqanlarına qadağalar qoyuldu. 1918-ci ilin martınadək Azərbaycanda 20-dən artıq ana dilində mətbuat orqanı fəaliyyət göstərirdi. Qətliamdan sonra yalnız "Hümmət" və "Bakı Şurasının əxbarı" qəzetləri nəşr edilirdi, digər mətbuat orqanlarına qadağa qoyulmuşdu. Bakı Sovetinin sədri Şaumyanın əmri və mətbuat bürosunun qərarı ilə "Mart hadisələrinə düzgün qiymət vermədiklərinə və vahid sosialist cəbhəsində dayanmadıqlarına" görə, hətta rusdilli qəzetlər də bağlanmışdı. "Hümmət"in "Şamaxı əhvalı" sərlövhəli məqaləsində qeyd olunurdu ki, 17 yaşından 50 yaşınadək Şamaxı erməniləri bolşeviklərin Qırmızı ordusunun tərkibinə qatılmışdılar. Vəziyyətin acınacaqlı olduğunu qəzet bu sözlərlə bildirirdi: "Şamaxı şəhəri bütünlüklə yanıb".

## Soyqırımına dolğun hüquqi-siyasi qiymət

Mart soyqırımı əsl hüquqi-siyasi qiymətini yalnız Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra almışdır. Ulu Öndər Heydər Əliyevin mart hadisələrinin 80-ci ildönümü münasibətilə - 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman erməni təcavüzkarlarının terror hərəkətlərinə verilən dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 18 yanvar 2018-ci il il tarixli sərəncamı bəşəriyyətə qarşı yönəlmiş cinayətlərin qarşısının alınmasına, ümumilikdə dünyanın bir daha belə dəhşətlər yaşamaması məramına yönəlmiş mühüm dövlət sənədidir.

Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə dünyanın hərb tarixini dəyişdi. Düşmənə elə bir dərs verildi ki, faşist xislətli ermənilər bundan sonra bir də cəsarət edib soyqırımı, müharibə haqqında düşünə bilməzlər. Xam xəyallara qapılanda isə "dəmir yumruğ"un ağır zərbəsini öz üzərlərində hiss edəcəklər.

Xalqımız gözəl bir dünya qurmaqdan ötrü tərəqqipərvər bəşəriyyəti haqqı, ədaləti təmin etməyə, zalımları öz cəzalarına çatdırmağa çağırır.

Bu, Azərbaycan dövlətinin, dünyanın gələcəyinə görə dərk edilmiş məsuliyyətidir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Əsrlərin intiqamını 44 gündə aldıq

## Parlaq Zəfərimizlə yekunlaşan Vətən müharibəsi sayəsində soyqırımına məruz qalan soydaşlarımızın qanı yerdə qalmadı

Cəmi 44 gün sürərək Azərbaycanın parlaq Zəfəri ilə yekunlaşan Vətən müharibəsi həm də son ikiyüzillik tariximizdə qazandığımız ən möhtəşəm qələbə kimi tarixə həkk olundu. 30 il idi ki, işğal altında olan tarixi torpaqlarımız azadlığına qovuşduruldu, öz dədə-baba torpaqlarına qayıtmaq istəyən yüz minlərlə Azərbaycan vətəndaşının yurd həsrətinə son qoyuldu. Və həm də tarixin müxtəlif dövrlərində erməni faşizminin qurbanına çevrilən, soyqırımına məruz qalan soydaşlarımızın qisası layiqincə alındı.

Prezident İlham Əliyevin ötən il sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciəti zamanı bəyan etdiyi kimi, Azərbaycan öz Qələbəsi ilə faşist xislətli düşməni qarşısında diz çökdürdü, onu ömürlük məhvə məhkum etdi: "...44 gün ərzində biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etmədik, təkcə düşməni torpağımızdan qovmadıq, təkcə milli ləyaqətimizi bərpa etmədik, biz erməni faşizminin başını əzdik".

## Qan yaddaşımız

Bu tarixi faktdır ki, erməni millətçiləri "dənizdən-dənizə" böyük imperiya xülyasına qapılaraq XIX-XX əsrlər boyu xalqımıza qarşı soyqırımı siyasəti yürüdüblər. Azərbaycanlıları və Anadolu türklərini Yer üzündən silmək prinsipi ilə yaşayan faşizm xislətli erməni şovinistlər bu yolda ən iyrənc metodlardan istifadə edib, dünya tarixində bənzəri olmayan faciələr törədiblər.

Hələ XIX əsrin ikinci yarısından başlayaraq Anadoluda qırğınlar törədərək çoxsaylı insanın həyatına son qoyan erməni quldurları XX əsrin əvvəllərindən etibarən Bakıda, Şuşada, İrəvan və Naxçıvan mahallarında, Qarabağda, Borçalıda, Qazaxda, Zəngəzurda, Gəncədə, Qubada, Tiflisdə və başqa yerlərdə on minlərlə azərbaycanlını kütləvi şəkildə qətlə yetiriblər. Bu amansız siyasət nəticəsində 1905-1907-ci illərdə, 1918-1920-ci illərdə, 1948-1953-cü illərdə və 1988-1994-cü illərdə xalqımızın başına olmazın müsibətlər gətirərək ard-arda soyqırıma məruz qoyublar.

Tarixi mənbələrdə göstərilir ki, təkcə 1917-ci ilin dekabrından 1918-ci ilin martına qədər cəllad Andranikin rəhbərliyi altında erməni qoşun hissələrinin fəal iştirakı ilə İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Nor-Bəyazid qəzasında 7 kənd dağıdılıb, sakinlərin bir qismi qətlə yetirilib, digər qismi isə öz doğma ev-eşiklərindən didərgin düşüb, əmlakları talan olunub, evləri yerləyeksan edilib.

1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə bolşevik və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımı nəticəsində rəsmi mənbələrə əsasən on minlərlə soydaşımız məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib. Yaşayış məntəqələri, tarixi abidələr, məscid və qəbiristanlıqlar viran edilib.

## İşğalçının qanlı əməlləri

Zaman-zaman olduğu kimi, 1987-ci ilin sonlarında yenidən ortaya atılmış qondarma Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda və Qarabağın dağlıq hissəsində yaşayan yüz minlərlə azərbaycanlının öz doğma yurdlarından zorən qovulmasına yönəlmişdi. Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən xalqımız azadlıq hərəkatına başlayaraq, Bakının küçələrinə və meydanlarına çıxıb etirazını bildirirdi. Amma 1990-cı il yanvarın 20-nə keçən gecə sovet ordusu millətimizin azadlıq eşqini, haqq səsini boğmaq üçün geniş xalq kütləsinə qarşı hərbi əməliyyatlara başladı. Sovet ordusunun xüsusi təyinatlı bölmələrinin və daxili qoşunların Bakıya yeridilməsi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. 1990-cı ilin yanvarında Bakı və respublikanın digər yaşayış məntəqələrində sovet ordusunun təcavüzü nəticəsində 147 nəfər insan amansızcasına öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu.

Erməni faşizminin qanlı əməlləri bununla da yekunlaşmadı. Tarixi torpaqlarımıza qarşı işğalçılıq siyasəti aparan Ermənistan Qarabağın dağlıq hissəsində və ətraf rayonlarda yaşayan yüzminlərlə insanı öz yurdundan didərgin saldı. 1992-ci ilin 26 fevralında Xocalı sakinlərini dünyada misli görünməmiş qətliama, soyqırıma məruz qoydu. Bu qırğının nəticəsində 613 günahsız insan xüsusi amansızlıqla qətlə yetirildi. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i yaşlılar olub. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Həmçinin 487 nəfər ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Faciədən sonra əsir götürülən azərbaycanlılar amansız işgəncələrə məruz qalıblar.

Bütün bu dəhşətli hadisələr tarixə ermənilər tərəfindən törədilən vəhşiliklər, vandalizm, terrorçuluq kimi yazılıb. Mənfurlar daim xislətlərindəki hiyləgərlik, riyakarlıq, namərdlik, zalımlıq kimi insanlığa yaraşmayan xüsusiyyətlərinə xas davranaraq günahsız insanlarımızı hədəf seçiblər. Dəhşətlisi də budur ki, faşist ideologiyalı ermənilər xalqımıza qarşı törətdikləri bu dəhşətli əməlləri ilə daim öyünüb, körpələri, qocaları, qadınları öldürməklə, xüsusilə də qəddarcasına, insan ağlına sığmayan işgəncələrlə həyatlarına son qoymaqla fəxr ediblər. Hətta əcnəbi KİV-ə verdikləri müsahibələrində, qələmə aldıqları yazılarında bu iyrənc əməllərini dünyaya bəyan etməkdən də ar etməyiblər.

Məşhur britaniyalı jurnalist, "Qara bağ" kitabının müəllifi Tomas de Vaalın 2000-ci ildə sabiq Ermənistan prezidenti Serjik Sarkisyandan aldığı müsahibə ermənilərin sərgilədiyi iyrənc davranışa kiçik bir nümunədir: "Xocalı hadisələrinədək azərbaycanlılar elə bilirdilər ki, biz onlarla zarafat edirik. Onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyil. Biz bu anlayışa (stereotipə) son qoyduq".

S.Sarkisyan tərəfindən səsləndirilən elə bu qandondurucu sözlərdən də aydın olur ki, erməni faşistləri hər zaman düşünüblər ki, Azərbaycan xalqına qarşı bu cür vəhşiliklər törədərək onların gözlərini qorxudacaq, tarixi torpaqlarımızın ermənilər tərəfindən zəbtinə göz yumduracaqlar...

Amma bu vəhşi tayfanın qaniçən "başbilənləri" yanılırdılar və 44 günlük Vətən müharibəsi zamanı başlarından aldıqları "dəmir yumruq" zərbəsi ilə xam xəyallardan ayrılaraq "Qarabağ Azərbaycandır!" reallığını qəbul etməyə məcbur oldular...

## Erməni faşizmi əbədi məhvə məhkum edilib

27 sentyabr 2020-ci ildə ölkəmizə qarşı yenidən təxribata əl atan Ermənistan silahlı qüvvələri elə həmin gündən etibarən hərb meydanında duruş gətirə bilməyərək Azərbaycanın qarşısından biabırcasına qaçmağa başladılar. Düşmənə sarsıdıcı zərbə vuraraq sürətlə torpaqlarını işğaldan azad edən Azərbaycan Ordusu Ermənistan hakimiyyətini atəşkəs üçün yalvarmağa məcbur etdi. Döyüşlər başlayandan sonra vasitəçi dövlətlərin köməyi ilə Azərbaycanla Ermənistan arasında üç dəfə humanitar atəşkəs əldə edildi. Amma dövlət siyasəti terrora köklənmiş Ermənistan yalvarışları sayəsində razılaşdırılıb elan edilmiş humanitar atəşkəs rejimlərini də özü kobudcasına pozaraq gecə-gündüz yaşayış məntəqələrimizi atəşə tutdu. Vandal erməni silahlıları həm cəbhəboyu rayon və kəndlərimizi, həm də cəbhə zonasından uzaq məsafədə yerləşən şəhərlərimizi ağır artilleriya və raket atəşinə məruz qoyur, nəticədə arasında azyaşlıların, qoca və qadınların da olduğu mülki şəxslər yaralanır, həlak olur, evlər və sosial obyektlər dağıdılırdı.

Körpə uşaq qatili olan ermənilərdən fərqli olaraq, Azərbaycan tərəfi ləyaqətlə davranaraq, heç bir müharibə cinayəti törətmədi, mülki əhalini hədəf seçməyərək, düşməndən qisasını döyüş meydanında aldı.

2020-ci ilin 10 noyabrında yüz illərdir xalqımızın qanına susayan faşist ideologiyalı erməniləri kapitulyasiya aktına imza atmağa, Azərbaycanın qarşısında diz çökərək yalvarmağa məcbur edərək, soyqırımına, qətliama düçar olan bütün soydaşlarımızın, Vətənin müdafiəsinə qalxaraq gözünü belə qırpmadan bu torpaqların uğrunda canını fəda edən şəhidlərimizin qisasını aldıq.

Xalqımız heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmayacaq. Bu mənfur tayfanın qatil üzvlərinin xalqımıza qarşı törətdikləri faciələr qan yaddaşımızdır.

İndi də erməni faşizmi baş qaldırmağa çalışır, lakin onların bütün bu cəhdləri uğursuz və əbəsdir. Çünki Azərbaycan xalqı özünün yüksək əzmi, gücü və qətiyyəti ilə erməni faşizmini əbədi məhvə məhkum edib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***





# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR



## Soyqırımı cinayətləri unudulmayacaq



**Tarix həmişə mühafizəkar olub - hadisə və faktlar itib-batmayıb, qərinələrlə yaddaşlardan-yaddaşlara köçüb, əbədiləşib. Xalqın tarixə hesabatı kimi nailiyyətləri də, zəfərləri də, xalqın azadlığına, müstəqilliyinə yönəlmiş cinayətlər də, bu və ya digər miqyasda törədilmiş soyqırımlar da, müharibələr də, müharibələrin nəticəsi olan ölümlər də, dağıntılar da heç zaman yaddaşlardan silinmir.**

Tarix ermənilərin Azərbaycana, azərbaycanlılara qarşı törətdiklərini də unutmayıb, unutmayacaq. 1905-1907-ci illərdə, 1918-1920-ci illərdə, 1948-1953-cü illərdə, 1988-1989-cu illərdə ermənilərin törətdiyi soyqırımlar da unudulmayacaq. Təkcə tarix kimi deyil, həm də bəşəriyyətə haqqa, ədalətə düşmən kəsilənləri ideoloji kursu bəşərilik, dünyəvilik olan dövlətlərə, bu dövlətlərin əhalisinə tanıtmaq üçün qəddarlığı, vəhşiliyi, soyqırımını törədənlərin etirafı üçün.

Tədqiqatçılar müəyyənləşdiriblər ki, 1917-ci ilin əvvəllərindən 1918-ci ilin martına kimi İrəvan quberniyasında azərbaycanlılar yaşayan 199 kənd tamamilə dağıdılıb. Bəs dağıdılan kəndlərin əhalisi necə olub? Bu məntiqi suala məntiqi cavab belə olacaq: öldürülüb, özü də qəddarlıqla, vəhşiliklə.

Arxiv sənədləri tarixdir. Bu tarixsə deyir ki, 1918-ci il noyabrın 22-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədovun Azərbaycan Cümhuriyyəti Ədliyyə Nazirliyinə Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlı kəndlərinin talan edilməsi, müsəlman əhalisi üzərində ermənilərin zorakılıqları haqqında məruzəsində qeyd edilir ki, "Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər arasında 7 cild, 925 vərəqdən ibarət təhqiqat işlərində toplanmış materiallar ermənilərin burada törətdikləri cinayətlər, erməni rəzaləti haqqında ətraflı məlumat verir. Burada toplanan yüzlərlə zərərçəkmiş və şahid ifadələri, dindirmə protokolları ermənilər tərəfindən yandırılmış, dağıdılmış tikili, mədəniyyət abidələrinə baxış protokolları, aktlar, siyahılar və digər sənədlər ermənilərin Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlılar yaşayan kəndlərində törətdikləri vəhşilikləri əyani şəkildə ifşa edir". Bu sənəd ermənilərin yüz dörd il əvvəl törətdiyi qırğınların tarixidir. Bu tarix erməniliyin mahiyyətinin nə olduğunu bir daha təsdiqləyir.

Ermənilərin Şamaxı şəhərində və ətraf kəndlərdə mütəşəkkilliklə vəhşiliklər, qırğınlar törətməsi bir neçə gün davam edib. Ermənilərin Şamaxı şəhərinə iki hücumu olub. Maraqlıdır: niyə iki dəfə? Görünür, birinci hücumun nəticələri onların ideoloqlarını, rəhbərlərini qane etməyib. İki hücum nəticəsində Şamaxıda bir neçə min azərbaycanlı qətlə yetirilib.

Quba qırğınları mahiyyəti etibarilə Şamaxı qırğınlarının davamı, törədilmə üsullarına görə isə o qırğınların eynisi olub. Hamazaspın silahlı dəstəsi Quba istiqamətində gedən yol boyu qarşılarına çıxan kəndləri dağıdır, əhalisini vəhşiliklə qırırdı. Törətdiklərini xalqına görə qəhrəmanlıq bilən bu bəşəri qatil xalqının qəhrəmanı olduğunu bildirir, sinəsinə döyərək deyirdi ki, dənizdən Şahdağa kimi bütün müsəlmanları məhv etməliyəm, onların da evlərini Şamaxıda olduğu kimi tamamilə dağıtmalıyam.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ölkədə siyasi vəziyyəti əsaslı şəkildə dəyişdi. Yeni dövlət xalqın dövləti idi və bu dövlət xalqı bütün təhdidlərdən qətiyyətlə müdafiə edirdi. Azərbaycanın dövlətçilik dayağı olan milli qüvvələr Osmanlı dövlətinin hərbi yardımı ilə işğal edilmiş ərazilərimizi və Bakı şəhərini bolşevik-daşnak hakimiyyətindən azad etməyə səfərbər olundu. Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu sentyabrın 15-də Bakını bolşevik-daşnak qüvvələrindən azad etdi.

1918-ci ildə Xalq Cümhuriyyətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının bir ildə apardığı araşdırmalar əsasında hazırladığı sənədlər azərbaycanlıların soyqırımı tarixinin bir hissəsidir. Xalq Cümhuriyyətinin ilhaq edilməsi bu komissiyanın işini də yarıda qoydu.

1998-ci ildə böyük tarixi şəxsiyyət Heydər Əliyev tarixə işıq salan sənəd - "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzaladı. Bu fərmanla 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi təsis edildi. Böyük siyasi və xəlqi-milli əhəmiyyəti olan bu fərman müxtəlif vaxtlarda, müxtəlif motivasiyalarla azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların, görünməmiş vəhşiliklərlə həyata keçirilmiş soyqırımların siyasi mahiyyətini ümumiləşdirən sənəddir. Fərmanda 1905-1907-ci illərdə, 1918-1920-ci illərdə, 1948-1953-cü illərdə, 1988-1989-cu illərdə erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi qırğınların, düşmənçilik siyasətinin tarixi kökləri şərh edilir ki, bu da beynəlxalq ictimaiyyətin dünyəvi proseslərə bəşəri münasibətini də formalaşdırır.

Ötən əsrin 80-ci illərinin sonunda Ermənistan Azərbaycana qarşı elan etmədən müharibəyə başladı. İmperiyanın dəstəyindən bəhrələnən Ermənistan təkcə Qarabağda deyil, sərhəd rayonlarında kəndlərə hücumlar edir, qırğınlar törədirdi. İşğalçılar tərəfindən Bağanıs Ayrım, Meşəli, Ağdaban, Qaradağlı faciələrinin törədilməsi xalqımıza qarşı həyata keçirilən növbəti soyqırımı cinayətidir. 1992-ci ildə Xocalıda XX əsrin ən dəhşətli soyqırımlarından biri törədildi. Həmin gecə 613 nəfər xüsusi amansızlıqla öldürüldü, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərdən birini itirdi, 8 ailə tamamilə məhv edildi.

31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür. Heç birimiz olmuşları unutmayacağıq. Hər bir azərbaycanlı bu günün mahiyyətini böyük vətəndaşlıq məsuliyyəti ilə dərk edir.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

## 1918-ci ilin mart ayının son günü...

Faciələrlə, müsibətlərlə dolu günlərin başlanğıcı oldu 1918-ci ilin 31 martı. O gün Bakı şəhərində açılan atəş aylarla davam edəcək qırğınların ilk səsinə, sədasına çevrildi. Bolşevik-daşnak hərbi birləşmələrinin 1918-ci ilin mart ayının son günündə azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı yalnız bu şəhərlə məhdudlaşmadı.

Çünki o gün Bakıda törədilmiş faciələr ermənilərin qəddar "Daşnaksütyun" partiyası və imperiya yaratmaq niyyətində olan bolşevik hökuməti rəhbərlərinin uzun müddətdir qurduqları planın ilk addımı idi. Bu dəhşətli planın reallaşdırılması üçün uzun müddət hazırlıqlar görülmüş, yaxşı silahlandırılmış bolşevik-daşnak hərbi birləşmələri Bakıya gətirilmişdi. 1918-ci ildə törədilmiş Bakı soyqırımının təşkilatçısı və rəhbəri Bakı Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyan idi...

### Amansızlıqla hazırlanmış soyqırımı planı...

Tarixçilərin məlumatına görə, Bakıda soyqırımı planı hələ 1917-ci ildən "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası tərəfindən hazırlanıb. Onlar dəfələrlə müsəlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik ediblər. Erməni daşnaklarının məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini məhv etmək idi.

1918-ci il martın 17-də həlak olmuş Hacı Zeynalabidin Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsini müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik bir dəstəsi Bakıya gətirdi. Dəfn mərasimindən sonra müsəlman dəstəsi "Evelina" gəmisi ilə Lənkərana geri dönməli idi. Ancaq gəminin körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər müsəlman dəstəsinin tərk-silah olunmasını tələb etdi. Müsəlman dəstəsi rədd cavabı verdi. Bolşeviklər onları tüfəng və pulemyotlardan atəşə tutdular.

Martın 29-da heyəti müsəlmanlardan ibarət "Evelina" gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən tərk-silah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Səhəri gün şəhərin cənub hissəsində görünən erməni əsgərləri bütün küçələrdə səngərlər qazmağa, torpaq və daşlardan bəndlər qurmağa başladılar. Müsəlman xeyriyyə cəmiyyətinin binasında həmin gün keçirilən yığıncaqda iştirak edən Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyants müsəlman əhalini aldatdı. O, əgər müsəlmanlar bolşeviklərə qarşı çıxış etsələr, ermənilərin də onlara qoşulacaqlarını, bolşeviklərin Bakıdan qovulmasına kömək edəcəklərini Erməni Milli Şurası və "Daşnaksütyun" partiyası adından bəyan etdi.

Martın 31-də sübhdən şəhərin müsəlmanlar yaşayan hissəsinə hücumlar başladı. Hələ hücum ərəfəsində bütün ermənilər şəhərin müsəlmanlar yaşayan hissəsindən ermənilər yaşayan hissəsinə keçmişdilər.

Soyqırımın həyata keçirilməsinə rəhbərlik edən Stepan Şaumyan yazırdı: "Bizim ordumuza açılan ilk atəşdən istifadə edərək biz bütün cəbhəboyu hücuma keçdik... Bizim 6 minə yaxın silahlı dəstəmiz vardı. "Daşnaksütyun"ların da bizim tabeliyimizə verilmiş 3-4 minə yaxın milli ordusu vardı. Döyüş soyqırımı formasını almışdı, ancaq bundan qaçmaq mümkün deyildi. Biz buna bilərəkdən getdik. Bakını ələ almasaydıq, o Azərbaycanın paytaxtı elan ediləcəkdi".

### Mart soyqırımının məzarsız şəhidləri...

Daşnak-erməni birləşmələri Bakının böyük hissəsini xarabalığa çevirdilər. Azərbaycanın misilsiz milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələrini dağıtdılar, od vurub yandırdılar.

Nəriman Nərimanov hadisələri belə təsvir edirdi: "Müsəlmanlara hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaklardan canlarını qurtara bilmədilər". N.Nərimanov yazırdı ki, T.Əmirovun və S.Lalayevin əvvəllər Bakıda olan silahlı dəstələri yaşına və cinsinə məhəl qoymadan bütün azərbaycanlıları öldürdülər: "Onlar hələ dünyada görünməmiş bir cinayət törətdilər, uşaqları süngü və qılıncdan keçirir, adamları məscidə toplayıb kerosin töküb yandırırdılar. Mənim üçün aydın oldu ki, Bakıda sovet hakimiyyəti daşnaklardan asılıdır".

O faciəli günlərin şahidi olmuş alman A.Y.Kluqe bildirirdi ki, ermənilər müsəlman məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdı. Ermənilər nə uşaqlara acımış, nə də yaşlılara rəhm etmişdilər. Bolşevik-daşnak dəstələri qətlə yetirdikləri şəxslərə bir məzarı belə qıymırdılar. Azərbaycanlılara qətlə yetirilmiş doğmalarını, yaxınlarını dəfn etməyə imkan vermirdilər. Azğınlaşmış dəstələr cəsədləri yanan binalara, quyulara, dənizə atırdılar.

"Nikolay Buniatov" paroxodu komandirinin köməkçisi Kazım Axundov Nikolayev küçəsindəki meyitləri yığışdırmağa başladıqlarını yazıb: "Onların arasında süngülərlə didik-didik edilmiş və qılıncla tikə-tikə doğranmış 3 müsəlman gimnaziyaçısının, 11 gimnaziyaçı qızın, 1 rus qadının, 3-5 yaşlarında 3 müsəlman oğlan uşağının, 8 rus kişinin, 19 İran təbəəli müsəlman qadınının və müxtəlif peşə sahibləri olan 67 azərbaycanlının meyitləri var idi. Bundan başqa, "Vulkan" cəmiyyətinin köhnə yanalma körpüsünə müsəlman kişilərin, qadın və uşaqların 6748 meyiti gətirilmişdi".

Menşeviklərin "Naş qolos" qəzeti həmin günləri belə təsvir edirdi: "Hər tərəf meyitlərlə doludur - yanıb kül olmuş, doğranmış, eybəcər hala salınmış meyitlər..."

### Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin qurbanların sayını gizlətmək cəhdləri...

Azərbaycanlıların 1918-ci ilin martın 31-dən başlayan müsibəti sonrakı günlərdə də davam etdirildi. Bakıda təkcə bir həftə ərzində əksəriyyəti dinc sakin olmaqla, 12 mindən çox insan vəhşicəsinə öldürüldü. Soyqırımı törədənlər onun izlərini də tarixdən silməyə səy göstərdilər. Bakıda hakimiyyəti ələ almış Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti qurbanların dəqiq sayının hesablanmasına imkan vermədi. Amma buna istədikləri şəkildə nail ola bilmədilər...

İranın Bakıdakı konsulu Məhəmməd Səid-ol Vesarə Marağeyinin bildirdiyinə görə, təkcə onun yaratdığı xüsusi komissiya tərəfindən Bakının küçə və həyətlərindən 5000-dən çox müsəlmanın meyiti toplanıb dəfn edildi.

Britaniyanın briqada generalı R.Qortonun Londona göndərdiyi 1918-ci il 8 dekabr tarixli sənəddə 20 min, Fövqəladə İstintaq Komissiyasının sənədlərində 30 min, Azərbaycan Respublikası Milli Məclisinin nəşr etdiyi kitabda isə 50 mindən çox müsəlmanın soyqırımına məruz qaldığı bildirilib.

1919-cu ildə Üzeyir bəy Hacıbəyli Mart soyqırımının ildönümü ilə bağlı "31 Mart" adlı məqaləsində yazıb: "Bugünkü vəzifəmiz o qara günləri yaddan çıxarmamaq və buna görə də həmişə və hər an hər şeyə hazır olmalıyıq. Borcumuz bu vətəni gələcəkdə hər cür təcavüzdən qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır". Bu məqalənin qələmə alınmasından bir əsrdən çox vaxt keçib. Ancaq Üzeyir bəyin yazdıqları öz əhəmiyyətini saxlayır.

Aradan uzun zaman keçsə də, yalnız bir millətin deyil, bütün insanlığın faciəsinə çevrilmiş Mart soyqırımı unudulmur. Azərbaycan XX əsrin sonuncu onilliyində yenidən müstəqilliyinə qovuşduqdan sonra xalqımızın tarixi keçmişi həqiqət müstəvisində araşdırılmasına, uzun illər gizli saxlanılan gerçəklərin, təhrif edilmiş faktların üzə çıxarılmasına başlanıldı. 1998-ci il 26 mart tarixində Azərbaycan Prezidenti Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzaladı. Fərmanda bildirildi ki, Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarlarını məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Azərbaycan xalqına qarşı törədilmiş ən qanlı cinayət

Soyqırımı cinayəti beynəlxalq hüquq dövriyyəsinə yalnız keçən əsrin ortalarında daxil olmuşdur. 1941-ci ilin dekabr ayında Böyük Britaniyanın Baş naziri Uinston Çörçilin radiodakı çıxışında "adı olmayan cinayət" adlandırdığı soyqırımı 1948-ci ildə müvafiq konvensiyanın qəbul edilməsindən sonra beynəlxalq hüquq leksikonunda vətəndaşlıq statusu əldə etmişdir.

1944-cü ilə qədər "soyqırımı" anlayışı ictimaiyyətə bəlli olmamışdır. Bu xüsusi termin hər hansı insan qrupuna qarşı onların məhv edilməsi məqsədilə törədilən cinayət əməllərinin ifadəsidir. İlk dəfə 1944-cü ildə ABŞ-ın Müdafiə Nazirliyində müşavir vəzifəsində çalışan yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin Vaşinqtonda nəşr etdiyi "İşğal olunmuş Avropada faşist idarəetməsi" kitabında yəhudilərin faşistlər tərəfindən kütləvi məhv edilməsi siyasətini ifadə edən yeni termin işlətdi. O, yunan dilində genos - "nəsil, kök, soy" sözü ilə latın dilindən caedo - "öldürürəm" sözlərinin birləşməsindən "genosid" (soyqırım) terminini ictimaiyyətə təklif etdi. Hüquqi konsepsiya olaraq "soyqırımı" terminini təklif edən Lemkin onu belə əsaslandırırdı ki, soyqırımı - müəyyən insan qruplarının mövcudluğunun vacib əsaslarını məhv etməyə yönəlmiş müxtəlif cinayətkar hərəkətlərin koordinasiya olunaraq planlı şəkildə həyata keçirilməsidir.

Bir ildən sonra Nürnberq beynəlxalq hərbi tribunalı faşist liderlərini "bəşəriyyət əleyhinə cinayətlərdə" ittiham etmişdi. Nürnberq beynəlxalq hərbi tribunalının ittiham aktında "soyqırımı" anlayışı hüquqi termin kimi deyil, təsviri ifadə kimi işlədilmiş, nəticədə tribunalın Nizamnaməsində soyqırımı öz əksini tapmamışdır.

Bu gün böyük təəssüf hissi və ürək ağrısı ilə qeyd edirik ki, dünyanın soyqırımına məruz qalan az sayda xalqları sırasında Azərbaycan xalqı da var. XIX əsrdən başlayaraq şovinist imperiyaların himayəçiliyi ilə ermənilər tərəfindən azərbaycanlılara və Azərbaycana qarşı törədilən hərəkətlər məhz soyqırımı kimi qiymətləndirilməlidir. XX əsrin faciəsi olan Xocalı soyqırımı bu aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. Ötən yüzilliyin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı amansızlığına görə ötən əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada yer alır.

Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına hüquqi-siyasi qiymət vermişdir.

Azərbaycanın və azərbaycanlıların üzləşdiyi bu faciələr ilk dəfə Heydər Əliyev tərəfindən imzalanmış 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə siyasi qiymətini almışdı. İlk dəfə Heydər Əliyevin fərmanı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir. 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi torpaqlarının zəbti başlandı. Qısa müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi.

1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirən ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerləyeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, bununla özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı.

Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və başqa bölgələrimizdə xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmışdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılmışdı. 1919 və 1920-ci ilin mart ayının 31-də iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə onlar bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün ermənilər SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 1950-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri gücləndirildi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəllərində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olundu, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırımı qurbanları kimi qələmə verildi.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 1980-ci illərin ortalarında daha da güclənən anti-Azərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən başlayan əsassız Qarabağ münaqişəsi, Azərbaycan ərazilərində tüğyan edən erməni irticası və bu irticanın qurbanı olan günahsız Azərbaycan əhalisinin acı iztirabları təəssüf ki, keçmiş SSRİ rəhbərliyinin və sivil dünyanın biganə sükutu ilə qarşılandı. Belə vəziyyətdən ruhlanan və istifadə edən ermənilər azərbaycanlılara qarşı soyqırımı siyasətini və misli görünməmiş tarixi cinayətlərini bir-birinin ardınca həyata keçirməyə müvəffəq oldular. Yüzlərlə yaşayış məskəni, minlərlə mədəniyyət, təhsil və səhiyyə müəssisəsi, tarix-mədəniyyət abidələri, məscidlər, müqəddəs sitayiş yerləri, qəbiristanlıqlar yerləyeksan edilərək misli görünməmiş erməni vandalizminə məruz qaldı.

Münaqişənin ilk illərində Qarabağın azərbaycanlılar yaşayan Kərkicahan, Meşəli, Quşçular, Qaradağlı, Ağdaban və digər kəndlərində erməni silahlı quldurlarının törətdikləri faciələr, nəhayət, Xocalı soyqırımı "məzlum və əzabkeş erməni" vicdanında əbədi qara ləkə kimi yaşayacaq tarixi cinayətlərdir.

Hazırda bu soyqırımı aktını törədənlərin ifşa olunması və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasının Parlamenti də bu sahədə mühüm addımlar atmışdır. Belə ki, Milli Məclis Xocalı soyqırımı ilə bağlı hüquqi görüşlərini müxtəlif vəsilələrlə ifadə etmiş və bu gün də etməkdədir. Bu bir həqiqətdir ki, ölkəmizin parlamentində Xocalı soyqırımının tanınması və Xocalıda baş vermiş erməni vandalizminin mahiyyəti barədə indiyədək kifayət qədər normativ-hüquqi sənədlər, müraciət və bəyanatlar qəbul edilmiş, eyni zamanda soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınması üçün çoxsaylı təbliğat tədbirləri həyata keçirilmişdir.

Azərbaycan xalqı tarix boyu üzləşdiyi bütün faciələrə, çətinliklərə və haqsızlıqlara baxmayaraq, özünün müstəqillik əzmini qoruyub saxlamış, möhkəm iradə, yenilməz birlik və həmrəylik nümayiş etdirmiş, xüsusilə son 19 ildə ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin gücünün, qüdrətinin daha da artmasına nail olmuşdur.

Soyqırıma qiymət verilməsi siyasi aksiya olmaqla yanaşı, həm də hüquqi məsələdir. Bu mövzu hüquq ictimaiyyəti tərəfindən bir daha araşdırılmalı və ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımın beynəlxalq hüquqi qiymət almasına istiqamətlənmiş tədbirlərdə daim səsləndirilməlidir. Bu baxımdan dövlət və qeyri-hökumət təşkilatlarının bu istiqamətdə razılaşdırılmış fəaliyyət planının hazırlanması və həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda bu, hər bir azərbaycanlını düşündürən və düşündürməli olan ümummilli məsələdir. Nəzərə almaq lazımdır ki, soyqırımı - hər hansı milli, etnik, irqi, dini insan qrupuna yönəlməsindən asılı olmayaraq, insanlıq məfhumuna qarşı olan ağır cinayətdir. Cinayətə qarşı mübarizə aparmaq isə hər bir bəşər övladının borcudur.

2020-ci il sentyabrın 27-dən başlayaraq Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Milli Ordumuz Ermənistanın hərbi təcavüzünə cavab olaraq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasını 44 gün ərzində darmadağın etdi. Azərbaycan 30 il davam edən işğala son qoyaraq öz ərazi bütövlüyünü bərpa etdi.

Xalqımızın əldə etdiyi bu tarixi qələbə Azərbaycanın bütün şəhidlərinin ruhlarını şad etdi. Dövlət başçımızın dediyi kimi, biz şəhidlərimizin qisasını düşməndən döyüş meydanında aldıq. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Nəticədə bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin zəfər çalmasını şərtləndirdi.

***Adil VƏLİYEV,***
***Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent***



# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR



**“Biz öz məqsədlərinə nail olmaq üçün heç bir vasitədən çəkinməyən siyasi düşmənlərimizə bənzəyə bilmərik və bənzəmək istəmirik. Biz təmkin və soyuqqanlılıqla, haqlı olduğumuzu tam dərk edərək təmiz vicdanla öz məqsədimizə doğru gedirik və inanırıq ki, ətrafımızda olan bütün xalqlara münasibətdə bizim loyallığımız, səmimiliyimiz və sadəliyimiz kin və eqoist ehtirasların gözlərini gerçəkliyə qapamadığı hər kəs tərəfindən nəhayət ki, etiraf olunacaq və qiymətləndiriləcək. Fakt göz qabağındadır. Kim istəyirsə, yoxlaya bilər”.**

***“Azərbaycan” qəzeti, 8 dekabr 1918-ci il***








# Günahsız qurbanların harayı

## Quba Soyqırımı Memorial Kompleksi 104 il öncə baş verən erməni vandalizmini sübuta yetirən ideoloji və tarixi mərkəzdir

104 il öncə Azərbaycan xalqına qarşı törədilən kütləvi qətliamlardan birini - martın 31-də azərbaycanlılara qarşı törədilmiş soyqırımını dünyaya təqdim edən Quba Soyqırımı Memorial Kompleksinin girişindəki lövhədə bu ifadələr yer alıb. Bu kütləvi məzarlıqdakı insan sümüklərindən ibarət qalıqlar tarix üçün reallıq və göz qabağında olan inkaredilməz faktlardır.

İllər ötdükcə bu soyqırımının şahidlərinin sayı da azalır və bu gün bəlkə də onlar barmaqla sayıla bilinəcək qədərdirlər. Amma tarix və faktlar, sübutlar dəyişmir, köhnəlmir. Bu səbəbdən də hər ötən il, keçən ildəkindən daha ciddi, daha dolğun, əhatəli faktlarla başımıza gətirilən müsibətləri, qətliamları dünyaya təqdim etməliyik. Qoy, bəşəriyyət hüquqi qiymət verməsə də, haqlı ilə haqsızı ayırsın, əsl günahkarları tanısın.

### İki quyudan tapılan 400-dən çox insan cəsədi

Qubadayıq. Qudyalçayın sol sahilində yerləşən Quba Soyqırımı Memorial Kompleksi buraya təşrif buyuranları heyrətə gətirir. Ətrafda olan incəliklərə nəzər salıb dərk etmək üçün bəlkə saatlar da yetməz. Üzərində yeridiyimiz torpaq da sanki başqalaşır. İnsan torpağın üzərində gəzərkən qeyri-ixtiyari ehtiyatlı olmağa çalışır .

Kompleksin məhz burada salınması da təsadüfi olmayıb. Keçmiş stadion olan bu ərazidə 2007-ci ildə tikinti məqsədilə aparılan qazıntılar zamanı kütləvi məzarlıq aşkar edilib. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun tədqiqatlarından sonra məzarlığın 1918-ci ildə erməni quldur dəstələrinin yerli əhaliyə qarşı törətdiyi soyqırımı ilə əlaqəli olduğu müəyyən edilib.

Araşdırmalar zamanı bəlli olub ki, 2 quyudan tapılan 400-dən çox qurban həmin yerdə əbədi uyuyub. Onların xatirəsinə qoyulan abidənin üzərində yazılıb: “1918-ci ildə Qubada cinayətkar erməni hərbi dəstələri tərəfindən törədilmiş soyqırımı qurbanları burada dəfn olunub”.

Abidənin qarşısında günahsız yerə qanları tökülən vətəndaşlarımıza rəhmət diləyib, sonra qarşı tərəfə irəliləyirik. Müxtəlif ölçülü qara mərmər daşların qoyulduğu hissə “Alma bağı” adlanır. Daşlar faciə qurbanlarının 3 yaş qrupunu - kiçik, orta və yaşlıları simvolizə edir. “Alma bağı” adlandırılmasına səbəb isə mərmərlərin qədimdən bəri Qubanın simvolu olan alma ağacları ilə əhatələnməsidir.

### Soyqırımın vəhşətini əks etdirən muzey

Soyqırımı muzeyinin giriş hissəsi iki qılıncı əks etdirir. Bu isə o mənanı kəsb edir ki, erməni ideologiyası hər nə qədər “həqiqətlər gizlədilməlidir” fikrinin üzərində qurulsa da, gerçəklik gec-tez üzə çıxır.

Giriş hissə sivriuclu bıçaqların yerə saplanması ilə başlayır. Bir anda hər şey qaranlığa qərq olur. Nə olduğunu anlamadan bizə bələdçilik edən kompleksin əməkdaşı Abutalib Turabov qeyd edir ki, girişdə özünüzü sanki qaranlığa qərq olurmuş kimi hiss etməyiniz normaldır. Soyqırımının vəhşətini andıran muzey belə üslubda müxtəlif hisslərin toplusunu eyni anda yaşamaq üçün inşa edilib.

Tanışlığa mənəvi soyuqluq və qaranlığın yoldaşlığı ilə aşağıya doğru istiqamətlənən hissədən başlayırıq. Əvvəlcə divarda soyqırımından öncə Quba qəzasında yaşayan əhalinin həyatını əks etdirən şəkillərin işıqlandırıldığını görürük. Bunların hər biri 1918-ci ilə qədər əhalinin evindən toplanıb arxivlərdə saxlanılanlar arasından seçilib. Qədim Qubanı (ekspozisiya “Dinc Quba” adlanır) təkrar yaşadan təsvirlərdə məşhur tarixi yerlərin Quba Bazar meydanı, Cümə məscidinin fotolarını ilk sıralarda müşahidə edirik.

Daha sonra milli adətləri özündə ehtiva edən çörək bişirən, xalça toxuyan xanımlar, yeni-yeni formalaşmağa başlayan məktəblər, mədəniyyətə aid nümunələr şəkilbəşəkil hər bir dəyərin gələn ziyarətçiyə aşılanmasında əsas rol oynayır. Adını tarixə yazdıran qubalılardan olan Məmmədəli bəy, Hacı İsmayıl bəy kimi şəxslərin xeyirxahlıqları, əvəzolunmaz işləri bu cərgədə əbədiləşdirilib. Burada Qubanın etnik qrupların sayına görə xüsusi multikultural bölgələrdən biri olmasının şahidinə çevrilirik.















Cığırla muzeyin yeraltı hissəsinə doğru enirik. Qaranlıq yolun ardından böyük bir zal açılır. Zalda AXC-nin 23 aylıq fəaliyyətini əsk etdirən sənədlər diqqətimizi çəkir. Bəlli olur ki, 31 mart hadisələrinin, eləcə də digər cinayətlərin tədqiqatları üçün Fövqəladə Təhqiqat Komissiyası yaradılıb. Məhz həmin komissiyanın əldə etdiyi bütün sənədlər, dəlillər kompaktlaşdırılaraq hər bir bölmədə yerləşdirilib. İlk olaraq da komissiyanın əməyinin daim uca tutulması məqsədilə zalın girişində Fətəli xan Xoyskinin, Məmməd Həsən Hacınskinin, Xəlil bəy Xasməmmədovun portretləri, M.Hacınskinin hökumətə komissiyanın yaradılması ilə bağlı məruzəsi və verilən qərarın əsllərindən surətlər və s. yer alıb.

Növbəti ekspozisiyada 31 Mart soyqırımı törədilən bölgələrin xüsusi qırmızı nişanlarla işarələnmiş Azərbaycanın 1920-ci ilə qədərki xəritəsi yerləşdirilib.

Abutalib Turabov bildirir ki, xəritə orijinal formada götürüldüyü kimi saxlanılıb:

“Xəritə Sankt-Peterburqun arxivindən əldə olunan şəkildə saxlanılır, rus dilindədir. Bunun səbəbi isə odur ki, hər hansı inkar faktı qeydə alındığı zaman heç bir bəhanəsiz onun doğruluğunu sübuta yetirmək asanlıqla mümkün olsun. Onu da deyim ki, həmişə xarici ziyarətçilərə qəlb ağrısı ilə işğal olunmuş torpaqlarımızı təqdim edirdim. Ancaq indi hər kəsə öncə həmin ərazilərdən böyük iftixarla danışıram”. Sonrakı lövhələrdə isə Azərbaycanın tarixi haqqında qısa məlumatlar 4 dildə (Azərbaycan, rus, türk, ingilis), Ümumilli Lider Heydər Əliyevin şəkli və “31 Mart Azərbaycanlıların soyqırımı” günü haqqında verdiyi 1998-ci il fərmanı (Azərbaycan, rus, ingilis dilində) əksini tapıb.

### Uşaqların kəllələrinə sancılan mismarlar

Mərkəzdən solda muzey qalereyasının bütöv bir divarı Quba qəzasına həsr edilmiş 4 bölmədəki ekspozisiyalarla əhatələnib.

Birinci bölmədə inzibati ərazi vahidi olan Qubanın 1918-ci ildəki vəziyyəti əks olunub. Yeri gəlmişkən, Quba qəzası (Quba, Qusar, Şabran, Xaçmaz, Siyəzən) 1929-cu ilə qədər mövcud olub. Buradakı xəritədə yalnız Quba qəzasında baş verən qırğınların ümumi miqyası göstərilib. Xəritəyə nəzər saldıqda aydın görmək olar ki, hər bir kənddə dağıntılar, talanlar edilib. Aparılmış təhqiqatlar nəticəsində sübut olunub ki, bu hadisələr 167 kənddə baş verib.

Növbəti, ikinci hissədə Quba qəzasının 1918-ci ilə qədərki əhalisinin yaşayışı haqqında geniş məlumat verilib. Burada həmin vaxtlarda müxtəlif etnik qruplardan olan sakinlərin - tatlar, ləzgilər, qrızlar, buduqlar, avarlar, yəhudilər və rusların yaşadıqları müəyyən edilib. Ermənilərin isə əhalinin yalnız 0,76 faizini təşkil etdiyi qeyd edilib. Həmçinin guşədə müxtəlif millətlərin fotoşəkilləri də əks olunub.

Üçüncü bölmədə Fövqəladə Təhqiqat Komissiyasının Quba qəzasında törədilmiş soyqırımı ilə bağlı topladığı faktların qısa icmalına, sənədlər və hadisələrin canlı şahidlərinin fotoşəkillərinə, dindirilmə protokollarına yer verilib.

Nəhayət, sonuncu - dördüncü hissədə Quba qəzasının müdafiəçilərindən olan Ə.Zizikski, H.Əfəndizadə, Ş.Əfəndizadə, M.İbrahimov və başqaları haqqında məlumat və fotoşəkillər, şiddətli döyüşlərdə qan gölünə çevrilmiş “Qanlı dərə” adlanan ərazinin görüntüsü nümayiş etdirilir.

İrəliləyirik. Növbəti ekspozisiyada 1919-cu ildə Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətindən Ə.Topçubaşov, Y.Mehdiyev, C.Hacıbəyli, Ə.Şeyxülislamovun fotoları, eləcə də AXC-nin sərhədlərini göstərən Qafqazın tarixi xəritələri yer alıb. Nümayəndə heyəti Azərbaycanı müstəqil dövlət kimi tanıtmaqla yanaşı, xalqına qarşı 1918-ci ildə baş verən cinayətləri dünya ictimayyətinə çatdırmaq üçün soyqırımı ilə bağlı fakt materiallarını da Fransaya aparıbmış. Uzun müddətdən sonra Bakıdan Parisə göndərilən bütün materiallar tarix elmləri doktoru, professor Solmaz Tohidi tərəfindən 2011-ci ildə Fransada Topçubaşovun şəxsi arxivindən tapılaraq vətənə qaytarılıb. Burada isə həmin sənədlərin surətləri yerləşdirilib.

Maraqlı faktlara, tarixi sənədlərə tamaşa etdikcə sanki keçmişə ekskurs edirsən. Kompleksin hər guşəsi, hər eksponatı çox maraq kəsb edir. Bu sırada diqqətimizi daha çox çəkən isə uzaqdan böyük tabloya oxşayan əsər olur. Möhtəşəm üslubu ilə təəccübə səbəb olan tabloya yaxınlaşdıqca daha da heyrətli mənzərəsi üzə çıxır. Əslində, bu, hər hansısa qələm, fırça ilə çəkilən nəhəng bir rəsm əsəri deyil. Bu, dəmirin üzərində ərsəyə gətirilən simalardır. Burada gənclərin, yaşlıların simaları ilə dolu müxtəlif baxışlar əks olunub. Gənc baxışlarda təəccüb, heyrət, qorxu sezilsə də, yaşlı nəsilə aid olan çöhrələrdə kin, kədər, ağrı dolu hisslər göz önündə canlanır.

Sıradakı ekspozisiyada isə mart qırğınlarının rəhbərləri və icraçılarının adları (S.Şaumyan, Hamazasp, Korqanov, Mikoyan və b.), onların həyata keçirdiyi soyqırımı siyasətinin mahiyyəti haqqında məlumat verilir. Həmçinin bu guşədə ermənilərin həmin vaxtda istifadə etdikləri soyuq, odlu silahlar və toplu məzarlıqdan aşkar edilən zəncirlər, mismarlar nümayiş etdirilir. İnsanları öldürdükdən sonra belə əl çəkməyib onları dəhşətli işgəncələrlə zəncirləmiş, uşaqların kəllə sümüklərinə mismarlar çalmışdılar.

Qubaya aid bölmə yekunlaşdıqdan sonra Bakı quberniyası qəzaları mövzusu davam edir. Artıq burada həmin qəzalarda törədilmiş qırğınlar, əldə olunan dəlillər, fotolar və s. əks olunur. Cavad qəzası ilə başlayan ekspozisiyada qəza və əhalinin tərkibi haqqında məlumat, 1918-ci ilin mart-iyun aylarına qədər ermənilər tərəfindən müsəlmanlara qarşı baş vermiş soyqırımı, süngülərə keçirilmiş, xəncərlə doğranmış, başları kəsilmiş və yandırılmış insanların aqibətləri öz əksini tapıb. Burada portret şəkli qoyulan Süreyya xanımı görürük. O, gözünün önündə ana, ata və yoldaşının yandırılmasına şahidlik edənlərdən olub. Baş vermiş hadisələrin təfərrüatları da dindirilmə protokolunda qeyd edilib.

Sonrakı stenddə Göyçay qəzasından bəhs edilir. Ekspozisiyada qəzanın inzibati ərazisində əhalinin milli-dini tərkibi haqqında məlumat qeyd edilib. Abutalib Turabov bildirir ki, xüsusilə Göyçay ərazisində bir neçə dəmiryol stansiyasının olması erməni silahlı dəstələrinin bu bölgəyə hücumunu asanlaşdırmışdı: “1918-ci ilin iyunundan etibarən ermənilər daha da azğınlaşmış, kənd sakinlərinin burunlarını, qulaqlarını kəsmiş, kəllə sümüklərini sındırmışdılar”.

Şamaxı qəzası hissəsində də digər qəzalarda olduğu kimi, törədilən soyqırımları bir neçə gün davam edib, dini ocaqlar, həmçinin 8 əsrlik tarixi olan Şamaxı Cümə məscidi yandırılaraq dağıdılıb. Qeyd olunan bu faktlar fotosəkillərlə birlikdə ekspozisiyada nümayiş olunur.

Sonda Bakı quberniyasının qəzaları bölməsi Bakı qəzasına aid hissə ilə yekunlaşır. 31 Mart soyqırımının başladığı Bakı şəhərində həmin hadisələri şərtləndirən amillər və gedişat haqqında məlumat yerləşdirilib. Həmçinin 1918-ci ilin mart ayının 26-da “Evelina” gəmisinin azərbaycanlılardan ibarət əsas heyətinin tərk-silah olunması ilə bağlı təxribat onminlik bolşevik-erməni ordusunun müsəlman qırğınlarını həyata keçirməsi üçün bəhanə olduğu, şəhərin müsəlman əhalisinin 12 min nəfərinin 3 gün ərzində vəhşicəsinə qətlə yetirilməsi faktları əksini tapıb.

Bakının Təzəpir, Şah, Bibiheybət və digər məscidləri ,”Kaspi”, “Açıq söz” qəzetlərinin redaksiyaları, İskəndəriyyə, İslamiyyə mehmanxanalarının binaları dağıdılmış və yandırılmışdı. Ekspozisiyada bunların fotoşəkilləri yerləşdirilib. Baş verən soyqırımı Məhəmmədli, Əhmədli, Balaxanı, Zabrat, Sabunçu, Xırdalan və digər Bakı kəndlərində də törədilib.

### Pəncərədəki işıq, sivriuclu bıcaqlar, divar vitrinləri

Yeraltı muzey zalının kənarları qeyd olunan faktlarla çərçivələnib. Yerin altında olduğuna görə zala işıq düşmür. Fəqət mərkəzdə kiçik bir pəncərə var. O pəncərədəki işıq böyük qara mərmərin üzərini şəfəq dolu aləmin işartıları ilə aydınladır. Mərmər daşın üzərində təsvir olunan tikanlı məftil, əl, üz cizgiləri ağrılı günləri simvolizə edir.

Zalda görünən daha bir işıq var. Ancaq əvvəlcə yoxuşlu cığırla yuxarı qalxmaq lazımdır. Bu hissə kompleksin 3-cü, sonuncu hissədir. Sivriuclu bıçaqların yerə saplanması ilə başlayan yol elə həmin bıçaqların üzə çıxması ilə də sona çatır. Lakin bu yoxuşda da duyulan müxtəlif hisslərin müəllifləri divar vitrinləri olur.

Birinci vitrində ilk istiqamət göstərilir. Həqiqətə açılan qapının kilidi kimi aşkarlanmış kütləvi məzarlığın görüntülərinə yol alır. Sonrakı tablolarda törədilmiş soyqırımıları ilə əlaqədar dövrün ziyalılarının yazıları, həmçinin M.Ə.Rəsulzadənin, Ü.Hacıbəylinin “Azərbaycan” qəzetinin (1919-cu il 31 mart) 147-ci nömrəsində hadisələrə münasibət bildirən məqalə, şeir, şəkilli nüsxələrin surətləri nümayiş olunur.

Muzeyin axırıncı hissəsinə Qafqaz İslam Ordusuna həsr olunmuş ekspozisiyası ilə son qoyulur. Ordunun danılmaz şücaəti, qırğınların qarşısını almaq üçün gördüyü bir sıra tədbirləri, zabit və əsgərlərin fotoları, nəhayət, 1918-ci il sentyabrın 15-də Bakının azad edilməsi münasibətilə keçirilmiş hərbi yürüşdən görüntülər qələbə təbilini çalır. Bu zaman qarşıdakı işığı görərək qürurlu hisslərlə muzeydən çıxanda gözlər ən sondakı yazıya çevrilir:

***Ölənlərə rəhmət! Qalanlara ibrət! (“Azərbaycan” qəzeti, 31 mart 1919-cu il)***

### 3 dildə 16 adda buklet, kitabxana, oxu zalı, 1 milyondan çox ziyarətçi

Muzeylə tanışlığı yekunlaşdırıb Quba Soyqırımı Memorial Kompleksinin direktoru tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova ilə həmsöhbət olmaq üçün Məlumat Mərkəzinə üz tuturuq. Eyni zamanda bura ziyarətçilərin ilk gəldiyi məntəqədir. Onlar mərkəzdə kitabxana, oxu zalı, audiobələdçi və soyqırımı tarixi faktlarını əks etdirən üç dildə 16 adda buklet və kitablardan istifadə edə bilərlər.

Gələcək nəsillərin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyev 30 dekabr 2009-cu ildə sərəncam imzalayıb. Sərəncama müvafiq olaraq 2012-2013-cü illərdə Heydər Əliyev Fondunun dəstəyi ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi inşa edilib və 2013-cü il sentyabrın 18-də Prezidentin iştirakı ilə açılışı olub.

Hazırda Soyqırımı Memorial Kompleksi ölkəmizdə erməni azğınlığını əks etdirən yeganə ideoloji mərkəzdir. Kompleksin əsas missiyası həqiqətləri olduğu kimi həm yerli, həm də beynəlxalq səviyyədə təbliğ etməkdir. Kompleksi 2013-cü ildən bəri ümumilikdə 1 milyondan çox insan, o cümlədən dünyanın bir çox ölkələrindən nümayəndələr ziyarət ediblər.

Rəxşəndə Bayramova bildirdi ki, təbliğat və tanıtım işləri bir neçə istiqamətdə aparılır. Kompleksdə yerli və xarici ziyarətçilərin qəbulu, müxtəlif elmi konfrans, simpozium və seminarların keçirilməsi, hüzn və tarixi günlər, həmçinin bayram günləri ilə əlaqədar tədbirlər təşkil edilir. Bundan əlavə, kompleksin rəsmi veb-saytı və sosial şəbəkə səhifələrində müxtəlif dillərdə ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı hadisələri, mənfur planları, Qafqaza köçürülmələri ilə bağlı arxiv sənədləri, fotolar və digər tarixi məzmunlu kiçik məqalələr, videoçarxlar izləyicilərə təqdim edilir.

Kompleksə olan maraq və diqqət elə ziyarətçilərin sayından da bəlli olur. Rəxşəndə xanım deyir ki, ötən il ərzində bura gələnlərin mindən çoxu turist olmaqla, ümumilikdə 20 min ziyarətçi qəbul edilib. Gələn yerli və xarici ziyarətçilərə 4 dildə (Azərbaycan, rus, ingilis, ərəb) peşəkar bələdçilər tərəfindən 1918-ci il hadisələri haqqında ətraflı məlumat verilir. Kompleksə gəlməyə fürsət tapmayanlar muzeyə virtual ekskursiya, həmçinin sosial şəbəkələr üzərindən açılan canlı bağlantılarla onlayn səyahət edə və maariflənə bilərlər.

Necə deyərlər, tarixi haqqa qovuşmaq istəyənlərə hər şərait yaradılıb. Öyrənək, bilək və paylaşaraq öyrədək. Təki bütün həqiqətlər yerin dərinliklərindən gün işığı tək parlasın. Tarixin bütün dövrlərində xalqımıza qarşı törədilən erməni vandalizmi cəzasız qalmasın.

Quba Soyqırımı Memorial Kompleksi isə bu həqiqətləri işıq üzünə çıxaran, tarixi cinayəti sübuta yetirən ideoloji mərkəz, 50 minlik günahsız qurbanın harayını car çəkən, kəfənsiz yatanların ruhlarını azadlığa qovuşduran məkandır.

***Aydan XƏLİLOVA, “Azərbaycan”***

# Məktublar: problemlər, rəylər, təkliflər...






## Şəhid övladımın xatirəsi əbədiləşdirildiyinə görə minnətdaram

**44 günlük Vətən müharibəsində igidliklə vuruşanlar arasında mənim oğlum Rövşən Vəlixanov da var. 1994-cü il doğumlu Rövşənin Vətənə sonsuz sevgisi vardı. Hərbi xidmət dövründə ara-sıra evə gələndə ordumuzun gündən-günə gücləndiyini böyük fərəhlə söyləyərdi. Həmişə də bu sözü təkrarlayırdı: Ali Baş Komandanımız əmr versə, bir neçə günə işğal olunmuş torpaqlarımızı düşməndən azad etməyə qadirik.**



2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Azərbaycan Silahlı Qüvvələrinin tərkibində döyüşlərə qatıldı. Murovdağın düşməndən azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla iştirak etdi. Lakin oktyabrın 2-də eşitdik ki, Rövşən itkin düşüb. Dekabrın 18-də xəbər gəldi k, şəhid olub. Nəşini gətirib doğulub boya-başa çatdığı Qaraxanlı kənd qəbiristanlığında dəfn etdik.

Amma bu məktubu yazmaqda məqsədim başqadır. Rayonumuzda şəhidlərə və onların ailələrinə xüsusi diqqət və qayğıkeşlik göstərilir. Rayonda elə bir şəhid ailəsi yoxdur ki, bu diqqət və qayğıkeşlikdən kənarda qalsın. Onların adlarının əbədiləşdirilməsi üçün bir çox tədbirlər həyata keçirilir.

Mənim şəhid oğlumun da xatirəsini əbədiləşdirmək üçün adına bulaq kompleksi inşa edilmişdir. Bu yaxınlarda bulaq kompleksinin açılışı oldu. Rayonun bütün ictimaiyyəti açılışa toplaşmışdı. Çıxış edənlər oğlumun necə vətənpərvər olmasından danışdılar və belə bir oğul böyütdüyümüz üçün bizə minnətdarlıq etdilər. Onlar danışdıqca oğlumla qürur duyurdum.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Aydın VƏLİXANOV,***
***Tovuz rayonunun Qaraxanlı kənd sakini, şəhid atası***

## 53 yaşlı teatrın ikinci həyatı






**Sumqayıt Dövlət Dram teatrı 1968-ci ildə yaranıb. Bu günlər teatr həm milli teatr bayramını, həm də özünün ad gününü qeyd etmişdir. Sumqayıt Dövlət Dram Teatrı 73 yaşlı bir ömrün 50-dən artıq ilini özündə yaşadaraq mədəniyyət ocağı kimi mənəvi missiyanı yerinə yetirir.**

Sumqayıt sənaye şəhəridir. Şəhər salınarkən tikinti meydanında zavodlarla, binalarla birlikdə mədəniyyət ocaqlarının yaradılması da nəzərdə tutulmuşdu. Həmin mədəniyyət ocaqlarından biri də Sumqayıt Dövlət Dram Teatrı (həmin dövrdə o, H.Ərəblinskinin adını daşıyırdı) idi.

Amma üstündən xeyli zaman keçməsinə baxmayaraq, Sumqayıt Dövlət Dram Teatrının binası əsaslı təmir edilməmişdi. İstilik sistemi köhnəlmiş binada normal qaydada tamaşaların məşqini belə aparmaq mümkün deyildi.

Ölkə rəhbərinin tapşırığı ilə bu binada təmir işlərinə start verildi. Əsaslı təmir və yenidənqurma tədbirləri zamanı binanın bütün mühəndis-texniki qurğuları tamamilə yenidən quruldu. Binanın 500 yerlik tamaşa və 100 yerlik akt salonu müasir avadanlıqla təchiz olundu. Burada tamaşaları bədii və texniki cəhətdən yüksək səviyyədə təqdim etmək üçün 360 dərəcə hərəkət edən səhnə, müasir akustika, işıqlandırma sistemləri və digər avadanlıqlar quraşdırıldı.

Teatrın interyerinin daha cəlbedici görünməsi üçün milli memarlıq ənənələrindən geniş istifadə olunub. Binanın bütün xidməti, dekorasiya və qrim otaqları müasir üslubda tərtib edilib, mebellər tətbiqi sənətin qədim növü olan oyma üsulu ilə işlənib. Teatrın köhnə parket döşəməsi sökülərək monolit dəmir-beton plitələrlə əvəzlənib, binadakı sütunlar isə mərmərlə üzlənib. Beləliklə, teatr binası tam şəkildə təmir edilərək sumqayıtlıların öhdəsinə verilib.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın mədəniyyət sahəsinə qayğıkeşliyi nəticəsində bu gün sumqayıtlılar normal şəraitdə tamaşa izləyə bilirlər. Son bir neçə ildə teatrın repertuarı da genişlənib. Dünya ədəbiyyatı nümunələrindən, yerli yazarların əsərlərindən hazırlanan maraqlı tamaşalar qapıları bağlı qalmış teatrı bu gün tamaşaçı nəfəsi ilə isidir.

A.Şaiqin "Qaraca qız", M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah", Con Qolsuorsinin "Birincilər və sonuncular", 44 günlük Vətən müharibəsini əks etdirən silsilə tamaşalar , C.Cabbarlının "Solğun çiçəklər", ərəb xalq nağılı "Əlibaba və qırx quldur", C.Patrikin "Qarını öldürməliyik" və digərləri böyüklü-kiçikli sumqayıtlıların sevərək izlədikləri tamaşalardır. 70 yaşlı şəhərimizə həsr edilən Əli Əmirlinin "Sevgilim Sumqayıt" tamaşası bu bayrama bir töhfə oldu. Sumqayıtın zəhmətkeş insanları, qurub-yaradan gənclik və müxtəlif talelər əsərdə geniş yer alıb. Keçən ilin əvvəlindən başlayaraq pandemiya qaydalarına uyğun kollektiv teatrın binasının qarşısında, parklarda, təhsil müəssisələrində, ictimaiyyətin sıx toplaşdığı məkanlarda tamaşalar göstərmişdir.

Bu gün Sumqayıt teatrı öz yeni həyatını yaşayır. Hələ neçə illər bu mədəniyyət ocağı tamaşalarla hamını sevindirəcək.

***Mübariz HƏMİDOV,***
***Əməkdar artist***

## AZƏRBAYCAN-a cavab verirlər

### "Baş Plan"da nəzərdə tutulan tədbirlər sayəsində tıxac problemləri böyük miqyasda həllini tapacaq"

**Qəzetimizdə dərc olunmuş "Bakının boğazında tıxac olmuş tıxac problemi" məqaləsi ilə bağlı Bakı Nəqliyyat Agentliyi redaksiyamıza məktub göndərmişdir. Məktubda yazılır:**

"Sizin "Bakının boğazında tıxac olmuş tıxac problemi" sərlövhəli məqalədə qaldırılmış problemlərin aradan qaldırılması barədə ünvanladığınız məktubunuza aidiyyəti üzrə Bakı Nəqliyyat Agentliyində baxılmışdır.

...Yeni avtomobil yollarının çəkilməməsi, küçə-yol şəbəkəsinin genişləndirilməsi barədə qeyd edək ki, paytaxtın əsas arterial yollarında, eləcə də mühüm nəqliyyat qovşaqlarında hərəkətin optimallaşdırılması və nəqliyyat sıxlığının aradan qaldırılması üçün Bakı şəhərinin 2020-2040-cı illər üzrə perspektiv Baş Planında müvafiq tədbirlərin görülməsi, yeni avtomobil yollarının inşa edilməsi kimi tədbirlər nəzərdə tutulur. Baş Planda nəzərdə tutulan yeni radial və dairəvi yolların inşası nəticəsində şəhər mərkəzi daxil olmaqla, 20 Yanvar, 3-cü mikrorayon dairələrində, eləcə də məqalədə qeyd olunan digər yol sahələrində tıxac problemləri böyük miqyasda öz həllini tapacaqdır.

Agentlik paytaxtda parklanma yerlərinin təşkili və idarə olunması məqsədilə bu sahədə ixtisaslaşmış beynəlxalq konsultasiya şirkəti ilə əməkdaşlıq etməkdədir. Hazırlanan layihədə 4 mərhələdən ibarət yol xəritəsinə uyğun olaraq Bakı şəhərində ümumi parklanma vəziyyəti araşdırılaraq müvafiq məlumatlar toplanmış və təhlil olunmuşdur. Yekun olaraq Bakı şəhərində parklanmanın təşkili üzrə Konsepsiya hazırlanmışdır. Demoqrafik, sosial-iqtisadi, texnoloji, ətraf mühit amillərinin nəzərə alınacağı Konsepsiyaya uyğun olaraq şəhər ərazisi zonalara bölünmüşdür. Konsepsiyada hər zonaya fərdi yanaşma tətbiq olunması nəzərdə tutulur. Qiymət siyasəti, bazarın tələblərinə cavab verən modelin ortaya qoyulması, hamı üçün əlçatanlığın təmin olması və ən əsası şəffaf idarəetmənin təşkili Konsepsiyanın əsas hədəflərindəndir. Hədəfə nail olunması üçün innovativ həllərin tətbiqi nəzərdə tutulub. Müasir ödəniş metodları, ağıllı nəqliyyat sistemləri, parkinq yerlərinin axtarışı, ağıllı və dəyişən tariflər, təhlükəsizlik və mühafizə Konsepsiyada əksini tapan əsas məsələlərdəndir. Artıq hazırlanmış Konsepsiya razılaşdırılması üşün aidiyyəti qurumlara göndərilmişdir".

### "Əlaqədar qurumlar qarşısında məsələ qaldırılmışdır"

**Redaksiyamıza Neftçala Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Şaiq Məmmədovun imzası ilə cavab məktubu daxil olmuşdur. Məktubda bildirilir:**

"Azərbaycan" qəzeti redaksiyasından Neftçala Rayon İcra Hakimiyyətinə daxil olmuş məktuba baxılmışdır.

Qəzetin 5 dekabr 2021-ci il tarixli 264 (8857) sayında dərc edilmiş "Dərdimiz yolsuzluqdur" sərlövhəli məqalədə qeyd olunan rayonun Qaçaqkənd-Qırmızıkənd-Xolqarabucaq-Xəzər kənd avtomobil yolu ilə bağlı bildiririk ki, həmin yolda cari təmir işləri aparılsa da, problemin tam aradan qaldırılmasına nail olunmamışdır. Bu məqsədlə Neftçala Rayon İcra Hakimiyyəti olaraq tərəfimizdən əlaqədar qurumlar qarşısında məsələ qaldırılmış, adıçəkilən avtomobil yolunun əsaslı təmiri Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına daxil edilməsi üçün zəruri tədbirlər görülmüşdür. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində vəsait ayrılacağı təqdirdə yolun əsaslı təmiri işlərinə başlanılacaqdır".

## Şəkərli diabet xəstələri nə vaxtadək dərman gözləməlidirlər

**Artıq neçə aydır ki, respublikada şəkərli diabet xəstələri onlara pulsuz verilməli olan dərmanlarını ala bilmirlər. Bu məsələ Binəqədi rayonunda daha acınacaqlı hal alıb.**



Belə ki, imkansız yaşlı xəstələr dərman qəbul etmədikləri üçün səhhətlərində yaranan problemlərlə bağlı tez-tez təcili yardıma müraciət etməli olur, bəzən də yatağa düşürlər. Hətta dərman üzündən həkimlərlə xəstələr arasında mübahisələr düşür. Həkimlər: "Bizi niyə qınayırsız, gedin Səhiyyə Nazirliyinə müraciət edin", - deyirlər.

Yeri gəlmişkən qeyd edək ki, dəfələrlə Səhiyyə Nazirliyinə sözügedən problemlə bağlı müraciətlər etmişik, amma aydın bir cavab ala bilmirik.

Burada belə bir haqlı sual yaranır: əgər şəkərli diabet dərmanları ölkəyə gətirilmirsə, bəs niyə şəhər apteklərində həmin dərmanların məhdudiyyətsiz satışı var?

***B.İMANQULUOĞLU,***
***Bakı şəhəri,***
***Binəqədi rayonunun sakini***

## Kəndimizin körpüyə ehtiyacı var

**Qaraçay çayı Goranboyun Murovdağ silsiləsinin ətəyində yerləşən Zeyvə kəndini iki hissəyə ayırır. Çayda su az olduqda kənd sakinləri çayın o biri tayına avtomobillə keçə bilirlər. Çayda su aşıb-daşanda isə ümid qalır sınıq-salxaq körpüyə.**



Hətta bir neçə dəfə kənd sakinlərinin qoyun-quzusu çaya düşüb. İnsanların oradan keçməsi isə olduqca təhlükəlidir. Bu körpünü kənd camaatı əlinə keçən dəmir parçaları ilə birtəhər düzəldib. O üzdən bir neçə dəfə körpünü (əgər buna körpü demək mümkündürsə) sel suları yuyub aparıb. Dəfələrlə aidiyyəti qurumlara şikayət etsək də, bizə kömək edən tapılmır. Zeyvə kənd icra nümayəndəsi İnqilab Aslanova müraciət edəndə isə deyir ki, problemlə bağlı Meliorasiya və Su Təsərrüfatı ASC-yə müraciət etmişik, nəticəsi yoxdur.

Hörmətli redaksiya! Bəlkə bu işdə siz bizə kömək edəsiniz.

***Sevda ƏBİLOVA,***
***Goranboy rayonunun Zeyvə kənd sakini***

## 35-ə yaxın dağ kəndinin əhalisi avtobussuz qalıb

**Otuz il Lerik rayonunun Daster ərazisinə işləmiş marşrut avtobusu yoxa çıxmışdır. Bu səbəbdən də camaat bir yerə çıxanda böyük əziyyətlə üzləşir.**

17 kilometr məsafəni birləşdirən Hamarat-Piran yolu düz Dasterin mərkəzindən keçir. 4 il bundan əvvəl yola asfalt döşəndiyi üçün çox rahatdır. Əvvəllər 2 saata qət olunan yol hazırda 30 dəqiqəyə gedilir. Əhalinin rahatlığına görə dövlət tərəfindən buraya 11 milyondan artıq vəsait sərf olunub. Amma ictimai nəqliyyat işləmədiyi üçün avtomobili olmayanlar bu rahatlıqdan istifadə edə bilmirlər.

Kənd sakinləri deyirlər ki, sovet dağılan kimi marşrut avtobusunu əlimizdən aldılar. Onda yolumuz o qədər də rahat deyildi. Amma avtobusun işləməsi camaatı razı salırdı. İndi qalmışıq ara sürücülərin əlində. Bir yerə çıxa bilmirik, çıxanda da yolpulunu yüksək deyirlər.

Hələlik problemi həll edən tapılmır. Tapılarsa, 35-ə yaxın dağ kəndinin camaatının nəqliyyat problemi həll edilmiş olar.

***Zəfər ORUCOĞLU,***
***Lerik rayonu***

## Texniki qaydalar gözlənilməlidir





**Sumqayıt respublikamızın ikinci böyük sənaye şəhəridir. Son illər şəhərimiz daha da inkişaf edib və burada insanların yaşaması, çalışması üçün hər şərait yaradılıb.**

Şəhər, əsasən, mikrorayon və məhəllələrdən ibarətdir. Həmin yaşayış massivlərinin hər birində on minlərlə əhali yaşayır.

Şəhərdə yeni tikilən hündürmərtəbəli binaların sayı da artmaqdadır. Hazırda bizim binanın yaxınlığında bir hündürmərtəbəli tikilir.

Bu günlər binanın yaxınlığından keçəndə minik maşınımın üstünə nəyinsə töküldüyünü gördüm. Bu, binanın fasadında suvaq işləri aparan işçilərin təhlükəsizlik qaydalarına riayət etməməsi nəticəsində aşağı tökülən yaş qum və sement qarışığı idi. İşçilərə iradımı bildirdim. Üzr istəyib bir də belə halın olmayacağını dedilər. Amma bir neçə gün sonra yenə də eyni mənzərə ilə üzləşdim. Görünür, belə hallarla qarşılaşmamaq üçün daha ciddi tədbirlər görmək lazımdır. Bu isə əlaqədar qurumların vəzifəsidir.

***Ramiz İBRAHİMOV,***
***Sumqayıt şəhəri***

## Binamızın zirzəmisi zibilxanaya dönüb









**Yaşadığım Binəqədi rayonunun Biləcəri qəsəbəsi, 5057/68 məhəllə, 10-cu binanın zirzəmisində yaranmış vəziyyət bir sakin kimi məni çox narahat edir. Binanın ətrafının zibillə dolu olması bir dərd, zirzəminin zibilliyə çevrilməsi başqa bir dərddir.**

**Hörmətli redaksiya!**

Kənar şəxslər zirzəminin açıq qalmış nəfəsliyi vasitəsilə əllərinə keçən zibilləri ora daşıyırlar. Binanın zirzəmisinin uzun müddətdən bəri zibilxanaya dönməsi barədə rayon mənzil kommunal idarəsinə dəfələrlə məlumat vermişik. Xeyli vaxtdan sonra nəhayət gəlib oranı özünə məskən edənləri zirzəmidən qovsalar da, "sakinlər" yenidən qayıdıblar.

Bloku bürüyən üfunət iyi sakinlərin narazılığına səbəb olur. Yaranmış vəziyyət bina sakinləri, xüsusən də azyaşlı uşaqlar və qadınlar üçün təhlükə yaradır. Hava qaralandan sonra o istiqamətdən qorxa-qorxa keçirlər.

Xahiş edirik ki, aidiyyəti orqanlar tərəfindən zirzəminin təmizlənməsi və orada məskən salanlar barədə tədbir görülsün.

***Teymur QASIMOV,***
***Binəqədi rayonunun Biləcəri qəsəbəsi***

# ADA Universiteti Birləşmiş Ərəb Əmirliklərində keçirilən "Ali Təhsil İdarəçiləri Forumu"nda təmsil olunub

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Ali Təhsil İdarəçiləri Forumu (Higher Education Leadership Forum) keçirilib. Forumun mövzusu "COVID-19-dan sonra ali təhsilin yeni istiqamətləri: tələblərə və tələbata cavab verən ali təhsil ekosistemi" idi (Re-inventing Higher Education Post-COVID-19 - Towards a Responsive Higher Education Eco-System).

Forum 50 ölkədən 400 nəfərdən çox dinləyici, 40 nəfərə yaxın təqdimatçının iştirakı ilə çıxış, debat və "dəyirmi masa" müzakirələri əsasında təşkil edilib. Forumda ADA Universiteti də təmsil olunub. Universitetin akademik işlər üzrə prorektoru Vəfa Kazdal forumun yekunlarına dair fikirlərini AZƏRTAC ilə bölüşüb.

Prorektor bildirib ki, forumda təmsil olunmağımızın iki səbəbi var idi: birinci səbəb ADA Universitetinin ali təhsildə mükəmməllik mükafatı üzrə 90-dan artıq müraciət edənlər arasından seçilən üç namizəd universitetdən biri olması idi. Digər iki universitet Pakistanın Ağa Xan Universiteti və İspaniyanın dünya reytinqlərində yüksək yerlərdən birini tutan Barselona Universiteti idi. İkinci səbəb isə ADA Universitetinin hibrid təhsil ilə bağlı əldə etdiyi təcrübəni və bu istiqamət üzrə nəzərdə tutduğu növbəti hədəflərini beynəlxalq təhsil müəssisələri ilə bölüşmək idi.

Forumda ali təhsil sahəsi ilə bağlı ən aktual suallar səsləndirildi, verilən cavablar isə olduqca maraqlı, mühüm və konkret idi. Əminəm ki, bütün bu suallar və cavablar bizim ali təhsil ocaqları, həmçinin tələbələrimiz və onların valideynləri üçün çox maraqlı olacaqdır.

Forumda aparılan müzakirələr və əldə edilən nəticələr onu göstərdi ki, pandemiya ilə əlaqədar ali təhsildə baş verəcək dəyişikliklərlə bağlı miflər özünü doğrultmadı. Miflər ondan ibarət idi ki, pandemiya şəraiti ali təhsil sistemini radikal şəkildə dəyişdirəcək, kampuslar əhəmiyyətini itirəcək və ali təhsilin relevantlığı azalacaqdır.

Əvvəla, ondan başlayaq ki, pandemiya təhsil sahəsində inqilaba deyil, təkamülə səbəb oldu. Baş verən dəyişiklikləri, xüsusilə də texnoloji tərəqqi və əmək bazarında olan prioritetləri nəzərə alsaq, görərik ki, ali təhsil öz məqsədində yeni baxış yaradaraq özünü tamamilə yeniləmir, daha çox təkmilləşmə prosesindən keçir. Bu hər zaman belə olub. Cəmiyyət, iqtisadiyyat inkişaf edib dəyişdikcə, ekosistemin bir hissəsi olan təhsil də ekosistemlə bir vahidlik təşkil etmək üçün daima dəyişib təkmilləşir. Hətta təqdimatçılardan biri təhsil səviyyələri arasında bir bütövlük və bağlılığın yaradılması məqsədilə ekosistemə orta məktəblərin də daxil olmasının nə qədər vacib olduğunu vurğuladı.

Forumun ən maraqlı hissələrindən biri pandemiyadan sonra ali təhsilin relevantlığına dair debat oldu. Debatın moderator və çıxışçıları Amerika Birləşmiş Ştatları, Avropa, Cənubi Afrika, Şimali Kipr və Qətər kimi ölkələrin ali təhsil və ali təhsil assosiasiyalarında fəaliyyət göstərən, təhsil siyasətini formalaşdırıb inkişaf etdirən qərarverici şəxslər idi.

Bu debat zamanı əldə olunan nəticələr onu göstərdi ki, pandemiya şəraitində ali təhsil sahəsinin relevantlığı və mahiyyəti daha da qabarıq şəkildə ortaya çıxdı. Bu dövrdə ərsəyə gələn startaplar, COVID-19, eləcə də təhsil sahəsi ilə bağlı aparılan tədqiqatlar, bunların fonunda irəli sürülən təkliflər və yeniliklər ali təhsilin vaciblik və müvafiqliyinin daimi olacağının göstəricisidir.

Debatla paralel olaraq forum iştirakçıları arasında mövzu ilə bağlı interaktiv sorğu da aparılırdı. Birinci sual universitetlərin başlıca məqsədlərinin nədən ibarət olması idi. Universitetlərin ən vacib vəzifəsinin yeni sosial institutlar olaraq fəaliyyət göstərməsi və burada dəyərlərin formalaşdırılması ən çox səs toplayan cavab oldu. İkinci ən çox səs toplayan cavab isə yeni sosial era üçün insanları bir araya gətirmək və təlimləndirmək idi. Əgər bunlar universitetlərin əsas məqsədləridirsə, onda əminliklə deyə bilərik ki, ali təhsil müəssisələrinin mövcudluğu hər zaman öz aktuallığını qoruyub saxlayacaqdır. Buna görə də ali təhsil müəssisələri yeniliklərə açıq olmalı, təkmilləşməli, eyni zamanda gənclərə müasir dövrün tələblərinə uyğun özlərini inkişaf etdirmək və potensial bacarıqlarını reallışdırmaq imkanları yaratmalıdır.

Bu baxımdan kampuslar hər zaman öyrənmə və formalaşma prosesinin mühüm bir komponenti kimi mövcud olmaqdadır. Lakin kampusların mövcud olma məqsədi dəyişməkdədir. Onlar bilik mərkəzlərindən (knowledge-hub) sosial mərkəzlərə (social hub) çevrilməkdədir. Belə ki, kampuslar sinif otağından daha çox sosiallaşma, əməkdaşlıq, axtarış, yaradıcılıq və eksperiment üçün açıq laboratoriya və məkan olmalıdır. Məhz bu cür kampuslara nümunə kimi sosial mərkəz konsepsiyası üzərində dizayn olunan, gələcəyə yönəlik ADA kampus modelini göstərə bilərik. Hətta bu konsepsiya ADA Universitetinin genişlənməsi ilə bağlı strateji planlarında da öz əksini tapıb. Ümumiyyətlə, ADA Universiteti dizaynla bağlı istər hazırkı, istərsə də gələcək strategiyalarında hər zaman sinif otaqlarından çox geniş əməkdaşlıq və sosiallaşma məkanlarının qurulmasına önəm verir.

Təhsilin bilik komponenti artıq virtual kampuslara keçərək onu hibridləşdirir və beləliklə, təlim prosesinin səmərəliliyini artırıb zənginləşdirir. Üstünlük "flipped" dərslərə və daha çox praktikaya əsaslanan, komanda şəklində aparılan kampus təcrübələrinə verilməlidir. Onu da qeyd etmək lazımdır ki, kampusda olan mühazirə dərslərinin onlayn şəkildə keçirilməsi heç də yenilik hesab olunmur. Bu, sadəcə olaraq, bir platformadan digər platformaya keçiddir. Lakin texnologiya və pedaqogikanı gücləndirmək, öyrənənlərin marağını artırmaq, öyrənmə imkanlarını genişləndirmək - bu, yenilikdir. Bununla bağlı auditoriya belə bir sual ünvanladı: "Universitetlərin relevantlığının artırılması üçün yeniliyə daha çox harada ehtiyac var: öyrənmə və öyrətmə, innovasiya, tədqiqat və ya sosial fəaliyyətlər sahəsində?" Demək olar ki, səslərin çoxu ilk iki təklif arasında bərabər şəkildə bölüşdü.

Auditoriyanın təəccübünə səbəb olan məqamlardan biri tədqiqat komponentinin az səs toplamağı idi, çünki innovasiya və tədqiqat artıq bir anlayış kimi qəbul edilir. İnnovasiya, demək olar, tədqiqatın nəticəsidir, belə ki, ən çox yenilik öyrənmə və öyrətmə prosesində ortaya çıxır. Öyrənmə və öyrətmə mühiti innovasiya ilə nəticələnən, startaplara gətirib çıxaran zəncirvarı ardıcıllıqla yaradılmalıdır.

Doğrudan da, sürətlə dəyişən dünyada öyrənmə və öyrətməyə yanaşmada ciddi dəyişikliklər baş verməlidir. Forumda tələbyönümlü təhsil məsələsinə dəfələrlə toxunuldu. Tələbyönümlü təhsildə tələbənin maraq, ehtiyac və məsuliyyətini artıran yanaşma özünü göstərir, yəni tələbə təhsil prosesinin cavabdehlik daşıyan iştirakçısına çevrilir. Dözümlülük (resilience) və çeviklik (agility) ən çox qeyd edilən və zamanın tələb edilən bacarıqları oldu. Forum boyunca bu iki bacarığı təhsilalanlara aşılamağın əhəmiyyəti ətrafında müzakirələr aparıldı. Bununla bağlı maraqlı suallardan biri o oldu ki, universitet məzunları əmək bazarına daxil olanda onlarda ən çox çatışmayan bacarıqlar hansılardır? Ən çox səsləndirilən cavablar bunlar idi: insani bacarıqlar (human skills) - tənqidi təfəkkür, problemi həlletmə, yaradıcı yanaşma və kommunikasiya, həmçinin biznes bacarıqları - datanın kommunikasiyası, layihə idarəetməsi, dizayn və innovasiya. Bu baxımdan dünya təcrübəsi, həmçinin ADA Universitetinin təhsil modelində olan bakalavr proqramlarının ümumi təhsil (general education) hissəsi öz əhəmiyyətini qoruyur və yuxarıda qeyd olunan bacarıqlar istiqamətində özünü daha da gücləndirməkdədir.

Belə ki, ali təhsil sahəsi hər zaman olduğu kimi və hətta deyə bilərik, daha da çox öz aktuallığını və mahiyyətini qoruyub saxlayır. Hibrid ali təhsil modeli texnologiya vasitəsilə təhsilin səmərililiyini və əlçatanlığını artırır, təhsilin beynəlmiləlləşməsi imkanlarını genişlədir və təhsilalanın tədris prosesində məsuliyyətini və cavabdehliyini yüksəldir. Bu modeldə kampus zəngin, əhatəli, sahibkarlıq bacarıqlarını formalaşdıran və inkişaf etdirən laboratoriya və sosiallaşma məkanıdır. Öyrənmə və öyrətmə yanaşmaları bu modelə müvafiq olaraq tənqidi təfəkkürün, yaradıcılıq, problemi həlletmə və sahibkarlıq kimi bacarıqların inkişafına yönəlməlidir.

Forumun ən son hissəsi isə "dəyirmi masa" müzakirələri idi. Bizim iştirak etdiyimiz müzakirənin mövzusu təhsil mərkəzləri və onların müasir tələblərə uyğun olub-olmamasına həsr olunmuşdu. Burada bir çox Orta Şərq ölkələrində illərdir fəaliyyət göstərən beynəlxalq universitetlərin filiallarının professor və idarəetmə heyəti bu məsələnin çətinliklərini müzakirə edirdi. Onlar əməkdaşlıq və tərəfdaşlıq modeli üzərində qurulan universitet modelinin daha dayanıqlı olduğunu xüsusilə vurğulayırdılar. Məhz bu səbəbdən illər əvvəl ADA Universitetinin qurulma dövründə belə müzakirələr əsnasında rektor Hafiz Paşayev uzaqgörənliyi ilə ADA-nın milli və qlobal universitet vizyonu ilə qurulmasını məqsədəuyğun hesab etmişdi.

◆ Dünya gündəmi

# 2,2 milyard insanın içməli suya çıxışı yoxdur

## BMT getdikcə daha da ağırlaşan qlobal su böhranı ilə mübarizə yollarını axtarır

Hər il mart ayında BMT-nin 1993-cü ildə təsis etdiyi Ümumdünya Su Ehtiyatları Günü keçirilir. Həmin gün bir daha şirin, içməli suyun əhəmiyyəti vurğulanır. Bu gün isə vəziyyət acınacaqlıdır. BMT-nin məlumatına görə, dünya əhalisinin, demək olar ki, yarısı su çatışmazlığından əziyyət çəkir.

Ekspertlərin qiymətləndirməsinə əsasən, hazırda dünyada 2,2 milyard insanın içməli suya çıxışı yoxdur. Hər il minlərlə insan təmiz su və sanitariya şəraiti olmadığına görə dünyasını dəyişir.

İçməli su çatışmazlığı iqlim dəyişikliyinin nəticələri, şirin su ekosistemlərinin çirklənməsi ilə əlaqədar su ehtiyatlarının azalmasına səbəb olan insan fəaliyyəti, həmçinin urbanizasiyanın və torpaqdan istifadədə dəyişikliklərin fəsadları ilə bağlıdır. Statistikaya görə, dünya əhalisinin, demək olar ki, 1/5 hissəsi təmiz içməli su qıtlığı müşahidə olunan rayonlarda yaşayır. Bundan başqa, əhalinin 1/4-i süxurlardan və çaylardan suyun alınması üçün zəruri infrastrukturun olmadığı inkişaf etməkdə olan ölkələrdə məskunlaşıb.

Əsas problemlərdən biri mövcud ehtiyatları əhəmiyyətli dərəcədə azaldan şirin suyun çirkləndirilməsidir. Bu çirkləndirməyə sənaye tullantıları və axınları, sahələrdən gübrələrin yuyulması, həmçinin qrunt sularının axıdılması səbəbindən sahil zonalarında duzlu suyun su qatlarına daxil olması şərait yaradır.

Məhz bu səbəblərə görə qlobal su böhranına qarşı mübarizə tədbirləri şon dərəcə vacibdir. Ümumdünya su ehtiyatları günü davamlı inkişaf sahəsində bu məqsədə nail olmaq üçün səylərin dəstəklənməsinə əsas diqqət yetirilir.

Bu il Ümumdünya Su Ehtiyatları Günündə BMT-nin dünyada su ehtiyatlarının vəziyyətinə dair hesabat məruzəsi, həmçinin bu sahədə direktiv xarakterli effektiv tədbirlər haqqında tövsiyələri təqdim edilib.

### Bütün diqqət görünməz resursa - süxur sularına yönəlməlidir

2022-ci ildə dünya əsas diqqətini torpaq, süxur sularına yönəldir. Bu, hər yerdə, istənilən sahədə əhəmiyyət daşıyan görünməz resursdur. Qrunt suları torpaq altında olan dağ süxurlarından, qumdan və çınqıldan ibarət, böyük həcmdə suya malik geoloji törəmələrdəki sudaşıyan horizontlarda yerləşən sudur. Əsasən yağış və qar şəklində yağıntıların torpağa süzülməsi ilə doldurulan yeraltı sular bulaqları, çayları, gölləri və bataqlıqları qidalandırır, habelə okeanlara süzülür. Qrunt suları nasoslar və quyular vasitəsilə səthə çıxarıla bilər.

Yeraltı sularsız həyat mümkün olmazdı. Dünyanın quraq rayonlarının əksəriyyəti tamamilə yeraltı sulardan asılıdır.

Süxur suları içmə, sanitariya, qida istehsalı və sənaye prosesləri üçün istifadə etdiyimiz suyun böyük bir hissəsini təmin edir. Onlar su-bataqlıq sahələri və çaylar kimi ekosistemlərin sağlam fəaliyyəti üçün də son dərəcə vacibdir.

Yeraltı suları həddindən artıq istismardan və çirklənmədən qorumaq lazımdır. Əks halda bu, resursların tükənməsinə və əlavə xərclərə səbəb ola bilər.

Yeraltı suların öyrənilməsi, qorunması və davamlı istifadəsi Yer kürəsinin artan əhalisinin ehtiyaclarına cavab verməsi və iqlim dəyişikliyi dövründə insanların yaşaması və uyğunlaşması üçün mərkəzi əhəmiyyətə malik olacaq.

### Beynəlxalq günün tarixçəsi

Bu beynəlxalq günün ideyası 1992-ci ildə Rio-de-Janeyroda BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransı keçirilərkən meydana gəlib. Elə həmin il BMT Baş Məclisinin qəbul etdiyi qətnamə 22 Mart tarixini Ümumdünya Su Ehtiyatları Günü elan edib. Daha sonra digər hadisələr əlavə edilib. Məsələn, 2013-cü ildə Beynəlxalq Su əməkdaşlığı ili və hazırda davam edən "Davamlı inkişaf üçün su, 2018-2028-ci illər "adlı beynəlxalq fəaliyyət onilliyi.

Bütün bu tədbirlər bir daha onu xatırlatmaq məqsədi daşıyır ki, su təchizatı və sanitariya sahəsində görülən işlər yoxsulluğun azaldılması, iqtisadi artım və ekoloji sabitlik üçün əsasdır. Suvarma üçün istifadə olunan bütün suyun təxminən 40 faizi sudaşıyan horizontlardan daxil olur.

Asiya-Sakit Okean regionu adambaşına düşən su təminatına görə ən aşağı göstəricilərə malikdir, eyni zamanda 2050-ci ilə qədər regionda yeraltı sulardan istifadənin 30 faiz artacağı proqnozlaşdırılır.

Şimali Amerika və Avropada nitratlar və pestisidlər yeraltı suların keyfiyyətinə böyük təhlükə yaradır: Avropa İttifaqının yeraltı su anbarlarının 20 faizi çirklənməyə görə standartlara cavab vermir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistan çıxılmaz durumdadır

## İnflyasiya 2 dəfə artaraq 8,5 faiz təşkil edəcək, iqtisadi göstəricilər isə 4 dəfə aşağı olacaq

Hazırda məğlub Ermənistan böyük problemlərlə üzləşməkdədir. Bunun bir səbəbi də son dövrlərdə dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənlik və çətinliklərin digər ölkələrlə müqayisədə Ermənistana daha çox dağıdıcı təsir göstərməsidir. Xüsusən də Rusiyada rublun kursunun aşağı düşməsi Ermənistan iqtisadiyyatı üçün böyük fəlakət sayılır.

Rusiyaya qarşı sanksiyalara görə nüfuzlu "Fitch Rating" Agentliyi Ermənistanın ÜDM-in artımı ilə bağlı proqnozunu 5,3 faizdən 1,3-ə endirib.

Qeyd olunur ki, yaxın aylarda Ermənistanda inflyasiya 8,5 faiz təşkil edəcək, Ermənistan Mərkəzi Bankı isə 4 faiz inflyasiya proqnozlaşdırır. Bildirilir ki, 2021-ci ilə kimi Ermənistanın ixracının 28 faizi, idxalının 37 faizi, turizm axınının, birbaşa xarici investisiyaların və pul köçürmələrinin 40 faizi Rusiyanın payına düşüb. Həmçinin proqnozlaşdırılır ki, pul köçürmələrində gözlənilən azalma ilə yanaşı, Ermənistanda ev təsərrüfatlarının istehlakı azalacaq və iqtisadi artıma mənfi təsir göstərəcək. Ermənistan iqtisadiyyatı üçün əhəmiyyətli risk xarici valyutada olan dövlət borcunun böyük payı, nisbətən zəif xarici maliyyə və geosiyasi risklərdir.

"Fitch" vurğulayıb ki, davam edən gərginliyə baxmayaraq, Azərbaycanla münasibətlər korlanmayıb və Rusiya sülhməramlıları atəşkəsi qorumaqda davam edirlər. Mümkün yeni hərbi əməliyyatların bərpası iqtisadi proqnozları daha da pisləşdirə bilər. Ukraynadakı vəziyyətin bank sistemi üçün də mənfi nəticələri olacaq. Xüsusilə "Fitch Ratings" hesab edir ki, Rusiyanın Ermənistan bank sektorunda iştirakı orta dərəcədə risk ehtiva edir. 2021-ci ilin birinci yarısında yeganə olaraq Rusiya bankı aktivlərin 5 faizinə sahib idi. 2022-ci ilin yanvar ayına bank sistemində depozitlərin 22 faizdən çoxu qeyri-rezidentlərin payına düşüb ki, bu da ÜDM-in 11,7 faizinə bərabərdir. Hazırda məhdud olan əmanətlərin böyük miqyasda xaricə çıxması riski var. Cari ilin yanvar ayı etibarilə problemli kredit nisbətinin 1,7 faiz olduğu qeyd edilir.

Maraqlıdır ki, "Fitch" Agentliyi əvvəlki hesabatlarında Rusiya üçün defolt proqnozlaşdırmışdı. Bu proqnoz Rusiya Maliyyə Nazirliyinin Rusiyadan gələn dollar istiqrazları üzrə faizləri rublla ödəməyə davam edəcəyini açıqlamasından sonra verilmişdi. Rusiya hökuməti 117 milyon dollarlıq istiqrazlar üçün 2022-ci il martın 16-da istiqrazlar üzrə faiz ödəməli idi. Bunu etməmək və ya dollar əvəzinə rublla ödəmək defoltun başlanğıcından xəbər verir.

Ermənistan Auditorlar Palatasının sədri Nairi Sarkisyan deyib ki, hökumət inflyasiyaya birbaşa təsir göstərir. Son inflyasiyanın böyük hissəsi hökumətin ehtiyatsız bəyanatları və hərəkətləri nəticəsində baş verib. O, qeyd edib ki, Ermənistanda həm mal, həm də pul bazarında spekulyasiya gedir və təbii olaraq bu inflyasiyaya birbaşa təsir göstərir.

İndiki vəziyyət tamamilə iflasa uğrayan Ermənistan üçün daha faciəvidir. Heç bir istehsalı olmayan, iqtisadiyyatı çökən ölkədə ümumi daxili məhsulun (ÜDM) artımı bu durumda mümkün olmayacaq. Əksinə, sözügedən sahədə tənəzzül olması və böyük geriləmənin yaşanması tamamilə gözləniləndir. Hazırda əsas proqnozlar ondan ibarətdir ki, Ermənistanda dolların və digər xarici valyutaların qiyməti bundan sonra da artacaq. Elə bu səbəbdən ölkədə zəruri ərzaq mallarının qiyməti getdikcə qalxır. Hökumət dramın möhkəmlənməsi üçün imkanların mövcud olmadığını bildirir. Çünki valyuta ehtiyatları çox azdır. Xaricdən, xüsusən də Rusiyadan köçürülən pulların miqdarının azalması isə daha böyük iqtisadi problemlərə yol açır. Mətbuatın yazdığına görə, un və un məhsulları (çörək) və dənli bitkilərin qiyməti orta hesabla 7,4 faiz, süd məhsulları və pendirin qiyməti orta hesabla 5,8 faiz, yumurtanın qiyməti isə 13,1 faiz artıb. Əhalinin ödəmə qabiliyyəti isə daha çox azalıb. Hazırda əhali qrupu arasında istehlak olunan təbii qazın və elektrik enerjisinin dəyərinin ödənilməsində ciddi problemlər yaşanır. Son hesablamalara görə, əhalinin 90 faizi qaz və elektrik enerjisinin dəyərini ödəyə bilmir və onların borcu milyon dollarla ölçülür.

Bütün bunlar isə Ermənistanı qarşıdakı günlərdə daha böyük problemin gözləməsi deməkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## "Azərişıq" ASC Zəngilan şəhəri ərazisində yeni 35/0,4 kV-luq "Zəngilan" Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması məqsədilə

***təkliflər sorğusu elan edir***

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 500 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Mirzəağa Əliyev küçəsi 130 ünvanından ala bilərlər.

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Maraqlanan şəxslər (+994 12) 440-39-93; daxili (92-19) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Əlaqələndirici şəxs - Namiq Heybətov namiq.heybetov@azerishiq.az

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 14 aprel 2022-ci il saat 12:00-a qədər qəbul olunur. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 15 aprel 2022-ci ildə saat 12:00-da Mirzəağa Əliyev küçəsi 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

## "Azərişıq" ASC Füzuli şəhəri ərazisində yeni 35/0,4 kV-luq "Füzuli" Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması məqsədilə

***təkliflər sorğusu elan edir***

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 500 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Mirzəağa Əliyev küçəsi 130 ünvanından ala bilərlər.

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Maraqlanan şəxslər (+994 12) 440-39-93; daxili (92-19) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Əlaqələndirici şəxs - Namiq Heybətov namiq.heybetov@azerishiq.az

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 14 aprel 2022-ci il saat 12:00-a qədər qəbul olunur. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 15 aprel 2022-ci il saat 12:00-da Mirzəağa Əliyev küçəsi 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 04.02.2022-ci il və 11.02.2022-ci il tarixlərdə

220 kV-luq "Qobu ES - Pirəkəşkül KES" EVX-nin tikintisi və elektrikquraşdırma işləri;

220 kV-luq "Xızı KES-Pirəkəşkül KES" EVX-nın tikintisi və elektrikquraşdırma işləri;

220 kV-luq "Xızı KES-Yaşma YS" EVX-nin tikintisi və elektrikquraşdırma işləri;

330/220/110/10 kV-luq "Qobu" Yarımstansiyasında və 330/220/110/10 kV-luq "Yaşma" Yarımstansiyasında 220 kV-luq Açıq Paylayıcı Qurğusunun hərəsində 1 ədəd yuvanın quraşdırılması işlərinin satın alınması məqsədi ilə elan edilmiş müsabiqələrin müddəti malgöndərənin (podratçının) sorğusuna əsasən uzadılır.

İddiaçıların tenderdə iştirak etmək üçün sənədlərin son təqdim olunma tarixi (tender təklifi və bank təminatı istisna olmaqla) 28 aprel 2022-ci il saat 15:00-dək uzadılır.

Bank təminatının və tender təklifinin son təqdim olunma tarixi 11 may 2022-ci il saat 15:00-dək uzadılır.

İddiaçıların tender təkliflərinin açılışı 12 may 2022-ci il saat 15:00-a keçirilir. Tender təklifləri Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanda (onlayn qaydada) açılacaqdır.

***Tender komissiyası***

## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti 1 tonluq konteynerlərdə maye xlorun satın alınması məqsədilə

***təkliflər sorğusu elan edir***

Təkliflər sorğusunda iştirak etmək istəyən iddiaçılar aşağıdakı ünvana (Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə (Hikmət Qasımov (hikmat.qasimov@azersu.az) (+99412) 431 47 67-2249) müraciət edə bilərlər.

İddiaçılar imzalanmış və möhürlənmiş təkliflərini 14 aprel 2022-ci il saat 16:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan təkliflər baxılmadan geri qaytarılacaqdır.

Təkliflər "Azərsu" ASC, Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda 15 aprel 2022-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyətinin 2021-ci il üzrə maliyyə hesabatları

## "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyəti

### 31 dekabr 2021-ci il tarixə pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| A. ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ: | 2020 | 2021 |
|---|---|---|
| Yığılmış ümumi sığorta haqqları | 154 804 000 | 148 581 000 |
| Ötürülmüş sığorta haqqları, təkrarsığortaçının payı | -25 584 000 | -20 029 000 |
| Ümumi sığorta ödənişləri | -69 776 000 | -65 669 000 |
| Təkrarsığortaçılara ötürülmüş ödənişlər | 11 531 000 | 2 247 000 |
| Alınmış haqq və komissiyalar | 0 | 721 000 |
| Ödənilmiş haqq və komissiyalar | -2 108 000 | -2 955 000 |
| İşçilər üzrə ödənilmiş xərclər | -13 105 000 | -17 697 000 |
| Ödənilmiş ümumi və inzibati xərclər | -14 620 000 | -12 690 000 |
| Alınmış subroqasiya gəlirləri | 1 040 000 | 800 000 |
| İcbari Sığorta Bürosunda depozitlərin yerləşdirilməsi | 0 | 0 |
| **Əməliyyat fəaliyyətinə yönəldilmiş vəsaitlər** | **42 182 000** | **33 309 000** |
| Ödənilmiş mənfəət vergisi | -10 943 000 | -7 415 000 |
| **Əməliyyat fəaliyyətinə yönəldilmiş xalis vəsaitlər** | **31 239 000** | **25 894 000** |
| | | |
| **B. İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Alınmış faiz gəliri | 10 734 000 | 10 407 000 |
| Qiymətli kağızların alınması | -37 690 000 | -12 435 000 |
| Qiymətli kağızların satılması | 39 866 000 | 21 784 000 |
| Əmlak və avadanlıq alınması | -2 520 000 | - 453 000 |
| Əmlak və avadanlıq satılması | 127 000 | 0 |
| Qeyri-maddi aktivlərin alınması | - 291 000 | - 553 000 |
| Qeyri-maddi aktivlərin satılması | 0 | 0 |
| Kredit təşkilatlarında yerləşdirilmiş məbləğlər | -26 960 000 | -29 692 000 |
| Kredit təşkilatlarından geri alınmış məbləğlər | 27 100 000 | 12 724 000 |
| **İnvestisiya fəaliyyətindən daxil olan xalis vəsaitlər** | **10 366 000** | **1 782 000** |
| | | |
| **C. MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Ödənilmiş dividendlər | -28 584 000 | -26 654 732 |
| Satış və yenidən alış əməliyyatları (REPO/ƏKSREPO) | -15 779 000 | -4 867 000 |
| Qısamüddətli borclar | 0 | 0 |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **-44 363 000** | **-31 521 732** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentinə valyuta məzənnəsi dəyişməsinin təsiri | - 53 000 | - 79 000 |
| **D. PUL VƏ PUL VƏSAİTLƏRİNDƏ XALİS ARTMA/(AZALMA)** | **-2 811 000** | **-3 924 732** |
| | | |
| PUL VƏ PUL VƏSAİTLƏRİ, ilin əvvəlində | 13 071 000 | 10 260 000 |
| | | |
| **PUL VƏ PUL VƏSAİTLƏRİ, ilin sonunda** | **10 260 000** | **6 335 268** |

## "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyəti

### 31 dekabr 2021-ci il tarixə kapitalda dəyişikliklər haqqında hesabat

*manatla*

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **31 dekabr 2015-cü il tarixinə qalıq** | **50 000 000.00** | **20 010 724** | **70 010 724** |
| Nizamnamə kapitalının artırılmasına yönəldilmişdir | | | |
| Dividendlər | | -17 356 000 | -17 356 000 |
| Hesabat dövrünün nəticəsi | | 19 386 918 | 19 386 918 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | **50 000 000.00** | **22 041 642** | **72 041 642** |
| Nizamnamə kapitalının artırılmasına yönəldilmişdir | | | |
| Dividendlər | | -18 983 000 | -18 983 000 |
| Hesabat dövrünün nəticəsi | | 13 094 322 | 13 094 322 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2017-ci il tarixinə qalıq** | **50 000 000.00** | **16 152 964** | **66 152 964** |
| Nizamnamə kapitalının artırılmasına yönəldilmişdir | | | |
| Dividendlər | | -13 572 000 | -13 572 000 |
| Hesabat dövrünün nəticəsi | | 22 416 121 | 22 416 121 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | **50 000 000.00** | **24 997 085** | **74 997 085** |
| Nizamnamə kapitalının artırılmasına yönəldilmişdir | | | |
| Dividendlər | | -21 472 000 | -21 472 000 |
| Hesabat dövrünün nəticəsi | | 31 078 868 | 31 078 868 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | **50 000 000.00** | **34 603 953** | **84 603 953** |
| Nizamnamə kapitalının artırılmasına yönəldilmişdir | | | |
| Dividendlər | | -28 584 000 | -28 584 000 |
| Hesabat dövrünün nəticəsi | | 20 634 926 | 20 634 926 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **50 000 000.00** | **26 654 880** | **76 654 880** |
| Nizamnamə kapitalının artırılmasına yönəldilmişdir | | | |
| Dividendlər | | -26 654 732 | -26 654 732 |
| Hesabat dövrünün nəticəsi | | 24 634 343 | 24 634 343 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **50 000 000.00** | **24 634 491** | **74 634 491** |

## "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyəti

### 31 dekabr 2021-ci il tarixdə tamamlanan il üzrə MƏNFƏƏT və ZƏRƏR HAQQINDA HESABAT

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **181 420 093** |
| birbaşa sığorta üzrə sığorta haqları | 166 866 108 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 12 210 889 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 1 231 188 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 1 111 908 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **-4 572 600** |
| **İnvestisiya gəlirləri üzrə** | **11 861 716** |
| **Subroqasiya gəlirləri** | **807 249** |
| **Sair gəlirlər** | **931 300** |
| **CƏMİ GƏLİRLƏR** | **190 447 758** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **123 435 222** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 75 026 437 |
| qaytarılan sığorta haqları üzrə | 2 935 867 |
| tənzimləmə xərcləri | 235 082 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 44 844 925 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 392 911 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 0 |
| **İşlərin aparılması xərcləri** | **35 097 475** |
| **Sair xərclər** | **1 713 856** |
| **CƏMİ XƏRCLƏR** | **160 246 553** |
| **Maliyyə mənfəəti (zərəri)** | **30 201 205** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | **0** |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **30 201 205** |
| **Mənfəət vergisi** | **5 566 862** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **24 634 343** |

### "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2021-ci il tarixə mühasibat balansı

*manatla*

| AKTİVLƏR | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | **3 683 237** | **3 121 314** |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | **0** | **0** |
| **Daşınmaz əmlaka investisiyalar** | **0** | **0** |
| **Qeyri-maddi aktivlər** | **837 921** | **1 160 851** |
| **Təxirə salınmış vergi aktivləri** | **0** | **0** |
| **Uzunmüddətli debitor borcları** | **0** | **0** |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **46 404 603** | **39 515 500** |
| dövlət qiymətli kağızları | 34 488 630 | 31 628 300 |
| qeyri-dövlət qiymətli kağızları | 11 915 973 | 7 887 200 |
| sair maliyyə aktivləri | 0 | 0 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | **23 595 164** | **23 869 039** |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0** | **0** |
| **Sair aktivlər** | **0** | **0** |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **74 520 925** | **67 666 704** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **17 505** | **17 505** |
| **Debitor borcları:** | **40 516 630** | **22 642 885** |
| birbaşa sığorta üzrə | 21 705 854 | 17 823 034 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | **3 856 665** | **2 837 200** |
| - təkrarsığortaçı üzrə | 978 395 | 257 011 |
| - təkrarsığortalı üzrə | 2 878 270 | 2 580 189 |
| asılı təşkilatlar üzrə | 0 | 0 |
| büdcə üzrə | 0 | 1 045 772 |
| iddia tələbləri üzrə | 0 | 0 |
| işçi heyəti üzrə | 0 | 0 |
| sığortalılara verilən borclar üzrə | 0 | 0 |
| sair debitorlar | 14 954 111 | 936 879 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **41 514 218** | **52 245 268** |
| kassa | 5 756 | 3 056 |
| hesablaşma hesabı | 7 959 411 | 3 068 584 |
| valyuta hesabı | 2 728 681 | 3 263 628 |
| depozit hesablar | 30 820 370 | 45 910 000 |
| sair pul vəsaitləri | 0 | 0 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **35 960 705** | **40 942 300** |
| dövlət qiymətli kağızları | 35 960 705 | 26 865 300 |
| qeyri-dövlət qiymətli kağızları | 0 | 10 676 000 |
| sair maliyyə aktivləri | 0 | 3 401 000 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **30 368 009** | **45 612 391** |
| həyat sığortası sahəsi üzrə | 0 | 0 |
| qeyri-həyat sığortası sahəsi üzrə | 30 368 009 | 45 612 391 |
| **Sair qısamüddətli aktivlər:** | **549 288** | **6 771 802** |
| gələcək hesabat dövrlərinin xərcləri | 0 | 0 |
| verilmiş avanslar | 459 689 | 6 669 694 |
| təhtəl hesablar | 89 599 | 102 108 |
| **Sair aktivlər** | **110 841** | **2 929 206** |
| ***Cəmi qısamüddətli aktivlər*** | **149 037 197** | **171 161 357** |
| **CƏMİ AKTİVLƏR** | **223 558 122** | **238 828 061** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **50 000 000** | **50 000 000** |
| **Emissiya gəliri** | **0** | **0** |
| **Geri alınmış kapital (səhmlər)** | **0** | **0** |
| **Kapital ehtiyatları:** | **0** | **893 808** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 0 | 893 808 |
| digər kapital ehtiyatları | 0 | 0 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **26 654 880** | **24 634 491** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 20 634 926 | 24 634 343 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı | 0 | 0 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət | 6 019 953 | 148 |
| Elan edilmiş dividendlər | 0 | 0 |
| ***Cəmi kapital*** | **76 654 880** | **75 528 299** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **108 847 771** | **128 664 753** |
| Həyat sığortası sahəsi üzrə : | 0 | 0 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 108 847 771 | 128 664 753 |
| **Qarşısıalınma tədbirləri fondu** | **770 969** | **1 100 360** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | **0** | **0** |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | **0** | **0** |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | **0** | **0** |
| **Kreditor borcları :** | **0** | **0** |
| əməyin ödənilməsi üzrə | 0 | 0 |
| büdcə üzrə | 0 | 0 |
| sosial sığorta və təminat üzrə | 0 | 0 |
| digər məcburi ödənişlər üzrə | 0 | 0 |
| asılı təşkilatlar üzrə | 0 | 0 |
| sair kreditorlar | 0 | 0 |
| **Sair uzunmüddətli öhdəliklər:** | **0** | **0** |
| gələcək hesabat dövrünün gəlirləri | 0 | 0 |
| alınmış avanslar | 0 | 0 |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **22 681 692** | **16 469 925** |
| təkrarsığortaçı üzrə | 22 681 692 | 16 469 925 |
| təkrarsığortalı üzrə | 0 | 0 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0** | **0** |
| **Sair öhdəliklər** | **0** | **0** |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **132 300 432** | **146 235 038** |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | **0** | **502 119** |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | **3 427 116** | **6 867 073** |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **0** | **0** |
| **Kreditor borcları:** | **5 258 834** | **4 079 839** |
| əməyin ödənilməsi üzrə | 2 304 | 764 159 |
| büdcə üzrə | 1 761 365 | 0 |
| sosial sığorta və təminat üzrə | 302 826 | 464 198 |
| digər məcburi ödənişlər üzrə | 152 302 | 178 783 |
| asılı təşkilatlar üzrə | 0 | 0 |
| sair kreditorlar | 3 040 037 | 2 672 699 |
| **Sair qısamüddətli öhdəliklər:** | **4 614 896** | **4 335 626** |
| gələcək hesabat dövrünün gəlirləri | 0 | 0 |
| alınmış avanslar | 4 614 896 | 4 335 626 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0** | **0** |
| **Sair öhdəliklər** | **1 301 965** | **1 280 067** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **14 602 811** | **17 064 724** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **146 903 242** | **163 299 762** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **223 558 122** | **238 828 061** |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

CASPIAN CONSULTING & PARTNERS

Zərifə Əliyeva küçəsi 93,
BEGOC Biznes Mərkəzi,6-cı mərtəbə
AZ1000 Bakı, Azərbaycan.
tel: +99412 505-58-47
+99412 505-58-48
mob: +99450 225-79-15
e-mail: office@cc.baku.az
veb səhifə: www.caspian-consulting.com

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**

**"PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyətinin**
**İdarə heyətinin sədri Ülviyyə Cabbarovanın diqqətinə**
***Rəy***

Biz **"PAŞA Sığorta" ASC** 31 dekabr 2021-ci il tarixinə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, Cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsinin" (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər çərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"Caspian Consulting and Partners" MMC

Direktor/Auditor: Elnurə Abdinova

Tarix: 29.03.2022

# "Azercell Life" sosial şəbəkələrdə

**Yeni vakansiyalar, mütəxəssislərin məsləhətləri, təlimlər və hədiyyəli müsabiqələr haqda xəbərləri bu səhifədə izləmək mümkündür**

Yeni strategiyası çərçivəsində öz qarşısına "Azərbaycanın ən arzu olunan iş yeri olmaq" məqsədini qoyan "Azercell" şirkəti "Azercell Life" sosial şəbəkə hesabını təqdim edir. Xüsusilə iş adamlarının və gənc nəslin nümayəndələrinin marağını cəlb edən bu səhifələrdə "Azercell"in gündəlik fəaliyyəti ilə daha yaxından tanış olmaq, şirkətdə keçirilən tədbirlər və mövcud vakansiyalar haqqında məlumat əldə etmək mümkündür.

Belə ki, 10.000-dən çox izləyicisi olan "Azercell Life" "Feysbuk" və "İnstaqram" hesablarında şirkətin İnsan Kapitalının İdarə Edilməsi Departamentinin mütəxəssisləri tərəfindən tələbələr, ümumiyyətlə, iş axtarışında olan namizədlər üçün lazımi məlumatlar yerləşdirilir. Burada iş müsahibələrinə hazırlıq, tərcümeyi-halın tərtibatına dair bilgilər və bu kimi digər faydalı məlumatlar əldə etmək mümkündür.

"Azercell"in fəaliyyətinə dair dolğun məlumatlarla zəngin olan bu səhifələrdə eyni zamanda şirkətin öz əməkdaşları üçün keçirdiyi tədbirlər, treninqlər və gənclər üçün nəzərdə tutulan xüsusi proqramlar ilə tanış olmaq mümkündür. Bu, gənc mütəxəssislərin lider mobil operatorun fəaliyyətini izləməklə onun təcrübəsindən faydalanması üçün əvəzolunmaz fürsət yaradır.

"Azercell Life" sosial şəbəkə hesablarında "Azercell Akademiyası"nın fəaliyyəti və iş prinsipləri, tədris edilən təlim proqramları da işıqlandırılır. Xatırladaq ki, 2003-cü ildən fəaliyyət göstərən akademiya Azərbaycanda müxtəlif sektor təmsilçiləri üçün korporativ təlim və konsaltinq xidmətlərini təklif edir. Bu günədək "Azercell Akademiyası" tərəfindən həm dövlət, həm də özəl qurumların təmsilçiləri üçün yüzlərlə təlim sessiyaları təşkil edilib.

"Azercell" əməkdaşları tərəfindən idarə edilən "Azercell Life" sosial şəbəkə hesablarında izləyicilərin diqqətini cəlb edən məsələlərə dair suallar operativ şəkildə cavablandırılır. Qeyd edək ki, yaxın zamanda "Azercell Life" səhifələrində izləyicilər üçün maraqlı və əyləncəli müsabiqələrə də start veriləcək.

Odur ki, "Azercell"də baş verən yeniliklərdən xəbərdar olmaq və dəyərli hədiyyələr qazanmaq üçün "Azercell Life" "İnstaqram" və "Feysbuk" sosial şəbəkə hesablarını izləyin!

**Instagram:https://www.instagram.com/azercell_life/**
**Facebook:https://www.facebook.com/AzercellLife**

# Heydər Əliyev Beynəlxalq Aeroportu dronlardan mühafizə olunacaq

**"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, Heydər Əliyev Beynəlxalq Aeroportunda pilotsuz uçuş aparatlarının (PUA) aerodrom ərazisi üzərində radiosiqnallarını bloklayaraq PUA-nın icazəsiz uçuşlarının qarşısını alan kompleks sistem tətbiq ediləcək.**



Pilotsuz uçuş aparatlarının aerodromlar üzərində və ya uçuş-enmə zolaqlarının yaxınlığında uçuşu reysin gecikdirilməsinə, uçuşun təxirə salınmasına səbəb ola bilər, dronlarla toqquşma və ya onların təyyarənin mühərrikinə düşməsi isə hava gəmisinin zədələnməsi ilə nəticələnə bilər.

Bu səbəbdən hava limanı ərazisinin pilotsuz uçuş aparatlarının icazəsiz istifadəsindən mühafizə edilməsi mülki aviasiya üçün prioritet vəzifədir və "Azərbaycan Hava Yolları" QSC-nin "Azəraeronaviqasiya" HHİ-nin (AZANS) əsas məqsədlərindən biridir.

Bununla əlaqədar AZANS Heydər Əliyev Beynəlxalq Aeroportunun bütün hava məkanının dronların qərəzli və ya qeyri-ixtiyari istifadəsindən qorunması üzrə tədbirlər həyata keçirəcək.

Sistem üfüqi və şaquli müstəvilərdə səmərəli qoruyucu radiusa malik olmaqla, uçuş cədvəlinə əsasən reyslərin gecikməsi riskinin qarşısını alacaq. Dron əleyhinə mühafizə sistemi rabitə operatorları şəbəkəsinin işinə və naviqasiya sisteminin siqnallarının ötürülməsinə təsir etməyəcək.

Sistemin iş prinsipi hava limanları yaxınlığında pilotsuz uçuş aparatlarının aşkar edilməsindən və onların idarə olunmasına müdaxilə etməklə uçuş yerinə qayıtmasına məcbur etməkdən ibarətdir.

Azərbaycan qanunvericiliyində pilotsuz uçuş aparatlarının idxalına və istismarına xüsusi icazənin alınmasının nəzərdə tutulmasına baxmayaraq, hava limanları yaxınlığında xüsusi təhlükə yaradan pilotsuz uçuş aparatlarının icazəsiz istifadəsi ilə bağlı hallar hələ də mövcuddur.

Hava gəmisinin pilotsuz uçuş aparatı ilə toqquşmasından yaranan zərər təsirinə görə quşla toqquşmadan daha təhlükəlidir. Onların geniş yayılması, eləcə də dron istifadəçilərinin təlim keçməməsi mülki aviasiya üçün potensial riskdir.

Dronlarla bağlı insidentlər mütəmadi olaraq dünyanın müxtəlif hava limanlarında müşahidə edilir. 2018-ci ilin dekabr ayında dronla toqquşma təhlükəsi səbəbindən London şəhərinin "Getvik" Hava Limanında yüzlərlə uçuş gecikdirilmişdir.

# TƏBİB: "Bəzi pandemiya müəssisələrinin, o cümlədən modul tipli xəstəxanaların fəaliyyəti dayandırılıb"

COVID-19-la mübarizə tədbirləri çərçivəsində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan modul tipli xəstəxanaların fəaliyyət istiqaməti aktiv yoluxma sayının artması və azalmasına uyğun olaraq tənzimlənir.

TƏBİB-in İctimaiyyətlə əlaqələr və tədbirlər şöbəsindən AZƏRTAC-a bildirilib ki, respublika üzrə fəaliyyətdə olan pandemiya tibb müəssisələrində müalicə olunan xəstə sayı nəzərdən keçirilib və təhlillər aparılıb. Yoluxanların sayında kəskin azalma müşahidə olunduğu üçün bütün növ resursların optimallaşdırılması və səmərəli tətbiqi məqsədilə bəzi pandemiya müəssisələrinin, o cümlədən modul tipli xəstəxanaların fəaliyyəti dayandırılıb.

Məsələ ilə əlaqədar olaraq bütün növ resursların optimallaşdırılması və səmərəli tətbiqi məqsədilə, coğrafi yerləşmələri nəzərə alınmaqla növbəti təlimat verilənədək, 7 saylı Uşaq Yoluxucu Xəstəxanası, FHN Modul, Quba Rayon Mərkəzi Xəstəxanası, Kiliniki Tibbi Mərkəzi, Gəncə Modul, Sabirabad Rayon Mərkəzi Xəstəxanasının pandemiya tibb müəssisəsi kimi fəaliyyəti dayandırılıb. Masallı Rayon Mərkəzi Xəstəxanasının fəaliyyəti isə qismən davam edir. Eyni zamanda qəbulu planlaşdırılan COVID xəstələrinin müvafiq ərazi üzrə digər müəssisələrə yönləndirilməsi təşkil edilir. Belə ki, hazırda 46 pandemiya tibb müəssisəsindən 7-si fəaliyyətini davam etdirir.

Bakı-Abşeron bölgəsi üzrə 4 tibb müəssisəsi - Yeni Klinika, Mərkəzi Gömrük Xəstəxanası, Məhəmmədli Modul, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu (ETACXI), qərb bölgəsi üzrə 2 tibb müəssisəsi - Ağdaş Rayon Mərkəzi Xəstəxanası, Şəmkir Rayon Kür Qəsəbə Xəstəxanası, cənub bölgəsi üzrə 1 tibb müəssisəsi - Masallı Rayon Mərkəzi Xəstəxanası fəaliyyətini qismən davam etdirir.






